Xalqın qəzeti!
# Xalq qəzeti
№ 91 (30785) 6 may 2025-ci il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan İslam həmrəyliyinə önəmli töhfələr verir

*Birinci vitse-prezident Mehriban Əliyeva Mərakeşin xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüb*



Səhifə ⇨ 2

## Kremlin Qafqaz mesajı: "3+3" formatında yeni görüş

**Cənubi Qafqazın üç respublikası – Azərbaycan, Ermənistan və Gürcüstanla üç qonşu dövlət – Türkiyə, Rusiya və İran arasında "3+3" formatında əməkdaşlıq bölgə ölkələrinin maraqları çərçivəsindədir. Amma bu platformada əməkdaşlığa ciddi əngəl olan iki məqam var. Bunlardan biri Ermənistanla Azərbaycan və Türkiyə, ikincisi isə Gürcüstanla Rusiya arasında mövcud problemlərdir.**




Bakı və İrəvan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə danışıqlar prosesi başa çatıb. Ancaq sülh müqaviləsi hələ də imzalanmayıb. Sazişin nə vaxt imzalanacağı isə qeyri-müəyyəndir. Bunun üçün Ermənistan hökuməti Azərbaycanın iki şərtini yerinə yetirməlidir. Məlumdur ki, bu şərtlərdən biri Hayastan konstitusiyasının dəyişdirilməsi, daha doğrusu, onun preambula hissəsindən Müstəqillik bəyannaməsinə istinadın çıxarılması, digəri isə ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsinə dair təşkilatın katibliyinə birgə müraciət ünvanlanmasıdır. İrəvan hələ ki, məlum tələbləri yerinə yetirməyib və bu səbəbdən üfüqdə sülh sazişinin imzalanmasının işartısı görünmür. Deməli, Azərbaycan və Ermənistanın əməkdaşlıq etməsi də hələlik mümkün deyil.

Bundan əlavə, Türkiyə və Ermənistan arasında həllini tapmamış bir sıra məsələlər platforma çərçivəsində iki ölkənin əməkdaşlığına mane olur. Türkiyə Sovet İttifaqının 1991-ci ildə dağılmasından sonra Ermənistanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olsa da, iki ölkə arasında münasibətlər son dərəcə soyuqdur.

Buna təsir edən bir neçə amil var. Əvvəla, iki ölkə arasında diplomatik nümayəndəlik mövcud deyil. Türkiyə Azərbaycan torpaqlarının işğalı səbəbindən 1993-cü ildən Ermənistanla sərhədi bağlı saxlayır. Bunun nəticəsində avtomobil və dəmir yolu əlaqəsi yoxdur.

*(ardı 13-cü səhifədə)*

## Moskvada suyu kimlər bulandırır?



Səhifə ⇨ 4

## Koçaryandan sonra Sarkisyan...



Səhifə ⇨ 4

## Qlobal güc paritetinin dəyişən koordinatları



Səhifə ⇨ 6

## Dekotininin "azadlıq vadisi"

### *Ermənistan üçün illüziya şarı*



**Fransa səfiri Olivye Dekotini Ermənistanı, obrazlı desək, şar kimi doldurmaqla məşğuldur. Belə təəssürat yaranır ki, o, rəsmi Parisin təmsilçisi yox, İrəvanın hansısa unudulmuş məhəlləsinin blogeridir və yaşadığı balaca ərazini durmadan reklam edir.**

Səfirin təəssübkeşliyi o qədər böyükdür ki, ən xırda detalları da uşaq kimi sevincək diqqətə çatdırır.

Hesab edirik ki, bütün bu sayaq "xidmətlərinə" görə Dekotiniyə diplomatik missiyasını başa vurduqdan sonra Ermənistanda jek müdiri, yaxud onun müavini vəzifəsi verilə bilər. Həm də ona görə ki, prezident Emmanuel Makronun erməni təəssübünü bütün dəyərlərə qurban verməyə hazır komandası iqtidardan getsə, hakimiyyətə ağlı başında olan biri gəlsə, hər kəlməsindən sabun köpüyü tökülən Dekotiniyə Fransanın hətta ümumi hamamlarında da iş tapılmayacaq.

*(ardı 6-cı səhifədə)*

## Sənaye istehsalı yeni sahələrlə genişlənir



**2025-ci ilin yanvar-mart aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 15,8 milyard manatlıq məhsul istehsal edilib.**

Hesabat dövründə ölkənin qeyri-neft-qaz sektorunda isə məhsul istehsalı 3,5 faiz artıb. Ümumilikdə, son 5 ildə qeyri-neft-qaz sektoru real olaraq 25,9 faiz, qeyri-neft-qaz sənayesində yaradılmış əlavə dəyər isə 1,5 dəfə çoxalıb. Bu və digər məsələlər barədə mayın 5-də Heydər Əliyev Mərkəzində keçirilən "Azərbaycan əczaçılıq sənayesi: dünən, bu gün və sabah" adlı toplantıda iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev məlumat verib.

Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırıldığını, bunun da hesabına 10 min 600-dən artıq daimi iş yerinin yaradıldığını diqqətə çatdıran nazir müavini deyib ki, ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

*(ardı 11-ci səhifədə)*

## İran "razılaşma"sı niyə baş tutmayıb?

Səhifə ⇨ 13

# Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının səfirlikləri, daimi nümayəndəlikləri, konsulluqları və fəxri konsulları haqqında əsasnamələrin yeni layihələrini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində xidmət keçən diplomatik xidmət əməkdaşlarının vəzifə maaşlarının məbləği və diplomatik xidmət stajına, diplomatik rütbəyə, təmsilçiliyə, hakimiyyət səlahiyyətinə görə vəzifə maaşına əlavələr, eləcə də həmin əməkdaşların digər təminatları ilə əlaqədar təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

4.1. Naxçıvan Muxtar Respublikasındakı İdarəsi əsasında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Aparatının müvafiq idarəsinin yaradılması ilə bağlı tədbirlər görsün;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5** "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 31 oktyabr tarixli 307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 916 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) 2-ci hissəsi ləğv edilsin.

**6** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 yanvar tarixli 16 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 22 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ləğv edilsin.

**7** "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1014 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 656 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**8** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində işləyən diplomatik xidmət əməkdaşlarının vəzifələri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1066 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 10, maddə 954 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 may 2025-ci il**

# Bakı şəhəri Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən İmam məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Bakı şəhəri Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən İmam məscidində təmir-bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 600,0 (altı yüz) min manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 may 2025-ci il**

# Belarusun Baş naziri Aleksandr Turçin Azərbaycana rəsmi səfərə gəlib



**Belarus Respublikasının Baş naziri Aleksandr Turçin mayın 5-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

Belarusun Baş naziri Aleksandr Turçini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

# Milli Məclisin sədri Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfər edib



**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 5-də Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfər edib.**

Səfər çərçivəsində Sahibə Qafarovanın Birləşmiş Ərəb Əmirlikləri rəsmiləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

***XQ***

# Birinci vitse-prezident Mehriban Əliyeva Mərakeşin xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 5-də ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüblər.**



Söhbət zamanı müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edilib, Azərbaycan və Mərakeş arasında tarixi, mədəni və dini yaxınlığa əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğu vurğulanıb.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı qeyd edilib.

Görüşdə digər istiqamətlərlə yanaşı, humanitar və mədəni sahələrdə münasibətlərin genişləndirilməsi üçün böyük potensialın olduğu bildirilib. Bu xüsusda, Azərbaycan Mədəniyyət Günlərinin Mərakeşdə, Mərakeş Mədəniyyət Günlərinin isə ölkəmizdə keçirilməsi məmnunluqla xatırlanıb, həmin tədbirlərin xalqlarımızın zəngin mədəniyyəti ilə qarşılıqlı şəkildə yaxından tanış olmasına geniş imkan yaratdığı qeyd edilib.

Azərbaycanın mənzil-qərargahı Mərakeşdə yerləşən ICESCO ilə əməkdaşlığına toxunulub, bu il Bakıda ICESCO-nun ölkəmizdə regional ofisinin yaradıldığı vurğulanıb. Ölkəmizin İslam həmrəyliyinin gücləndirilməsi, müsəlman dövlətləri arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyi qeyd olunub.

Söhbət zamanı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Mərakeşə səfəri və bu çərçivədə keçirilmiş görüşlər xatırlanıb. Həmin görüşlərdə Heydər Əliyev Fondunun sosial sahədə fəaliyyəti, uşaqlara qayğı ilə bağlı məsələlərin müzakirə edildiyi vurğulanıb.

Xanım Şahzadə Lalla Hasnaanın ölkəmizə səfərinin onun Azərbaycanla daha yaxından tanış olması baxımından yaxşı imkan yaradacağına və əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

***AZƏRTAC***

# Əli Əsədovun belaruslu həmkarı ilə görüşü

**Mayın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Belarus Respublikasının Baş naziri Aleksandr Turçin ilə görüşüb. Görüşdə Əli Əsədov Belarusun Baş naziri vəzifəsinə təyin olunması münasibətilə A.Turçini təbrik edib, rəhbərlik etdiyi hökumətə uğurlar arzulayıb.**



Əvvəlcə hökumət başçıları təkbətək söhbət əsnasında Azərbaycan-Belarus iqtisadi-ticarət əməkdaşlığının cari məsələlərini müzakirə ediblər.

Sonra Baş nazirlər danışıqları iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdiriblər. Görüşdə tərəflər Azərbaycan-Belarus dövlətlərarası münasibətlərinin yüksək səviyyəsindən məmnunluqlarını bildirib, iki ölkənin prezidentlərinin sıx təmasları və birgə səyləri nəticəsində müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın





dinamik inkişaf etdiyini vurğulayıblar. İqtisadi-ticari əməkdaşlıq Azərbaycan-Belarus münasibətlərinin prioritet sahəsi kimi qiymətləndirilib. Ötən ilin yekunları üzrə qarşılıqlı ticarətin həcmində nəzərəçarpacaq artımın müşahidə olunduğunu vurğulayan tərəflər əmtəə dövriyyəsinin artması tendensiyasının dəstəklənəcəyinə əminliklərini ifadə ediblər.

Qarşılıqlı ticarətin şaxələndirilməsinə, investisiya əməkdaşlığının artırılmasına xüsusi diqqət yetirildiyi diqqətə çatdırılıb. Hökumətlərarası Komissiyanın həmsədrlərinə bu məsələyə xüsusi diqqət yetirmək tapşırılıb.

Bildirilib ki, səfər çərçivəsində təşkil olunan birgə biznes-forum da bu məqsədlərə xidmət edəcək. Forum çərçivəsində müxtəlif sahələrdə qarşılıqlı faydalı layihələrə dair bir sıra sazişlərin imzalanması gözlənilir.

İki ölkə prezidentlərinin razılaşmaları və tapşırıqlarının icrası xüsusi vurğulanıb. Xüsusilə də məntiqi olaraq başa çatdırılan bir sıra layihələrin uğurla inkişaf etdirilməsindən məmnunluq bildirilib.

Sənaye kooperasiyası sahəsində səmərəli əməkdaşlığı qeyd edən tərəflər Gəncə avtomobil zavodu ilə Belarusun aparıcı maşınqayırma müəssisələri arasında həm kənd təsərrüfatı, həm də kommunal avadanlıqların yığılması üzrə işlərin davam etdirilməsi və genişləndirilməsi məqsədilə qarşılıqlı fəaliyyətə xüsusi diqqət yetiriblər.

Tərəflər ötən ilin noyabrında COP29 iqlim konfransı çərçivəsində yanğın təhlükəsizliyinin təmin edilməsinə cəlb olunmuş Azərbaycan Fövqəladə Hallar Nazirliyinin ehtiyacları üçün Gəncə avtomobil zavodunda yanğınsöndürmə avadanlığının birgə yığılması üzrə məhsuldar əməkdaşlığı yüksək qiymətləndiriblər. Belarusun Baş nazirinin səfər zamanı tanış olması nəzərdə tutulan Azərbaycanda birgə lift yığma zavodunun yaradılması layihəsinin uğurla reallaşdırıldığı vurğulanıb.

Tərəflər kənd təsərrüfatı sahəsində əməkdaşlığın müsbət dinamikasını qeyd edərək, aqrar məhsulların tədarükünün şaxələndirilməsinə və hər iki tərəfdən artırılmasına qarşılıqlı surətdə hazır olduqlarını bildiriblər.

Bununla bağlı Minskdəki Azərbaycan Ticarət Evinin ölkəmizin məhsullarının Belarus bazarına ixracının genişləndirilməsində rolu qeyd olunub.

Sosial sahədə, o cümlədən dövlət xidmətlərinin göstərilməsi istiqamətində əməkdaşlığın inkişafı perspektivli sahə kimi qeyd edilib və görüşün yekunlarına dair bu istiqamətdə ikitərəfli sənədlərin imzalanmasının vacibliyi vurğulanıb. Tərəflər dərman və baytarlıq preparatlarının istehsalı sahəsində uğurlu qarşılıqlı fəaliyyəti alqışlayıblar.

Mədəni-humanitar əməkdaşlığın ənənəvi yüksək səviyyəsindən məmnunluq ifadə olunub. Hökumət başçıları qarşılıqlı ənənəvi Mədəniyyət günlərinin keçirilməsinin bərpa edilməsini, elmi, tələbə və gənclər mübadiləsini, həmçinin regionlararası qarşılıqlı fəaliyyətin genişləndirilməsini yüksək qiymətləndiriblər.

Elmi-texniki təcrübə mübadiləsi yolu ilə texniki peşə təhsili sahəsində əməkdaşlığın inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyi qeyd edilib. Görüşdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərinə dair ətraflı fikir mübadiləsi aparılıb. Tərəflərin dövlət başçılarının tapşırıqlarının icrası istiqamətində gələcək birgə işə hazır olduqları təsdiqlənib. Danışıqların yekunları olaraq sosial müdafiə, baytarlıq və sənaye kooperasiyası sahələrində bir sıra sənədlər imzalanıb.

***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (bundan sonra – Nazirlik) Azərbaycan Respublikasının xarici siyasətini və bu sahədə dövlət tənzimləməsini, eləcə də xarici əlaqələr sahəsində Azərbaycan Respublikası dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsini həyata keçirən və diplomatik xidmət orqanlarının vahid sisteminə rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Konsul Nizamnaməsini, Azərbaycan Respublikasının digər qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı və Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Bakı şəhərində yerləşir.

**2. Nazirliyin fəaliyyət istiqamətləri**

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Respublikasının xarici siyasətini həyata keçirmək və Azərbaycan Respublikasını beynəlxalq münasibətlərdə təmsil etmək;

2.1.2. Azərbaycan Respublikasının müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, milli təhlükəsizliyini və milli maraqlarını xarici siyasət vasitələri ilə və diplomatik üsullarla qorumaq və təmin etmək;

2.1.3. Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında dostluq münasibətlərini, sülhü və əməkdaşlığı inkişaf etdirmək;

2.1.4. beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına xarici siyasət vasitələri ilə töhfə və diplomatik üsullarla dəstək vermək;

2.1.5. xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin hüquqlarını və qanuni mənafelərini xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiə etmək;

2.1.6. Azərbaycan Respublikasının xarici siyasətinin konsepsiyası və əsas istiqamətləri üzrə təkliflər hazırlamaq və Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;

2.1.7. Azərbaycan Respublikasının xarici siyasətinin vahid xətt üzrə həyata keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətini əlaqələndirmək;

2.1.8. beynəlxalq siyasi, ictimai, iqtisadi və təhlükəsizlik vəziyyətini, xarici dövlətlərin xarici və daxili siyasətini, beynəlxalq təşkilatların fəaliyyətini təhlil etmək və Azərbaycan Respublikasının digər dövlət orqanlarına (qurumlarına) müvafiq məlumatları və təklifləri təqdim etmək;

2.1.9. Azərbaycan Respublikasının xarici dövlətlərlə diplomatik və konsul əlaqələrini, beynəlxalq təşkilatlarla diplomatik əlaqələrini həyata keçirmək;

2.1.10. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin inkişafına dəstək vermək;

2.1.11. Azərbaycan Respublikasının dövlət protokolunun təmin edilməsində iştirak etmək;

2.1.12. konsul işini təşkil etmək və konsul funksiyalarını həyata keçirmək;

2.1.13. xarici siyasət və beynəlxalq münasibətlər, habelə diplomatik xidmət orqanlarında xidmət sahələrində normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Nazirliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Nazirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsini təmin etmək və əlaqələndirmək;

3.1.2. Azərbaycan Respublikasının milli maraqlarına uyğun sahələr üzrə xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələr yaratmaq, əməkdaşlığı genişləndirmək və inkişaf etdirmək;

3.1.3. Azərbaycan Respublikasını beynəlxalq münasibətlərdə təmsil etmək və onun milli maraqlarını qorumaq, Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında dostluq münasibətlərini, sülhü və əməkdaşlığı inkişaf etdirmək;

3.1.4. Azərbaycan Respublikasının beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi sahəsində təşəbbüslərini xarici siyasət vasitələri ilə həyata keçirmək;

3.1.5. xarici dövlətlərin xarici və daxili siyasəti, həmçinin beynəlxalq təşkilatların fəaliyyəti barədə məlumatları, Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əlaqələrinə dair təklifləri Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək və Azərbaycan Respublikası Prezidentinin xarici siyasət sahəsində qərarlarını icra etmək;

3.1.6. milli təhlükəsizliyin təmin olunmasından irəli gələn məsələləri xarici siyasət vasitələri ilə və diplomatik üsullarla həyata keçirmək;

3.1.7. Azərbaycan Respublikası ilə xarici dövlətlər və beynəlxalq təşkilatlar arasında danışıqların aparılmasını təşkil və təmin etmək;

3.1.8. beynəlxalq münasibətlərdə baş verən və Azərbaycan Respublikasının milli maraqları baxımından əhəmiyyət kəsb edən hadisələr barədə məlumatları əldə etmək;

3.1.9. iqlim dəyişmələri üzrə aparılan beynəlxalq danışıqlarda Azərbaycan Respublikasının milli maraqlarını müdafiə etmək, iqlim diplomatiyası sahəsində beynəlxalq tərəfdaşlıq qurmaq və iqlim siyasəti ilə bağlı beynəlxalq təşəbbüslərə münasibətdə Azərbaycan Respublikasının mövqeyinin formalaşdırılmasına dəstək vermək;

3.1.10. Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda hüquqlarını və qanuni mənafelərini xarici siyasət vasitələri ilə və diplomatik üsullarla müdafiə etmək;

3.1.11. dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətinin vahid xarici siyasət xəttinə uyğun həyata keçirilməsini təşkil etmək və həmin orqanların (qurumların) bu istiqamətdə fəaliyyətini əlaqələndirmək, eləcə də aidiyyəti üzrə təklif və tövsiyələr vermək;

3.1.12. Azərbaycan Respublikasının üzv və ya müşahidəçi olduğu beynəlxalq təşkilatların orqanlarında, bölmələrində və nümayəndəliklərində (bundan sonra – beynəlxalq təşkilatların orqanları) müvafiq vəzifələr üzrə Azərbaycan Respublikasına kvota ayrılması və ya ayrılmış kvotanın artırılması, həmçinin Azərbaycan Respublikasının üzv və ya müşahidəçi olduğu, eləcə də əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların orqanlarında müvafiq vəzifələrin Azərbaycan Respublikasının vətəndaşları tərəfindən tutulması istiqamətində iş aparmaq;

3.1.13. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə, o cümlədən Azərbaycan Respublikasında istehsal olunan əmtəələrin ixracının təşviqinə və Azərbaycan Respublikasına xarici sərmayələrin cəlb olunmasına dəstək vermək;

3.1.14. Azərbaycan Respublikasının xarici siyasəti çərçivəsində beynəlxalq yardım fəaliyyətinə dair təklif vermək, beynəlxalq yardımın təşkilində, həyata keçirilməsində və əlaqələndirilməsində iştirak etmək;

3.1.15. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyətinin təqdimatını və təşviqini təmin edən tədbirlər görmək, Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda, eləcə də xarici dövlətlərin Azərbaycan Respublikasında mədəniyyət tədbirlərinin keçirilməsinə dəstək göstərmək, həmçinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin tabeliyində olan mədəniyyət mərkəzlərinin inkişafını təmin etmək və fəaliyyətini əlaqələndirmək;

3.1.16. Azərbaycan Respublikasının milli maraqları baxımından dövlət orqanlarının (qurumlarının), qeyri-hökumət təşkilatlarının və işgüzar dairələrin xarici dövlətlərin dövlət orqanları (qurumları), qeyri-hökumət təşkilatları və işgüzar dairələri ilə, habelə Azərbaycan Respublikasının üzv və ya müşahidəçi olduğu, eləcə də əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların orqanları ilə əlaqələrinin qurulmasına və inkişaf etdirilməsinə kömək göstərmək;

3.1.17. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidəni həyata keçirmək və normativ hüquqi aktların bu müqavilələrdən irəli gələn öhdəliklərə uyğunlaşdırılmasına dair təkliflərin hazırlanmasında iştirak etmək;

3.1.18. Azərbaycan Respublikasının beynəlxalq müqavilələr bağlaması və ya bağladığı beynəlxalq müqavilələrin ləğvi barədə təkliflərə münasibət bildirmək, eləcə də beynəlxalq müqavilə layihələrinin mətnlərinə dair rəy və təkliflər vermək, dövlət dilinə tərcümə edilmiş beynəlxalq müqavilə mətnlərinin xarici dildə olan mətnlərinə uyğunluğunu təsdiq etmək;

3.1.19. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hallar istisna olmaqla, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin depozitarisi funksiyasını həyata keçirmək, beynəlxalq müqavilələrin qeydiyyatını, uçotunu və saxlanılmasını təmin etmək;

3.1.20. xarici siyasət və beynəlxalq münasibətlər, habelə diplomatik xidmət orqanlarında xidmət sahələrində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.21. müəyyən edilmiş səlahiyyətlər daxilində beynəlxalq məhkəmə və arbitraj işlərində Azərbaycan Respublikasının milli maraqlarını müdafiə etmək;

3.1.22. Azərbaycan Respublikasının xarici siyasəti ilə bağlı rəsmi bəyanatlar, şərh və açıqlamalar vermək, dövlət orqanlarını (qurumlarını), media subyektlərini və jurnalistləri beynəlxalq vəziyyət və Azərbaycan Respublikasının xarici siyasəti haqqında məlumatlandırmaq;

3.1.23. Azərbaycan Respublikası haqqında rəsmi məlumatların xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda yayılmasını təmin etmək;

3.1.24. diplomatik xidmət orqanlarının fəaliyyəti haqqında əhalinin və beynəlxalq ictimaiyyətin məlumatlandırılmasını, internet saytının və sosial media hesablarının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda və sosial media hesablarında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.25. xarici media nümayəndələrinin akkreditasiyasını həyata keçirmək;

3.1.26. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası və digər beynəlxalq əlaqələrinin qurulmasına və həyata keçirilməsinə kömək göstərmək;

3.1.27. konsul işini təşkil etmək və konsul funksiyalarını həyata keçirmək, eləcə də fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılmasında iştirak etmək;

3.1.28. xarici ölkələrin Azərbaycan Respublikasında fəaliyyət göstərən diplomatik nümayəndəlik və konsulluqlarının, habelə beynəlxalq təşkilatların nümayəndəliklərinin əməkdaşlarının, inzibati-texniki xidmət heyətinə daxil olan şəxslərin və onların ailə üzvlərinin, həmçinin Azərbaycan Respublikasına diplomatik missiya ilə və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xüsusi missiya ilə səfər edən əcnəbilərin qeydiyyatını aparmaq;

3.1.29. Azərbaycan Respublikasının dövlət protokolunun, yüksək səviyyədə dövlətlərarası və hökumətlərarası mübadilələrin protokol təminatının həyata keçirilməsində iştirak etmək;

3.1.30. dövlət orqanları (qurumları) ilə Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının, həmçinin Azərbaycan Respublikasında fəaliyyət göstərən beynəlxalq təşkilatların orqanlarının qarşılıqlı əlaqələrinə kömək göstərmək;

3.1.31. açıqlanmasına və ya məlumat verilməsinə qanunla məhdudiyyət qoyulmuş hallar istisna olmaqla, xarici dövlətlərin diplomatik nümayəndəlik və konsulluqları, həmçinin beynəlxalq təşkilatların orqanları ilə Azərbaycan Respublikasının dövlət orqanları (qurumları) arasında qarşılıqlı göndərilən dəvətlərin, eləcə də birgə keçirilməsi planlaşdırılan tədbirlərin məqsəd və mahiyyəti barədə, habelə həmin tədbirlərdə əldə edilmiş razılaşmalar, imzalanması nəzərdə tutulan və imzalanmış sənədlər barədə məlumatları əldə etmək və Azərbaycan Respublikasının milli maraqlarına uyğunluğu baxımından münasibət bildirmək;

3.1.32. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq diplomatik və konsul imtiyazlarının və immunitetlərinin yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirmək;

3.1.33. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, həmçinin normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda Azərbaycan Respublikasında akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının, eləcə də beynəlxalq təşkilatların orqanlarının əməkdaşlarını arzuolunmaz şəxs elan etmək və bu barədə məlumatı aidiyyəti üzrə təqdim etmək;

3.1.34. xaricdə yaşayan soydaşlarla bağlı dövlət siyasətinin həyata keçirilməsinə və əlaqələrin qurulmasına, eləcə də onlar arasında əməkdaşlığın inkişafına, həmrəyliyin gücləndirilməsinə və milli mənafeyə xidmət edən tədbirlərin təşkilinə dəstək vermək;

3.1.35. xarici dövlətlərdə silahlı münaqişələr və fövqəladə hallar zamanı, həmçinin təhlükəsizliyə təhdid yarandığı digər hallarda, müvafiq xarici dövlətdə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin, eləcə də orada olan digər Azərbaycan Respublikası vətəndaşlarının təhlükəsizliyini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə təmin etmək, həmçinin onların təxliyəsini təşkil etmək;

3.1.36. Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının diplomatik xidmət orqanı əməkdaşlarının, dövlət orqanlarının nümayəndələrinin və onların (aparatlarının) işçilərinin, həmçinin dövlət qulluğuna aid olmayan vəzifələrdə işləyən işçilərin təhlükəsizlik məsələləri ilə bağlı davranış qaydalarını Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti ilə birlikdə müəyyən etmək;

3.1.37. Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının fəaliyyət istiqamətlərindən irəli gələn vəzifələrin onların yerləşdikləri şəhərdən kənarda – qəbul edən dövlətin digər inzibati ərazi vahidində, həmçinin diplomatik nümayəndəliyin və ya konsulluğun rəhbərinin eyni zamanda akkreditə olunduğu üçüncü dövlətdə və ya beynəlxalq təşkilatda yerinə yetirilməsi işini təşkil etmək;

3.1.38. diplomatik xidmət orqanlarında fəaliyyətin normativ hüquqi aktlara uyğun təşkil olunmasını təmin etmək və bu məqsədlə nəzarəti həyata keçirmək;

3.1.39. diplomatik xidmət orqanlarında dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.40. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.41. diplomatik və rəsmi yazışmalar aparmaq, onların qeydiyyatını, saxlanılmasını, arxivləşdirilməsini və mühafizəsini təmin etmək;

3.1.42. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaq;

3.1.43. diplomatik xidmət orqanlarının kadr təminatını həyata keçirmək və diplomatik xidmət orqanı əməkdaşlarının əlavə təhsili üçün tədbirlər görmək;

3.1.44. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək, strukturuna daxil olan qurumların fəaliyyəti üçün zəruri şəraiti təmin etmək, həmçinin onların binalarının tikintisi və yenidən qurulması ilə bağlı məsələlərin icrasını təşkil etmək;

3.1.45. Nazirliyin strukturuna daxil olan qurumların maliyyələşdirilməsini və maddi-texniki təminatını ayrılmış vəsait hüdudlarında həyata keçirmək, habelə ayrılan büdcə vəsaitindən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadəni təmin etmək;

3.1.46. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.1. Bu Əsasnamə ilə müəyyən olunmuş vəzifələrini yerinə yetirmək üçün Nazirlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. xarici dövlətlərin xarici siyasət sahəsində müsbət təcrübəsini öyrənmək və bu təcrübədən Azərbaycan Respublikasının milli maraqlarına uyğun qaydada istifadə etmək;

4.1.2. xarici siyasət məsələləri ilə bağlı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrin ləğv edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

4.1.3. xarici dövlətlərin diplomatik nümayəndəlikləri və konsulluqları, beynəlxalq təşkilatların orqanları, xarici dövlətlərin dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, media subyektləri ilə və jurnalistlərlə əməkdaşlıq əlaqələri qurmaq, görüşlər keçirmək və yazışmalar aparmaq;

4.1.4. dövlət orqanlarının (qurumlarının) xarici əlaqələr sahəsində fəaliyyətinin əlaqələndirilməsindən irəli gələn hüquqları həyata keçirmək və onların xarici əlaqələr sahəsində fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

4.1.5. Azərbaycan Respublikasının, xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndə heyətlərinin səfərlərinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

4.1.6. dövlət orqanlarının (qurumlarının) xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən nümayəndələrinin, habelə xaricə ezam olunmuş nümayəndə heyətlərinin qərar və hərəkətləri Azərbaycan Respublikasının milli maraqlarına cavab vermədiyi təqdirdə, həmin halların qarşısının alınması üçün aidiyyəti dövlət orqanı (qurumu) qarşısında məsələ qaldırmaq və ya bununla bağlı Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;

4.1.7. Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının təsis olunması barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək;

4.1.8. xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərdə qarşılıqlılıq prinsipinin tətbiq edilməsi təşəbbüsü ilə çıxış etmək;

4.1.9. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (idarə, şöbə) yaratmaq, yenidən təşkil etmək və ləğv etmək;

4.1.10. diplomatik xidmət orqanlarında xidmət üçün zəruri şərait yaradılması məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları (qurumları) qarşısında məsələ qaldırmaq;

4.1.11. konsul işini təşkil etmək və konsul funksiyalarından irəli gələn hüquqları həyata keçirmək;

4.1.12. aparılan konsul əməliyyatlarına görə dövlət rüsumunu və faktiki xərcləri tutmaq, eləcə də konsul əməliyyatlarının icrası üçün kənar xidmət təchizatçıları ilə əməkdaşlıq etmək;

4.1.13. Azərbaycan Respublikasının dövlət protokolunun və yüksək səviyyədə dövlətlərarası və hökumətlərarası mübadilələrin protokol təminatının icrasından irəli gələn hüquqları həyata keçirmək;

4.1.14. xarici siyasət və beynəlxalq münasibətlər, habelə diplomatik xidmət orqanlarında xidmət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.15. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.16. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları öz fəaliyyətinə cəlb etmək, komissiyalar və işçi qruplar yaratmaq;

4.1.17. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair rəy vermək, analitik materiallar hazırlamaq, təhlillər, tədqiqatlar və ümumiləşdirmələr aparmaq;

4.1.18. xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində yaradılan birgə hökumətlərarası və digər komissiyaların, eləcə də işçi qrupların işində iştirak etmək, konfranslar, forumlar, seminarlar, iclaslar, görüşlər, sərgilər və digər tədbirlər təşkil etmək, həmçinin bu tədbirlərin təşkilinə dəstək vermək;

4.1.19. normativ hüquqi aktlarda nəzərdə tutulan qaydada diplomatik xidmət orqanı əməkdaşlarının xidməti fəaliyyətini qiymətləndirmək və Nazirlikdə xidmət keçən diplomatik xidmət əməkdaşlarının attestasiyasını həyata keçirmək;

4.1.20. diplomatik xidmət orqanlarının fəaliyyətində istifadə olunan telekommunikasiya şəbəkəsini qurmaq və texniki təminatını həyata keçirmək;

4.1.21. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.22. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan digər qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar, müvafiq ali təhsil müəssisəsi və s.) Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5. 2. Nazirliyin strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

5.3. Nazirliyin Aparatının diplomatik xidmət orqanı əməkdaşlarının say həddini və Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların, müvafiq ali təhsil müəssisəsinin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.4. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının xarici işlər naziri (bundan sonra – nazir) rəhbərlik edir. Nazir Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.5. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Nazirin müavinləri onlara nazir tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və buna görə şəxsən məsuliyyət daşıyırlar.

5.6. Nazir:

5.6.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. nazir müavinləri arasında vəzifə bölgüsü aparır;

5.6.3. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və diplomatik xidmət orqanı əməkdaşlarının say həddi daxilində Nazirliyin strukturuna daxil olan qurumların strukturunu və ştat cədvəlini, əməyin ödənişi fondunu, ayrılmış büdcə təxsisatı daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.6.4. dövlət büdcəsindən ayrılmış vəsait və Nazirliyin Aparatının diplomatik xidmət orqanı əməkdaşlarının müəyyən olunmuş say həddi daxilində Nazirliyin Aparatının struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə qərarlar qəbul edir;

5.6.5. diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təşkil edir və onların fəaliyyətinə nəzarət edir;

5.6.6. ikitərəfli və çoxtərəfli danışıqlarda Azərbaycan Respublikasını təmsil edir, qanuna uyğun olaraq və ya verilmiş səlahiyyətlər daxilində Azərbaycan Respublikasının beynəlxalq müqavilələrini və digər müvafiq beynəlxalq sənədlərini imzalayır;

5.6.7. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri rəhbərlərinin və onların müavinlərinin, baş konsullarının təyin edilməsi və geri çağırılması, fəxri konsullarının isə təyin edilməsi və fəaliyyətinə xitam verilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

5.6.8. diplomatik xidmət əməkdaşlarına fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələrinin verilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.6.9. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada diplomatik xidmət orqanı əməkdaşlarını, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Nazirliyin xüsusi tapşırıqlar üzrə səfirlərini və idarə rəislərini vəzifəyə təyin və vəzifədən azad edir, onların rotasiyasını həyata keçirir, həmçinin diplomatik xidmət əməkdaşlarına diplomatik rütbələr verir;

5.6.10. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.6.11. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş səlahiyyətləri daxilində diplomatik xidmət orqanı əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.6.12. xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.6.13. Nazirliyin strukturuna daxil olan qurumların vəzifəli şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqları rəhbərlərinin qanunvericiliyə zidd olan qərarlarını (əmrlərini) ləğv edir;

5.6.14. Nazirliyin Aparatının struktur bölmələrinin və strukturuna daxil olan digər qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.10-cu bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.6.15. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların əsasnamələrini (nizamnamələrini) təsdiq olunmaq üçün təqdim edir;

5.6.16. Nazirliyi təmsil edir;

5.6.17. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.6.18. diplomatik xidmətə qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsini təmin edir;

5.6.19. Nazirliyin strukturuna daxil olan qurumların xidməti və maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını (təftişini) təşkil edir;

5.6.20. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.7. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən və Nazirliyin digər rəhbər əməkdaşlarından ibarət tərkibdə Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilər.

5.8. Nazirliyin Kollegiyasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.9. Nazirliyin Kollegiyasının iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlər müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.

5.10. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.10.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.10.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.10.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.10.4. qanunvericiliklə müəyyən edilmiş hallarda müvafiq dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.10.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.6.14-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

5.10.6. bu Əsasnamənin 5.10.1–5.10.5-ci yarımbəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.11. Nazirliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.12. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edə bilərlər.

5.13. Nazirliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.14. Nazirlikdə xidmətə (qulluğa) qəbulla bağlı keçirilən müsabiqə və ya müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin strukturu

**1** Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Aparatı – idarələr və şöbələr.
**2.** Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları.

# Moskvada suyu kimlər bulandırır?

**“O ağır illərdə yaradılmış şanlı dostluq və qarşılıqlı yardım ənənələri bundan sonra da Rusiya ilə Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin inkişafı üçün etibarlı əsas kimi xidmət edəcəkdir”. Bu cümlə Rusiya Prezidenti Vladimir Putinin Qələbənin 80 illiyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubundan gətirilən iqtibasdır.**



Azərbaycanın strateji tərəfdaşı olan Rusiya ilə ikitərəfli münasibətlər daim qarşılıqlı səmimi yanaşma ilə müşayiət olunsa da, hərdən şimal qonşumuzun qanunverici orqanının üzvlərinin, ayrı-ayrı siyasilərin dilindən bu münasibətlərə kölgə salmağa yönəlik çıxışlar, bəyanatlar səslənir. Bu ölkənin erməni lobbisinə yaxınlığı ilə tanınan yazılı və elektron media seqmentlərindən isə xalqımızın ünvanına aşağılayıcı açıqlama və hərəkətləri müşahidə etmişik. Bakı bunları heç vaxt rəsmi Kremlin ayağına yazmayıb, fərdi mülahizə, subyektiv mövqe kimi qəbul edib.

“Rusiya–Azərbaycan münasibətlərindən danışırıqsa, mənə elə gəlir ki, indi hər şey çox yaxşı inkişaf edir və inşallah, bundan sonra da belə olacaq”. Bu bəyanatın müəllifi isə ötən həftə Bakıda səfərdə olan



Moskva və Bütün Rusiyanın Patriarxı Kirildir. Gördüyünüz kimi, hər iki bəyanatın tonu səmimi və xoşagəlimlidir. Və bu yanaşma qarşıdan gələn bayram öncəsi tamamilə başadüşüləndir. Fəqət, son günlər Rusiya tərəfdən atılan diplomatik addımlara praktiki yöndən yanaşsaq, ortaya deyilənlərdən bir qədər fərqli mənzərə çıxır. Aydın məsələdir ki, Rusiyanın media cameəsində və ictimai-siyasi düşərgəsində münasibətlərdə gərginlik yaratmağa çalışan, bu münasibətlərin pozulmasını özlərinə fürsət bilən qüvvələr də var.

*

İndi gələk mətləb üstünə. Azərbaycan nümayəndə heyəti Heydər Əliyevin doğum günü ilə bağlı tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasının dəvəti ilə Həştərxana göndərilib. Tədbirin adı və özü, ev sahibinin də yaxşı bildiyi kimi, Azərbaycan üçün çox vacibdir. Amma nə baş verib? Milli Məclisin deputatı Azər Badamov Moskva Hava Limanında saxlanılıb və ona Rusiya Federasiyasına girişin hansı səbəbdən qadağan edilməsi barədə heç bir izahat verilmədən geriyə – Azərbaycana yola salınıb. Təəccüb doğuran odur ki, belə səfərlər, xüsusən də, parlament nümayəndə heyətlərinin iştirak etdiyi rəsmi tədbirlər barədə tərəflər əvvəlcədən məlumatlandırılır. Yəni, səfərin müddəti, gələcək heyət, onların təhlükəsizliyinin təmini məsələləri əvvəlcədən razılaşdırılır. Bu, adi protokol qaydasıdır. Amma konkret halda biz deputatımıza qarşı nümayişkaranə hörmətsizlik forması ilə üzləşmişik. Hörmətsizlik təkcə deputatın özünə yox, həm də parlamentlərarası işçi qrupuna, ümumiyyətlə, hüquqi dialoq institutuna qarşı edilib.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin deputatımızın Rusiya Federasiyası ərazisinə buraxılmaması ilə bağlı yerli medianın sualına verdiyi cavabında, ilk növbədə, insidentin hüquqi tərəfinə diqqət çəkilir. XİN rəsmisi şərhində qeyd edir ki, Milli Məclisin deputatı Azər Badamovun daxil olduğu nümayəndə heyətinin Həştərxan şəhərinə səfəri Rusiya Federasiyası Həştərxan vilayətinin vitse-qubernatoru – hökumət sədri Denis Afanasyevin dəvəti ilə baş tutub. Səfərdən məqsəd Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə keçiriləcək tədbirlərdə iştirak etməkdir. Açıqlamasında nümayəndə heyətinin Bakıdan Moskvaya uçmasına baxmayaraq, Rusiya tərəfinin hər hansı bir ilkin xəbərdarlıq və ya məlumat vermədən heyətin tərkibində olan millət vəkili Azər Badamovun Moskvada hava limanında saxlanılmasını, onun ölkəyə girişinə qadağa qoyulduğunun bildirilməsini qeyri-dost addım hesab etdiyini vurğulayan A.Hacızadə məsələ ilə əlaqədar dərhal Rusiyadakı səfirliyimiz vasitəsilə Rusiya XİN ilə əlaqə saxlanıldığını nəzərə çatdırıb. Rusiya XİN rəsmisi məsələnin araşdırılacağını bildirib, amma məlum qərarın səbəbləri barədə izahat verməyib. Hazırda Bakı insidentlə əlaqədar Rusiya tərəfindən izahat veriləcəyini gözləyir.

*

Səbəbsiz heç nə baş vermir. Moskva hava limanında Milli Məclisin deputatı Azər Badamovun ölkəyə girişinə qadağa qoyulması müəyyən ehtimal və fərziyələrə yol açır. Məsələn, güman edilir ki, Rusiya tərəfinin bu addımı deputatımızın Azərbaycan xalqı haqqında təhqiramiz bəyanatlar verən Dövlət Dumasının deputatı Nikolay Valuyevi tənqid etməsinə reaksiyası ola bilər. Bu insidenti “Rossotrudniçestvo”nun Bakıdakı nümayəndəliyinin “Rus evi” adlanan ofisinin bağlanması ilə əlaqələndirənlər də var. Məhz ondan sonra Dumanın deputatı Nikolay Valuyev Rusiyadakı Azərbaycan diasporunu açıq şəkildə “bir dəstə hamamböcəyi” adlandırdı və “onları qanunun ələyindən keçirməyə” çağırdı. Əlbəttə ki, N.Valuyevin bəyanatı nə iki ölkə və iki xalq arasındakı münasibətlərin ruhuna uyğun gəlirdi, nə də forma və məzmun baxımından qəbuledilən idi.

Öz növbəsində Azər Badamovun Valuyev ritorikasına münasibəti prinsipial, aydın və deputat statusuna tam uyğun olub. A.Hacızadə şərhində haqlı olaraq bildirir ki, Rusiya tərəfinin Azərbaycan parlamentinin nümayəndəsinə qarşı hərəkətləri əsassız olmaqla yanaşı, həm də təxribat xarakterli görünür: “Bu hərəkət Rusiya tərəfinin ikitərəfli münasibətlərin mahiyyəti ilə bağlı rəsmi bəyanatlarına ziddir və iki ölkə arasında müttəfiqlik qarşılıqlı fəaliyyətinin məntiqini pozur”. Təbii ki, Azərbaycanın qarşı tərəfdən aydın izahat gözləməyə haqqı var. Özü də bu izahat təkcə Azər Badamov ətrafında baş verən insidentlə bağlı deyil. Buraya digər fundamental məsələlər – onlarca insanın həyatına son qoyan təyyarə qəzasından tutmuş, Azərbaycanın aparıcı media resurslarına kiberhücumlara qədər daxildir. Təəssüf ki, Rusiya tərəfinin baş verən faciəvi və xoşagəlməz insidentlər fonunda susması Azərbaycanla strateji tərəfdaşlıq ruhuna sədaqətlə bağlı Kremldən səslənən bəyanatların səmimiliyini şübhə altına alır.

Azərbaycan Prezidenti İlham Əliyevin Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilllə görüşündə haqlı olaraq vurğuladığı kimi, “Rus icmasının, pravoslav icmasının nümayəndələri ölkəmizin inkişafında, onun suverenliyinin, ərazi bütövlüyünün qorunmasında fəal iştirak edirlər, ümumilikdə, böyük töhfələr verirlər. Onlar Azərbaycanda yaşayan çoxsaylı xalqların bütün digər nümayəndələri kimi ölkəmizin hərtərəfli inkişafı naminə çalışırlar”.

İnanırıq ki, rəsmi Moskva son insidentlə bağlı tezliklə müvafiq açıqlama yayacaq və bunun Qələbənin 80 illiyi ilə bağlı bayram şənliklərinə kölgə salmasına imkan verməyəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



– Deputat Azər Badamovun Moskvadan təyyarə ilə geri qaytarılması qəbulolunmaz bir hadisədir. Əgər Rusiya tərəfinin Azər Badamovla bağlı hansısa iradları var idisə, bunu elan etməli idi. Həmin iradları Bakının qəbul edib-etməməsi artıq ikinci məsələdir. Bütün hallarda onun bu şəkildə geri qaytarlması düzgün hərəkət deyil.

Azərbaycan da Rusiya Dövlət Dumasının bəzi üzvlərinə, konkret şəxslərə qarşı qadağalar tətbiq edib. Amma nəyə görə? Misal üçün, Rusiya Dumasının deputatı, iqtisadi siyasət üzrə komitənin sədr müavini Mixail Delyagin. Bu adam canlı efirdə bəyan edir ki, Azərbaycanı cəzalandırmaq üçün bu ölkənin neft infrastrukturunu bombalamaq lazımdır. Hətta Azərbaycana qarşı nüvə silahından istifadənin dəstəklənməsi barədə “Telegram” kanalında sorğu keçirir. Əslində, bu cür əməllərinə görə, ona qarşı Rusiya Cinayət Məcəlləsinin konkret maddəsi üzrə cinayət işi qaldırılmalı idi. Bəli, bu şəxsin Azərbaycana gəlişinə qadağa qoyulub. Yaxud Konstantin Zatulini götürək. O, dəfələrlə sərhədimizi pozaraq, qeyri-qanuni şəkildə Qarabağa keçib, orada Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxışlar edirdi. Sergey Mironovun da adını çəkə bilərik. O da Xankəndiyə gələrək, separatçılara dəstək verirdi. Bu adamların hərəkətləri Azərbaycan dövlətinə qarşı yönəlmişdi. Eləcə də Dumanın deputatı Nikolay Valuyevin yaramaz çıxışına müvafiq reaksiya verilmişdi. Xalqımızı, Rusiyada yaşayan soydaşlarımızı təhqir edən birisinin cavabı verilməli idi. Azər Badamov onu yerində tənqid etmişdi. İndi deputatımızı ölkəsindən çıxardığına görə Azərbaycan tərəfinin Moskvadan izahat tələb etməyə haqqı var. Düşünürəm ki, bunu edəcəklər. Bu hadisə ikitərəfli münasibətlərə öz mənfi təsirini göstərəcək. Milli Məclisin heç bir deputatı rus millətinə, yaxud dövlətinə qarşı mənfi, təhqiramiz fikirlər səsləndirməyib.

# Koçaryandan sonra Sarkisyan...

## “Eks”lərin “xortlamaq” əkizliyi və ya siyasi rəzillik elegiyası

**Ermənistanda “eks”lər aktivləşiblər. Ölkənin ikinci prezidenti Robert Koçaryandan sonra, üçüncü prezident Serj Sarkisyan da dilə gəlib. O da Robert kimi, tələbə və müəllim kollektivi ilə görüş keçirib. Görüşün mövzusuna diqqət yetirək: Birinci Qarabağ müharibəsində qalib gəlmiş qüvvələrin nümayəndəsi ilə təmas.**

Göründüyü kimi, S.Sarkisyanın təqdimat formasından, belə demək mümkünsə, naftalin qoxusu gəlib. Yəni, Serjik təkcə Ermənistanın üçüncü prezidenti kimi deyil, ən başlıcası “Dağlıq Qarabağın özünümüdafiə qüvvələri komitəsinin”, sonra “Dağlıq Qarabağ Respublikası Müdafiə Qüvvələri Komitəsinin (1989–1993-cü illər) sədri” və “Artsax qəhrəmanı” olaraq göstərilib. Yeri gəlmişkən, ötən həftə arabanın kölgəsini öz kölgəsi hesab edən belə “qəhrəmanlardan” biri Vitali Balasanyanın aktivləşdiyini gördük. O, Rusiya Prezidenti Vladimir Putinə məktub yazaraq yalvardı ki, Qarabağ ermənilərinin bölgəyə qayıdışına, əslində, Qarabağ avantürasının davamına kömək göstərsin...

Ümumən, Koçaryanın və Sarkisyanın “aktivləşməsi” fonunda dörd məqamı vurğulamaq mümkündür. Birincisi, Ermənistanda 2026-cı ildə keçiriləcək seçkilərə indidən hazırlıq başlayıb. İkincisi, ölkədə hakimiyyət dəyişikliyi və yeni siyasi qüvvə baxımından ağla gələn yenə “eks”lərdir. Onlar Qarabağ avantürasına köklənmişdilər. Nəzərə alsaq ki, seçki həm də dövlətin və xalqın gələcəyidir, onda, Ermənistanda gələcəyin təsəvvürü keçmişə, daha doğrusu, keçmişin sərsəmləmələrinə əsaslanır. Bunun nə qədər təhlükəli tendensiya olduğunun isə sübuta ehtiyacı yoxdur. Üçüncüsü, Koçaryandan sonra Sarkisyanın da dilə gəlməsi onu göstərir ki, bu iki məxluq həm də bir-biri ilə rəqabətdədirlər. Hesab edirik ki, mövcud amil baş nazir Nikol Paşinyanı güclü tərəfə çevirəcək dividenddir. Ekslərdə birlik yoxdur. Dördüncü məqam isə ondadır ki, erməni siyasi industriyası ölkənin hazırkı iqtidarının qarşısına başqa platforma ilə çıxacaq qüvvə ortaya qoya bilmir, nəticə etibarilə dərin qısırlıq dövrünü yaşayır.

Əlqərəz, Sarkisyanın tələbələrlə görüşü hayların Birinci Qarabağ müharibəsindəki uğurunun populist təqdimatı ilə yadda qaldı. Belə bir təqdimatın özü də rellıqları



görməyə imkan vermir. Üstəlik, qeyri-real, ambisioz məsələlər tələbələrin beyninə yeridilir ki, bunun da ziyanlı tərəflərinin olduğu şübhəsizdir. Onu da nəzərə alaq ki, İkinci Qarabağ müharibəsində özgə torpağında canını tapşırmış ermənilərin çoxu məhz gənc idi.

Ancaq Serjikin tələbələrlə görüşündə digər məsələlərdən də söz açılıb. Məsələn, Sarkisyandan nə üçün Paşinyana güzəştə getdiyi soruşulub. Bu sual heç də təsadüfi deyil. Məsələ ondadır ki, erməni konsprioloji fikrinə görə, Sarkisyan Qarabağ məsələsində bıçağın sümüyə dirəndiyini görüb və buna görə Paşinyanın hakimiyyətə gəlməsinə şərait yaradıb ki, özü avantürizmin “ölümündə” müqəssir sayılmasın. “Günah keçisi” Nikol olsun.

Serjik bu iddianı absurd adlandırıb. Həqiqətən, belə bir şey mümkünsüz görünür. 2016-cı ilin Aprel müharibəsi Ermənistanın Azərbaycan qarşısındakı acizliyini göstərsə də, Sarkisyan kimi kreslo xəstəsi olan məxluqun rahatlıqla hakimiyyət kürsüsünü təhvil verməsi ağlabatan sayıla bilməz. O, sadəcə, Paşinyanın populizmi qarşısında məğlubiyyətə uğradı.

Digər tərəfdən, Serjikin rəhbərlik etdiyi iqtidar, eləcə də, ondan əvvəlki Koçaryan və onun komandası sadə ermənilərə o qədər ağrılar yaşatmışdı ki, sıravi haylarda Qarabağ klanına münasibətdə nifrət formalaşmışdı. Elə bir nifrət ki, Nikolun ucuz populuzmini və mənasız pafosunu özünə dərman kimi qarşıladı.

Əlbəttə, Sarkisyan xalqın öz rəhbərlik etdiyi iqtidara qarşı qəzəbini bilirdi və buna görə vəziyyətə təsir göstərmək üçün müəyyən tədbirlər gördü. Məsələn, başqaları ilə yanaşı, həbsdə olan Paşinyan amnistiyaya düşdü. Əfv olunmuş Nikol isə 2018-ci ildə Ermənistanın İctimai radiosunun binasına soxularaq Sarkisyanı, sözün əsl mənasında, təhdid etdi, ona meydan oxudu. İndi tələbələr üçüncü prezidentdən nə üçün bunun qarşısını almadığını soruşublar. Sarkisyanın cavabı belə olub ki, guya, güc tətbiqi ilə insan tələfatından uzaq durub. Halbuki, hakimiyyət illərində dəfələrlə dinc aksiyaların zorakılıqla dağıdılması əmrini verən məhz Sarkisyan olmuşdu. Yəni, belə bir zat birdən-birə humanist davranmağı düşünməzdi. Nə də bu məxluqun Paşinyanın iqtidara yiyələnməsi üçün sakit qaldığını demək mümkünsüzdü. Sadəcə, Nikolun “Soros dayısı” daha mütəşəkkil işləmiş və faktiki olaraq dövlət çevrilişi reallaşdırmağı bacarmışdı.

Bəli, erməni xalqının Qarabağ klanına duyduğu dərin nifrət və qəzəb hissi Paşinyanın iqtidar kürsüsünə yiyələnməsində başlıca amil olmuşdu. Bu nifrət və qəzəb o qədər güclü idi ki, hətta 44 günlük müharibədəki acınacaqlı məğlubiyyətin birbaşa baiskarına çevrilməsinə baxmayaraq, Paşinyan 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkilərində uğur qazanmışdı. Hər halda, müharibə məğlubu birinin iqtidarda qalması adi məsələ sayıla bilməz. Bu o deməkdir ki, hətta rüsvayçılıq belə erməni siyasi düşüncə sistemi üçün bir o qədər ciddi durum sayılmır. Əslində, ortada son dərəcə böyük rəzillik var.

Ən pisi isə odur ki, Ermənistandakı rəzil durum sona çatmaq bilmir. Əksinə, daim yeni “keyfiyyət göstəriciləri” əldə edir. Bu gün Sarkisyan kimi məxluq tələbələr qarşısına çıxıb “mənim mübarizəm Ermənistanda nüfuz sahibi olmaq uğrunda deyil, hakimiyyət dəyişikliyi uğrundadır” deyə bilirsə, deməli, rəzillikdə həm də böyük miskinlik payı var.

Qeyd edək ki, hazırda istər Koçaryan olsun, istərsə də Sarkisyan, heç fərqi yoxdur, Ermənistanı bir dövlət kimi vassala çevirənləri tələbələr, yaxud digər kateqoriyaya məxsus şəxslər dinləyirlərsə, onların cəfəngiyyatlarına qulaq asırlarsa, ölkədə düşüncə deqredasiyası, mütərəqqi fikir iflası yaşanır. Bu hal da son dərəcə eybəcər mənzərə deməkdir.

Heç şübhəsiz, Koçaryan və Sarkisyanın “hərəkətə keçməsinin” səbəbi bəllidir. Onların hər ikisi xaricdən, konkret olaraq, Rusiyadan gələn direktivlər üzrə davranırlar. Əlbəttə, birinci ikincidən daha şanslıdır. Ən azından ona görə ki, Koçaryan Sarkisyandan fərqli olaraq, məğlubiyyətlə üzləşməyib. Eyni zamanda, Robertin ilk prezidentliyi müddəti daha əvvəldir. Yəni, bu amili sıravi ermənilərə “yedizdirmək” nəzəri baxımdan mümkün görünə bilər. Amma nəzəriyyə ayrı, reallıq tamam ayrı.

Sonda qeyd edək ki, Ermənistandakı hazırkı real durum Paşinyana qarşı çıxacaq bütün qüvvələrin zəif olduğunu göstərir. Amma, bu, heç də o demək deyil ki, Nikol hakimiyyətdən uzaqlaşdırıla bilməz. Axı erməni düşüncə sisteminin terror adlı “B” planı hər zaman var. Yeri gəlmişkən, Koçaryan – Sarkisyan cütlüyünün timsalında bütövlükdə Qarabağ klanının mövqelərini möhkəmləndirən məhz terror olmuşdu. Söhbət 1999-cu ilin parlament qətliamından gedir. O qətli ki, 1998-ci ildə prezident seçilmiş Koçaryanın, necə deyərlər, əlini-qolunu bağlayan durumu aradan qaldırmışdı. Çünki həmin terror zamanı, böyük ölçüdə, Robertin əleyhidarları, daha doğrusu, Azərbaycana güzəştin tərəfdarları olan şəxslərin hamısı erməni Milli Assambleyasının binasında qətlə yetirilmişdilər. Sözümüz ondadır ki, hazırkı durumda N. Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağın terror yolu da var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Heydər Əliyev: şəxsiyyət və lider



I MƏQALƏ

### Yaddaş və gələcək

Henri Kissincer liderliyi dünya strategiyası ilə əlaqələndirirdi. Tanınmış strateq yazırdı ki, "liderlər iki kəsişən xəttin qovuşuğunda düşünür və fəaliyyət göstərirlər". O xətlərdən birini keçmişlə gələcək arasındakı "zaman yolu" təşkil edir. Digəri isə dəyişməz dəyərlərlə onların arxasınca apardıqlarının canatmaları arasındakı "yaşam yolu"dur. Əslində, insanın "zamandakı yolu" ilə "yaşam yolu" ayrılmazdır, çünki zamanda yaşantı şəxsiyyəti və onun fəaliyyətini "ömrün üfüqündə" birləşdirir. Dahilər üçün, bu, zamanı "keçmişin əlindən alıb" ömür ritmində "gələcəyə aparmaq"dır. Böyük şəxsiyyətlər bununla həm zamanın ritmində yaşaya bilir, həm də milyonları arxalarınca "dəyişməz dəyərlər qanadında" gələcəyə apara bilirlər.

H.Kissincer, təbii ki, bu cür fəlsəfi məcazlardan istifadə etmir. Lakin onun məharətlə böyük liderliyi dünya strategiyası ilə sıx bağlaya bilməsi heyrətamiz olduğu qədər də ibrətamizdir. Çünki hər bir xalqın böyük dahi lideri varsa, onu bu məntiqin işığında daha aydın görmək imkanı meydana gəlir. Konrad Adenaueri almanlar, Şarl de Qollu fransızlar, Li Kuan Yunu sinqapurlular bu işığda görə bilirlər. Azərbaycanlılar isə ulu öndər Heydər Əliyevi dünya strategiyalarını müəyyənləşdirən dahi liderlər sırasının önündə görməyə haqları vardır.

Heydər Əliyev səviyyəsində ən çətin geosiyasi, siyasi, hərbi, iqtisadi və psixoloji situasiyada ölkəsini XX əsrin son onilliyində məharətlə böhrandan qurtarıb, yeni inkişaf xəttinə çıxaran ikinci siyasi lider yoxdur. Dünya strategiyasını müəyyən etdiklərini yazan H.Kisincerin "6 qəhrəman lideri"nin heç birinin ölkəsi Azərbaycan kimi daxili və xarici risklərin caynağında dağılma təhlükəsi ilə üz-üzə qalmamışdı. Demək olar ki, dünyanın bütün böyük gücləri müstəqil olmağa çalışan Azərbaycana qarşı açıq və ya gizli cəbhə açmışdılar. Hər tərəfdən güclü təzyiqlər, hədələr və konkret təcavüzkar hərəkətlər olurdu.

Daxildə isə müxtəlif qruplar hakimiyyət uğrunda qaydasız mübarizə aparır və cəmiyyətin dağılmasının qarşısını ala bilmirdilər. Bu nöqtədə yaddaşla gələcək arasında amansız bir savaşın getdiyini duymaq lazımdır! Heydər Əliyev həmin müqəddəs savaşın bənzərsiz qəhrəmanı və qalibidir! Gələcəyi həmin dönəmə nisbətən bu günü hesab etsək və onun işığında indidən keçən əsrin 90-cı illərinə baxsaq, Ulu öndərin siyasi dahiliyi və liderliyinin vəhdətini aydın görə bilərik! Ümummilli lider yaddaşla gələcəyi millət və dövlət üçün ən böhranlı zamanda birləşdirə bildi. Burada Uinston Çörçillin bir fikrini xatırlamaq yerinə düşərdi.

### "Balanslar titrəyəndə"

Uinston Çörçill 1948-ci ildə yazırdı ki, balanslar "titrəyəndə" dövlət xadimləri dünyanı xilas etmək üçün qərarlar qəbul etməli olurlar. Lakin vəziyyəti "titrəyən" balanslarda qüvvələr nisbətinin "dumanlara bürünməsi" daha da qəlizləşdirir. Və bu zaman liderin dahiliyi özünü göstərməlidir!

Heç kəs keçən əsrin 90-cı illərində Azərbaycanda "balansların silkələndiyi"ni və qüvvələr nisbətinin "dumanlara büründüyü"nü inkar edə bilməz. Məhz həmin məqamda Heydər Əliyev dühası özünün xilaskarlıq rolunu yerinə yetirdi! Və burada yenə də U.Çörçillin bir gənc insanın məsələləri həll etməyə necə hazırlaşmaqla bağlı verdiyi suala cavabı yada düşür. U.Çörçill demişdi: "tarixi öyrənin"! Buna görədir ki, Osvald Şpenqler insanları, situasiyaları və prosesləri "qiymətləndirə bilmək qabiliyyətinə malik" olan şəxsiyyətləri "fitri lider" adlandırmışdır.

### Tarix yaradan və yazan lider

Ulu öndər həmişə "tarixi olduğu kimi öyrənin" tövsiyəsini edərdi. Özü isə Azərbaycan tarixini, dünyanın siyasi tarixini dərindən bilirdi. Heydər Əliyev bu mənada şəxsiyyət kimi mükəmməl idi – biliklərini böyük məharətlə praktiki fəaliyyətə tətbiq edə bilirdi. Heydər Əliyev Azərbaycan tarixini dərindən mənimsəməklə müasir mərhələdə onu necə yaratmağın düzgün yolunu müəyyən edə bilmişdi. Bu anlamda Ulu öndər tariximizi sadəcə bilmirdi, onu mənəviyyatında, zəkasında və fəaliyyətində yaşadırdı. Tarixi "özündə daşıyaraq" onu həm yaddaşa çevirirdi, həm də müasir dövrün tələblərinə uyğun uğurlu dövlətçilik tarixini yaradırdı. "Ulu öndər cəmiyyətə üz tutaraq "tarix çətin imtahançıdır" deyir və bununla milyonları tarix yaratmağa, yazmağa səsləyirdi. Hansı tarixi? Əbədi müstəqillik tarixini, əbədi müstəqil dövlət ola bilmək tarixini!

### "Kükrəyən qasırğa"

Müasir tarixi mərhələdə müstəqillik tarixini yaratmaq və həm də yazmaq olduqca çətin bir vəzifədir. Keçən əsrin 90-cı illərinin geosiyasətində "kükrəyən qasırğalar" qarşısına çıxanları məhv edə bilərdi. Təcrübə göstərdi ki, postsovet məkanında bu sürətlə dəyişən geosiyasi ritmin təzyiqlərinə tab gətirə bilməyən liderlər az olmamışdır. Heydər Əliyev isə səbr və ardıcıllıqla müasir Azərbaycanın müstəqil dövlətçilik tarixini yaradır və eyni zamanda, onu yazırdı. Burada liderin şəxsiyyəti ilə fəaliyyətinin vəhdəti ön sıraya çıxır. Yəni həmin dönəmdə uğurlu olmaq üçün mütləq surətdə şəxsi keyfiyyətlərlə liderlik məharətinin praktiki aspektini uyğunlaşdırmaq zəruri idi!

Zəmanə elə gətirmişdi ki, lider bu iki ağır siyasi-psixoloji yükü paralel daşımalı idi. Şəxsi keyfiyyətlərlə uğurlu siyasi fəaliyyəti sintez etmək mürəkkəb bir iş olmuşdu. Və burada şəxsiyyətin miqyası ilə liderliyin miqyası arasında nisbət məsələsinin aydınlaşdırılması aktuallaşır.

### Şəxsiyyətin miqyası

Şübhəsiz, bu bir məcazdır. Özlüyündə "şəxsiyyətin miqyası" ifadəsi çətin dərk ediləndir. Bu, hər şeydən öncə, insanın psixoloji və rasional imkanlarının sərhədlərini ifadə edir. Yəni söhbət siyasi liderin şəxsiyyətindən gedirsə, onun hansı səviyyədə və dərinlikdə şəxsi keyfiyyətlərinin özünü təsdiq etmək "üfüqləri"ni müəyyən edə bildiyindən bəhs olunmalıdır. Liderin daxili şəxsi keyfiyyətləri mənəvi, əxlaqi, mədəni, psixoloji, iradi, intellektual və zəkavi qabiliyyətlərinin vəhdəti işığında özünü təsdiq edə bilir. Onun şəxsiyyət kimi miqyası da bu kriteriya ilə ölçülə bilər.

Deməli, liderin şəxsiyyət kimi miqyası keyfiyyətləri mənəvi, əxlaqi, mədəni, psixoloji, iradi, intellektual və zəkavi qabiliyyətlərinin vəhdətdə təsir gücü və əhatəsi ilə müəyyən olunur. Onun real təzahürü isə liderin şəxsiyyət kimi ən kritik dönəmlərdə atdığı addımlarda və qəbul etdiyi qərarlarda ifadəsini tapır. Lakin burada məsələnin başqa bir vacib tərəfini nəzərə almaq gərəkdir. Reallıq elədir ki, liderin şəxsi keyfiyyətləri liderliyin praktiki fəaliyyəti ilə ayrılıqda özünü təsdiq etmir – onlar həmişə vəhdətdə əyaniləşirlər. Bu da özlüyündə şəxsiyyətin miqyası ilə yanaşı, liderliyin miqyası anlayışını da ön sıraya çıxarır.

### Liderliyin miqyası

Akademik İsa Həbibbəyli yazır ki, Heydər Əliyev Azərbaycan liderlik ənənəsində Ümummilli liderlik nümunəsi yaratmış yeganə şəxsiyyətdir. Doğrudan da, müasir mərhələdə liderliyin ümummilli səviyyəsinə yüksəlmək geniş fəaliyyət miqyası tələb edir. XX əsrin 70-80-ci illərində Qərb politoloqları (məsələn, J.Blondel) ümummilli liderliyin miqyası və missiyası məsələsinin politoloji tədqiqinə maraq göstərmişlər. Onun tam siyasi-nəzəri obrazı isə yaradılmamışdır. Ancaq J.Blondel bu məsələyə çox sayda siyasi, psixoloji, sosial, mədəni və mənəvi faktorların qarşılıqlı münasibətlərində baxmağın zəruriliyini anlamışdır. Yəni müasir fəlsəfə və politologiya üçün ümummilli liderliyin dərk edilməsi olduqca aktual qalır. Bu baxımdan ümummilli liderliyin miqyası anlayışı da kifayət qədər aktualdır.

Burada təhlili davam etdirmək üçün yenidən Henri Kissincerin böyük liderlərin fəaliyyətinin bir vacib nəzəri cəhəti ilə bağlı ifadə etdiyi fikirlərə qayıtmalı oluruq.

### Liderin situasiya təhlili

H.Kissincer yazır ki, siyasi liderin ilk vəzifəsi yaşadığı cəmiyyətin realist qiymətləndirilməsinə nail olmaqdan ibarətdir. Bunu o, tarix, mənəviyyat, əxlaq və imkanların təhlil edilməsi əsasında edə bilər. Onun üçün isə əlbəttə, lider ilk növbədə millətinin tarixini, onun adət-ənənələrini, mədəniyyətini və mənəvi-psixoloji imkanlarını dərindən bilməlidir.

Heydər Əliyev vurğulanan bütün bu keyfiyyətlərə yüksək səviyyədə malik olan lider idi. Ulu öndər azərbaycançılıq məfkurəsini məhz həmin dəyərlərin sintezində yaratmış, ona ciddi siyasi-ideoloji məzmun vermişdir. Heydər Əliyev dəfələrlə azərbaycançılığı Vətənçiliyə, adət-ənənələrə, dilə və dinə sadiqlik kontekstində izah etmişdir. Ümummilli liderin "fəxr edirəm ki, mən azərbaycanlıyam" məşhur deyimi də məhz həmin baza ideya mövqeyinə əsaslanırdı.

Ulu öndərin verdiyi hər bir qərarda Azərbaycan tarixinin, adət-ənənəsinin, mədəniyyətinin və mənəvi-psixoloji imkanlarının əlamətləri yer tuturdu. Lider kimi Heydər Əliyev daim milli maraqlara əsaslanaraq siyasi qərarlar qəbul edirdi. Ulu öndər vurğulayırdı ki, "Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm". Bu fikri Heydər Əliyev daim praktiki fəaliyyətində təsdiq edirdi. Ümummilli lider bu bağlılıqda deyirdi: "Bütün həyatımla, gördüyüm işlərlə, respublikanın, dövlətin başçısı kimi atdığım bütün addımlarla, tədbirlərimlə ölkəmizdə mənəviyyatın daha da möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizin yaşaması, milli adət-ənənələrimizə sadiq olmağımızı təmin etməyə çalışmışam".

Buradan aydın olur ki, Ulu öndərin yüksək mənəviyyat uğrunda həmişə mübarizə aparması, həyatını və bütün əməllərini saf mənəviyyat əsasında qurması yüksək liderlik mədəniyyəti və incəliyi ilə əlaqəli imiş. Həmin keyfiyyət H.Kissincerin ifadə etdiyi mənada Heydər Əliyevin yaşadığı cəmiyyəti onun tarixini, mənəviyyatını, mədəniyyətini, əxlaqını və imkanlarını dəqiq və dərindən bildiyinə görə realist qiymətləndirməsinin göstəricisi idi. Bu məqamda Heydər Əliyev şəxsiyyəti ilə liderlik qüdrətinin vəhdəti özünü aydın göstərir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət"



**Azərbaycanın Xalq yazıçısı Elmira Axundovanın özbək dilində nəfis şəkildə çap olunan "Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət" kitabının Özbəkistan Yazıçılar İttifaqında təqdimat mərasimi keçirilib.**

Azərbaycanın Özbəkistandakı səfirliyinin və səfirlik nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) birgə layihəsi olan bu nəşr ümummilli lider Heydər Əliyevin və görkəmli alim, akademik Zərifə Əliyevanın anadan olmasının 102 illiyinə həsr olunub.

Mərasimdə səfirliyin və AMM-in əməkdaşları, elm və mədəniyyət xadimləri, tanınmış ziyalılar, şair və yazıçılar, icti maiyyət nümayəndələri, soydaşlarımız və jurnalistlər iştirak ediblər.

Kitabı özbək dilinə tanınmış alim və tərcüməçi Babaxan Məhəmməd Şərif tərcümə edib. Təqdimat mərasimini məhz o açaraq, bu kitabın Heydər Əliyevin şəxsiyyəti, ailə həyatı və siyasi fəaliyyəti haqqında qiymətli mənbə olduğunu vurğulayıb, tərcümə prosesi ilə bağlı təəssüratlarını bölüşüb.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Elmira Axundovanın yaradıcılığı haqqında danışaraq qeyd edib ki, yazıçı postsovet məkanının ən nüfuzlu siyasi xadimlərindən biri olan İlham Əliyev və ümummilli lider Heydər Əliyev haqqında dolğun faktlara əsaslanan fundamental əsərlərin müəllifi kimi tanınır.

Özbəkistan Yazıçılar İttifaqının "Cahan ədəbiyyatı" jurnalının baş redaktoru Əhmədcan Melibayev bildirib ki, dünya şöhrətli lider Heydər Əliyevin ideyaları türkdilli dövlətlər arasında, xüsusilə də bu ölkələrin mədəni əməkdaşlığında hər zaman mühüm rol oynayıb. O əlavə edib ki, Yazıçılar İttifaqının təşəbbüsü ilə nəşr olunan "Türk dövlətlərinin ədəbiyyat inciləri" seriyası çərçivəsində hazırlanmış 100 cildlik külliyyatın 16 cildi Azərbaycan ədəbiyyatına həsr edilib.

Əhmədcan Melibayev çıxışının sonunda Elmira Axundovanın Özbəkistan Yazıçılar İttifaqının fəxri üzvü seçildiyini elan edib və ona vəsiqə təqdim edib.




Təqdimatda filologiya elmləri doktoru, professor Nurbay Cabbarov, yazıçı İsmat Kuçiyev, professor Cəmilə Şermuxammedova və digər ziyalılar çıxış edərək kitabın elmi və mənəvi dəyərindən söz açıblar.

Sonda Elmira Axundova bildirib ki, altıcildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitabını yazarkən Zərifə xanım və Heydər Əliyev haqqında topladığı məlumatlar əsasında bu əsəri ayrıca yazmaq qərarına gəlib.

Elmira Axundova təqdimata görə Özbəkistan Yazıçılar İttifaqına, səfir Hüseyn Quliyevə, tərcüməçi Babaxan Məhəmməd Şərifə və bütün iştirakçılara təşəkkürünü bildirib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Ümummilli liderin dil siyasəti




**İqtisad Universitetində Azərbaycan dili kafedrası və Ümumi fənlərin tədrisi departamenti "Heydər Əliyevin dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi kimi" mövzusunda elmi seminar keçirib.**

Seminarı giriş sözü ilə kafedranın müdiri, professor Tofiq Əbdülhəsənov açaraq qeyd edib ki, dünya siyasətində nadir şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyev Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti və tarixinə dərin bağlılıq göstərən böyük dövlət xadimi idi. Onun dil siyasəti milli kimliyin qorunması və inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır.

Daha sonra kafedranın dosentləri Çinarə Qəhrəmanova və Mətanət Əmrahova çıxış edərək vurğulayıblar ki, Ulu öndər dilimizi, klassik ədəbi irsimizi və milli mədəniyyətimizi xalqımızın mənəvi sərvəti kimi dəyərləndirib. Onun rəhbərliyi dövründə milli-mənəvi dəyərlərin qorunması na və təbliğinə xüsusi önəm verilib.

Məclisdə Heydər Əliyev irsinin bu gün də dövlət siyasətində mühüm yer tutduğu, mədəniyyətə və gənc istedadlara göstərilən diqqətin bu strateginin davamı olduğu qeyd edilib.

**XQ**

# Mərakeş Krallığının xanım Şahzadəsi Fəxri və Şəhidlər xiyabanlarını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa mayın 5-də Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib.**

Xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub.

**Həmin gün Lalla Hasnaa Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həyatlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.**

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# BDU və YAP "Ulu öndər Heydər Əliyevin siyasi irsi: qüdrətli dövlətin əsasları" mövzusunda konfrans keçirdi



**Bakı Dövlət Universiteti və Yeni Azərbaycan Partiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konfrans keçirilib.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin büstü ziyarət olunub, xatirəsi ehtiramla yad edilib. Konfrans iştirakçıları BDU-nun Heydər Əliyev muzeyini ziyarət edib, tədbir Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarxla açılıb.

BDU-nun rektoru Elçin Babayev çıxışında tədbirin ümummilli lider Heydər Əliyevin müəllifi olduğu ilk Konstitusiyanın qəbulunun 30, Zəfərimizin 5 illiyi ərəfəsində keçirilməsinin rəmzi məna daşıdığını bildirib. Qeyd edib ki, Heydər Əliyev SSRİ dönəmində Azərbaycanı sənaye respublikasına çevirib, Naxçıvanda fəaliyyəti dövründə torpaqların işğalının qarşısının alınmasında mühüm rol oynayıb. 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu öndər Azərbaycanın parçalanma təhlükəsinin qarşısını alıb, dövlətçiliyin əsaslarını möhkəmləndirib. Rektor ulu öndərin ən böyük töhfələrindən birinin Prezident İlham Əliyev kimi siyasi varis yetişdirməsi olduğunu qeyd edib.

Babayevin sözlərinə görə, Heydər Əliyev BDU-nu "milli sərvət" adlandırıb və bu ali təhsil ocağı onun siyasi irsinin yaşadılmasında aktiv rol oynayır. Bu il BDU-dan 100-dən çox əməkdaş və tələbə YAP sıralarına qəbul edilib.

YAP sədrinin müavini, YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov çıxışında Heydər Əliyevin zəngin dövlətçilik irsindən danışaraq bildirib ki, onun sovet dövründə və müstəqillik illərindəki fəaliyyəti Azərbaycanın gələcəyinə möhkəm təməl qoyub. 1992-ci ildə yaradılmış Yeni Azərbaycan Partiyası ölkənin həyatında dönüş nöqtəsi olub. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi böhrandan çıxaraq sabit və inkişaf edən bir dövlətə çevrilib.

Tahir Budaqov "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən bu konfransın dövlət quruculuğuna və gələcək hədəflərə işıq saldığını vurğulayıb. O, həmçinin BDU alimlərinin partiya və dövlətçiliyə verdiyi töhfəni yüksək qiymətləndirib.

Tədbirin sonunda YAP sıralarına qəbul olunmuş bir qrup BDU əməkdaşı və tələbəsinə üzvlük vəsiqələri təqdim olunub. "Gənc istedadlar" liseyinin müəllimi Arzu Orucova və Tarix fakültəsinin tələbəsi Ayan İsmayılova çıxışlarında Ulu öndərin ideallarına sadiq qalacaqlarını bildiriblər.

Konfrans Yeni Azərbaycan Partiyasının himni və BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə ilə yekunlaşıb.

***XQ***

# Dekotininin "azadlıq vadisi"

**(əvvəli 1-ci səhifədə)**



Əlqərəz, O.Dekotini "Sərhədsiz reportyorlar" Təşkilatının mətbuat azadlığı indeksindəki 34-cü yerə görə Ermənistanı möhkəm tərifləyib. Sən demə, ölkə proqres yolunda irəliləməyə davam edirmiş. Ən əsası isə guya, Ermənistan Cənubi Qafqazda azadlıq vadisi imiş. "Ermənistanı müdafiə etməklə biz dəyərlərimizi bölüşən demokratiyanı müdafiə etmiş oluruq", – deyən səfir, deyəsən, barıtı çox edir.

Əvvəla, onu bildirək ki, 1985-ci ildə Fransada yaradılmış və hazırda mərkəzi qərargahı Parisdə yerləşən "Sərhədsiz reportyorlar" Təşkilatının sponsorları sırasında Avropa ölkələrinin dövlət qurumları və beynəlxalq təşkilatlar yer alır. O Avropa ölkələri ki, Yelisey sarayının buyruğu ilə hərəkət edirlər. Deməli, pulun nə üçün xərcləndiyi aydındır.

"Sərhədsiz reportyorlar" "Köhnə qitə"nin Avropa Şurası, Avropa Parlamenti kimi strukturlarının "onlardan olmayanlara" qarşı təzyiq məntiqinin media tərəfini gündəmdə saxlamaq məqsədini güdür. Yəni, təşkilatın obyektivliyi yoxdur və heç vaxt olmayıb da. Azərbaycana qarşı qeyri-obyektiv münasibət isə bir növ, norma halını alıb.

Bəli, "Sərhədsiz reportyorlar" həmişə Azərbaycana yarıtmaz mövqedən yanaşıb. Bu mövqe təşkilatın illik hesabatlarından da görünür. Ölkəmiz, bir qayda olaraq, mətbuat azadlığı indeksinə görə son yerlərdə qərarlaşır. Daha doğrusu, qərarlaşdırılır. Əvəzində Ermənistanda söz, ifadə və mətbuat azadlığı, sanki, göylərdə oynayır. Dekotini mövcud "yüksək amplitudaya" "azadlıq vadisi" donunu geydiribsə, deməli, ermənipərəstlik mərəzi daha təsirli simptomlara malikdir.

Suallar yaranır: Hər şeyi bir kənara qoyaq, ölkəsinin ermənipərəst mövqe tutmasından asılı olmayaraq, bir fransız nə qədər ciddi kəllə-beyin zədəsi almalıdır ki, Ermənistana "azadlıq vadisi" desin? Görəsən, Fransa beləmi dəhşətli durumdadır ki, ölkənin diplomatı haylara qibtə ilə yanaşır, ucuz populizmə baş vurur? Əslində, bu kimi suallar yetərincə çoxdur və mövcud fonda "Sərhədsiz reportyorlar"ın Azərbaycan və Ermənistanla bağlı hesabatlarının konkret müqayisəli təhlili aparılmalı, qurumun münasibətini hansı standartlar və meyarlarla müəyyənləşdirib qərara gəldiyi öyrənilməlidir. Hərçənd, buna bir o qədər ehtiyac duyulmur. Çünki əsas niyyətdir.

Söz, mətbuat və ifadə azadlığı ilə bağlı spekulyasiya yolu tutan "Sərhədsiz reportyorlar"ın niyyəti, yumşaq desək, yanlışdır. Səfir Dekotininin bildirdikləri də yanlışlığa əlahiddə obraz qazandırmaqdır. Axı Ermənistan mətbuat azadlığı indeksinə görə, 180 ölkə arasında 34-cü yerdə "qərarlaşırsa", bu, bəşəri dəyərlərlə manipulyasiyanın necə eybəcər və iyrənc duruma gəldiyini göstərir. Tam aydındır ki, nəticə sırf siyasi məqsədlərdən qaynaqlanır.

O da tam aydındır ki, Fransanın təsiri altında olan "Sərhədsiz reportyorlar" rəsmi Parisin Cənubi Qafqazla bağlı Ermənistan üzərindən qurduğu qlobal oyunların lobbiçiliyini aparır. Digər tərəfdən, Dekotininin "azadlıq vadisi" məntiqi illüziya dəstəyindən başqa bir şey deyil və bu dəstək ölkənin "demokratiya qalası" təqdimatından qaynaqlanır. Belə sərsəm təqdimatlar isə indinin söhbəti deyil.

Yada salaq ki, baş nazir Nikol Paşinyan 2018-ci ildə hakimiyyətə gələndən sonra özünü demokratiyanın qladiatoru obrazında görmüşdü. Bu obraz ona Azərbaycanla danışıqlar prosesini pozmaq naminə dividend gətirmişdi. Nikol həvəslənib bildirmişdi ki, "avtoritar Azərbaycan" demokratik Ermənistanla bir masa ətrafına keçməyə layiq deyil.

Paşinyanın cəfəng yanaşmasının sonda ölkəsi üçün hansı acınacaqlı mənzərə formalaşdırdığını gördük. Ermənistan 44 günlük müharibədə rüsvayçılıq yaşadı, Nikol gülünc günə qaldı. Hazırda isə İrəvan sülhdən yayınır, sürətli silahlanma yolunu tutur və yenə Nikolun tərəfdarları ölkələrinin "demokratiya qalası", Dekotininin təbirincə desək, "azadlıq vadisi" təqdimatlarından həvəslənir və hesab edirlər ki, Azərbaycan qarşısında üstünlük qazanacaqlar.

Sonda iki məqamın üzərində dayanaq. Yaxın keçmişin acı təcrübəsinə əsasən Ermənistanda artıq belə rəy formalaşıb ki, Fransanın, yaxud onun ayrı-ayrı peyklərinin sözlü dəstək ritorikaları ölkəyə ancaq ziyan vurur. Paşinyan hakimiyyəti belə dəstək "nümunələrindən" həvəslənib hayların illüziya bataqlığındakı yerini dərinləşdirir. Yəni, Dekotininin Ermənistanı tərifləməsi də yalnız bu mərama xidmət edir. Üzərində ikinci dayanacağımız məqam da birincinin davamıdır.

Əvvəldə fransız səfirin Ermənistanı şar kimi doldurduğunu vurğuladıq. Onu da bildirək ki, Dekotini bu ampluada hərəkətini bilməyən uşağa bənzəyir. O uşağa ki, şarı doldurub partlamaq həddinə çatdırır və şar partladıqdan sonra oturub ağlayır. Fransa da istər 44 günlük müharibə dönəmində, istərsə də ondan sonra Ermənistan üçün ancaq ağlamaqla məşğuldur. Hesab edirik ki, bu "uşaq", indiki halda səfir Dekotini "şarı üfürməyinə" diqqət etməlidir. Çünki hazırda baş verəcək partlayışın əvvəlkilərdən daha böyük miqyaslı olması ehtimalı böyükdür. Özü də çox böyük.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**(I MƏQALƏ)**

# Qlobal güc paritetinin dəyişən koordinatları

## Posttransatlantik münasibətlər müstəvisində baxış

Siyasi həmrəylik, təhlükəsizlik əməkdaşlığı, iqtisadi inteqrasiya, mədəni yaxınlıq və institusional hüquqi mexanizmlər – Transatlantik münasibətləri sadə bir ittifaqdan daha artıq, qlobal sistemin dayaqlarından biri olan çoxşaxəli və kompleks bir tərəfdaşlıq modeli halına gətirib. Bununla belə, müasir mərhələdə qlobal güc balansında baş verən dəyişikliklər, yeni təhlükəsizlik çağırışları və regional güclərin yüksəlişi bu modelin davamlılığı və gələcək konturları üzərində suallar doğurmaqdadır. Məhz bu səbəbdən, müasir dövrdə "posttransatlantik" anlayışı tədricən akademik və siyasi diskursun mərkəzində yer almağa başlayır.

Transatlantik münasibətlər çağdaş beynəlxalq münasibətlər sisteminin formalaşmasında və strukturlaşmasında mühüm rol oynamış kompleks bir əməkdaşlıq modelidir. İkinci dünya müharibəsindən sonra yaranan bu münasibətlər sistemi əsasən ABŞ ilə Qərbi Avropa ölkələri arasında qurulmuş və liberal dünya nizamının təməl sütunu olmuşdur və münasibətlərin əsas məğzi siyasi həmrəylik, hərbi ittifaqçılıq, iqtisadi qarşılıqlı asılılıq və ortaq sivil dəyərlərə söykənmişdir.

Transatlantik əməkdaşlıq modeli soyuq müharibə dövründə ABŞ-ın hərbi və iqtisadi gücünə, Avropanın isə sabitlik və bərpa ehtiyaclarına əsaslanaraq, qarşılıqlı faydalılıq formatında inkişaf etmişdir. NATO-nun yaradılması, Marşal planı, Bretton-Vuds maliyyə sistemləri və sonrakı dövrlərdə Avropa İttifaqının tədrici möhkəmlənməsi bu münasibətlərin institusional və hüquqi çərçivəsini formalaşdırmışdır.

Lakin XXI əsrin ikinci onilliyindən başlayaraq "posttransatlantik dövrü" anlayışı aktuallaşmışdır. Bu, ABŞ və Aİ arasında münasibətlərin əvvəlki dövrdəki kimi mütləq koordinasiyaya əsaslanmaması, qarşılıqlı etimadın nisbi zəifləməsi, qlobal təhlükəsizlik və iqtisadi prioritetlərin fərqlənməsi ilə səciyyələnir. Siyasi realizm nəzəriyyəsi baxımından bu mərhələ gücün yenidən bölgüsü və aktorların müstəqil hərəkət təşəbbüslərinin artması kontekstində başa düşülə bilər.

Məsələyə hüquqi aspektdən yanaşdıqda gorürürk ki, posttransatlantik dövrü həm də beynəlxalq müqavilə və razılaşmaların təfsirində, dövlətlərarası öhdəliklərin icrasında və normativ standartların tətbiqində müxtəlifliklə müşahidə olunur. Paris İqlim Sazişindən çıxış, İran nüvə razılaşmasına yanaşmada fikir ayrılıqları və ya rəqəmsal texnologiyalar üzrə tənzimləmələrdə fərqli yanaşmalar bu tendensiyanı göstərir.

Transatlantik münasibətlər dedikdə, əsasən Şimali Atlantik hövzəsində yerləşən və demokratik siyasi sistemlərə malik olan ölkələr – başlıca olaraq ABŞ və Avropa dövlətləri, xüsusilə də Avropa İttifaqı üzvləri – arasında mövcud olan çoxşaxəli siyasi, hərbi, iqtisadi və mədəni əlaqələr sistemi nəzərdə tutulur. Transatlantik münasibətlər yalnız siyasi və strateji maraqlar üzərində qurulmamış, eyni zamanda, dərin tarixi təməllərə və ortaq normativ dəyərlər sisteminə əsaslanır. Transatlantik əməkdaşlıq modeli İkinci dünya müharibəsindən sonra formalaşmağa başlamış və soyuq müharibə dövründə ideoloji bloklaşmanın Qərb qanadını təmsil edən təhlükəsizlik və əməkdaşlıq çərçivəsinə çevrilmişdir. Mahiyyət etibarilə bu münasibətlər sistemi ortaq demokratik dəyərlərə, insan hüquqlarına, hüququn aliliyinə və beynəlxalq sabitliyin təmin edilməsinə yönəlmiş qarşılıqlı strateji həmrəyliyə söykənir.

Siyasi baxımdan Transatlantik münasibətlər ABŞ və Aİ arasında yüksək səviyyəli dialoq və qərar qəbuletmə mexanizmləri ilə xarakterizə olunur. Davamlı sammitlər, birgə bəyanatlar və G7, G20 kimi qlobal forumlardakı ortaq mövqelər əməkdaşlığın siyasi dayaqlarını möhkəmləndirir. Qərb dünyasının bu iki əsas sütunu – ABŞ və Avropa – beynəlxalq sistemdə baş verən proseslərə qarşı vahid mövqe sərgiləyərək qlobal idarəetmədə təsir güclərini qorumağa çalışırlar.

Hərbi və təhlükəsizlik sferasında isə NATO bu münasibətlərin əsas təhlükəsizlik arxitekturası kimi çıxış edir. Alyansın 1949-cu ildə yaradılması ilə Transatlantik təhlükəsizlik anlayışı institusional əsas qazanmışdır. NATO-nun məşhur 5-ci maddəsi – "Bir müttəfiqə edilən hücum hamıya edilmiş hücum sayılır" prinsipi – münasibətlərin kollektiv müdafiə fəlsəfəsinə söykəndiyini göstərir. 2001-ci il 11 sentyabr terror hücumlarından sonra bu maddənin tətbiqi NATO-nun ABŞ-la həmrəyliyinin bariz nümunəsinə çevrilmişdir. NATO həmçinin Avropa və ABŞ arasında hərbi texnologiyaların paylaşılması, birgə təlimlər və təhlükəsizlik strategiyalarının uyğunlaşdırılması sahəsində də mühüm rol oynayır.



İqtisadi sahədə isə ABŞ və Aİ arasında qurulan əlaqələr dünya üzrə ən böyük və ən dərin inteqrasiya olunmuş iqtisadi münasibətlər sistemlərindən biridir. Bu münasibətlər yalnız ticarət dövriyyəsinin həcmi ilə deyil, həm də sərmayə axınları, texnoloji əməkdaşlıq, maliyyə bazarlarının inteqrasiyası və transsərhəd iqtisadi fəaliyyətlərin hüquqi tənzimlənməsi ilə fərqlənir. Ümumdünya Ticarət Təşkilatı (ÜTT) çərçivəsində bu iki güc mərkəzi arasında qarşılıqlı öhdəliklər və razılaşmalar iqtisadi əlaqələrin daha sabit və proqnozlaşdırıla bilən xarakter almasına şərait yaradır. Tərəflər arasında baş verən istənilən ticarət gərginlikləri belə bu qurumların vasitəçiliyi ilə normativ şəkildə tənzimlənməyə çalışılır.

Transatlantik münasibətlərin rəsmi diplomatik və iqtisadi münasibətlərlə məhdudlaşmadığını qeyd etmək mühümdür. Bu sistem, eyni zamanda, geniş sivil cəmiyyət təbəqələrini əhatə edən normativ və mədəni yaxınlıq üzərində qurulmuşdur. Akademik mübadilə proqramları, qeyri-hökumət təşkilatları arasındakı əməkdaşlıq, media və informasiya sahəsindəki əlaqələr, eyni ideoloji və dəyərlər bazasına malik olmaq – bütün bunlar Transatlantik münasibətlərin yalnız dövlətlər səviyyəsində deyil, cəmiyyətlərarası inteqrasiya müstəvisində də inkişaf etdiyini göstərir. Demokratiya, azad bazar iqtisadiyyatı, vətəndaş cəmiyyətinin gücləndirilməsi və insan hüquqlarının qorunması mədəni və normativ yaxınlığın əsas sütunlarıdır.

Münasibətlər sisteminin dayanıqlığını və davamlılığını təmin edən əsas elementlərdən biri də institusional hüquqi çərçivələrin mövcudluğudur. NATO, ÜTT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) və ATƏT kimi beynəlxalq təşkilatlar transatlantik münasibətləri tənzimləyən və onların hüquqi əsasını formalaşdıran qurumlardır. NATO hərbi əməkdaşlığın və kollektiv təhlükəsizliyin əsas platforması, ÜTT isə ticarət münasibətlərinin hüquqi koordinasiyası üçün əsas mexanizmdir. İƏİT üzv ölkələr arasında iqtisadi siyasətin koordinasiyası və inkişafı istiqamətində birgə strategiyalar hazırlayır, ATƏT isə təhlükəsizlik, insan haqları və demokratik institutların möhkəmləndirilməsi sahəsində monitorinq funksiyasını yerinə yetirir.

Transatlantik münasibətləri beynəlxalq münasibətlər nəzəriyyəsi çərçivəsində təhlil edərkən ənənəvi iki əsas yanaşma – realizm və liberalizm – bu münasibətlərin mahiyyətini və dəyişkənliyini fərqli prizmalarla izah edir. Realist yanaşma beynəlxalq sistemin anarxik strukturda olduğunu və dövlətlərin əsas məqsədinin öz milli təhlükəsizliyini və gücünü maksimuma çatdırmaq olduğunu qəbul edir. Bu baxımdan da Transatlantik münasibətlərdə baş verən dəyişikliklər, ilk növbədə, güc balansındakı təkamül və dövlətlərin strateji maraqlarında baş verən prioritet dəyişikliyi ilə izah olunur. ABŞ-ın qlobal diqqət mərkəzini tədricən Atlantikdən Asiyaya yönəltməsi, xüsusilə Çinlə strateji rəqabətin intensivləşməsi fonunda Asiya-Sakit okean bölgəsinə daha çox fokuslanması, realist nəzəriyyəyə görə Transatlantik əməkdaşlığın nisbi zəifləməsinin əsas səbəblərindən biridir.

Digər tərəfdən, Avropa İttifaqının strateji muxtariyyətə yönəlməsi, yəni təhlükəsizlik və müdafiə sahəsində ABŞ-dan asılılığı azaltmağa yönəlik təşəbbüslər göstərməsi realizmin güc və maraqlar əsasında qurulan münasibətlər sisteminə uyğun şəkildə şərh olunur. Bu yanaşmaya əsasən, dövlətlərarası münasibətlərdə normativ yaxınlıqdan daha çox, milli maraqların uyğunluğu və ya ziddiyyəti həlledici əhəmiyyət daşıyır.

Əksinə, liberal nəzəriyyə Transatlantik münasibətləri əsasən əməkdaşlıq və institusional inteqrasiya prizmalarından qiymətləndirir. Liberal yanaşmaya görə, ABŞ və Avropa arasında davamlı və dərin əməkdaşlığın əsasında ortaq dəyərlər sistemi, qarşılıqlı asılılıqlar və beynəlxalq təşkilatlar vasitəsilə formalaşmış institusional çərçivələr dayanır. Liberal nəzəriyyə tərəfdarları hesab edirlər ki, Transatlantik münasibətlərin uğuru yalnız güc balansına deyil, eyni zamanda, beynəlxalq hüquqa, normativ uyğunluğa və qarşılıqlı etimada əsaslanan strukturlaşdırılmış dialoqa söykənir. Bu prizmadan yanaşdıqda, müasir dövrün çoxşaxəli çağırışları – qlobal iqlim dəyişikliyi, pandemiyalar, kibertəhlükəsizlik, enerji transformasiyası və geoiqtisadi qeyri-sabitlik – yalnız dəyərlərə əsaslanan multilateralizm və çevik institusional koordinasiya vasitəsilə effektiv şəkildə həll oluna bilər. Bu səbəbdən liberal yanaşma Transatlantik əməkdaşlığın müasirləşdirilməsini, yeni çağırışlara uyğunlaşdırılmasını və iştirakçıların ortaq demokratik dəyərlər əsasında daha çevik və dinamik yanaşmalar formalaşdırmasını zəruri hesab edir.

Beləliklə, realizm və liberalizm Transatlantik münasibətlərə fərqli baxış bucaqlarından yanaşsalar da, hər iki nəzəriyyə bu münasibətlər sisteminin beynəlxalq düzəndə mühüm rol oynadığını qəbul edir. Reallıqda isə bu iki nəzəri yanaşmanın elementləri zaman-zaman bir-birini tamamlayan və qarşılıqlı şəkildə təsir edən bir strukturda təzahür edir.

**(ardı var)**

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

## Azərbaycan Milli Mətbuatı – 150

# Yeniləşən Azərbaycan mediası: 150 illik yubileyə hansı nəticələrlə gedirik?

*(əvvəli 3 may tarixli sayımızda)*

### (II yazı)

Azərbaycan milli mətbuatının 150 illik yubileyinə hazırlıq gedir. Bu təqvim milli medianın fəaliyyətini təhlil etmək, dəyərləndirmək zərurətini yaradır.

Əslində, “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il tarixli sərəncamında media ictimaiyyətinin ötən dövrdəki fəaliyyəti qiymətləndirilib. Bu kontekstdə jurnalistlərimizin Vətən müharibəsi dövründəki fəaliyyətinə xüsusi diqqət yetirilib. Qeyd olunur ki, Azərbaycan mediası Vətən müharibəsində şanlı Zəfərin qazanılmasında, ərazi bütövlüyünün və suverenliyin tam bərpa olunmasında əsl vətənpərvərlik, həmrəylik və peşəkarlıq nümunəsi sərgiləyib. Haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün yüksək səy göstərib.

Sərəncam Azərbaycan jurnalistikasının tarixi fəaliyyətini qiymətləndirməklə yanaşı, həm də ondan gələcək gözləntiləri ifadə edir. Azərbaycan mediası yubileyə hansı nailiyyətlərlə gedir və ondan gələcək gözləntilər nədən ibarətdir?

### İslahatlar və milli teleməkan

Media islahatlarının ən qabarıq göründüyü sahələrdən biri də milli televiziya məkanıdır. Digər seqmentlərdən fərqli olaraq, televiziya sahəsində həm də ciddi şəkildə kadr islahatları həyata keçirilib. Son 4-5 il ərzində, demək olar ki, bütün mərkəzi və platforma yayımçısı olan TV-lərin rəhbərləri yeniləri ilə əvəzlənib. Bu dövrdə Azərbaycanın səsini dünyaya çatdıra biləcək xaricidilli, peşəkar, yeni TV kanalların açılması diqqət çəkib. 2024-cü ilin noyabr ayından etibarən qlobal xəbər və analitika sahəsində alternativ baxışı təqdim edən ANEWZ beynəlxalq televiziya kanalının fəaliyyətə başlaması bu sahədə ən yaxşı nümunədir.

Televiziya infrastrukturu ilə bağlı köklü yeniliklər 2022-ci ildə Audiovizual Şuranın yenidən formalaşdırılması, həmçinin yeni qanunvericiliyin qəbul olunması ilə başlanıb. Yeni qanunvericilik kabel və İP TV-lər üçün qeydiyyat prosedurunu asanlaşdırıb. “Media haqqında” Qanunun gətirdiyi yeniliklərə uyğun olaraq, Audiovizual Şura internet, kabel, İPTV üzərindən geniş fəaliyyət aparan yayımçılara lisenziyalar verməyə başlayıb. Lisenziya alanlar kabel, İPTV, OTT vasitəsilə daha böyük auditoriyaya çıxış imkanı əldə edirlər. İndi internet televiziyaları kabel və İP TV operatorları vasitəsilə də yayım verə bilirlər. “APA TV” bu sahədə yaxşı örnək yaradıb.

Televiziya məkanı son 4 il ərzində ən modern texniki imkanlara sahiblənib. 2022-ci ilin yanvar ayından etibarən, Azərbaycanda peyk üzərindən ötürülən televiziya yayımı tam olaraq HD formatına keçirilib. 2024-cü ilin mart ayından ölkə üzrə mərhələli şəkildə DVB-T2 standartlı rəqəmsal televiziya yayımının tətbiqinə başlanılıb. Artıq Bakı şəhəri və Abşeron yarımadasında bu yayım, demək olar, tam təmin olunub. Ölkə üzrə keçidin başa çatması isə 2025-ci ilin sonuna kimi nəzərdə tutulub. Önəmli faktlardan biri də budur ki, Audiovizual Şura işğaldan azad edilmiş ərazilərdə də audiovizual yayımın təşkili, radiotezliklərin ayrılması, media subyektlərinə lisenziyaların



verilməsi üzrə işlər həyata keçirir.

Milli teleməkanda struktur, kadr və qanunvericiliklə yanaşı, keyfiyyətli məzmun dəyişikliyi də baş verib. Azərbaycan Dövlət Televiziyası öz kontentini xeyli dərəcədə yeniləyib. AzTV həm müzakirə mövzuları, həm də təsir imkanları baxımından ölkənin əsas görüntülü informasiya resursuna çevrilə bilib. Özəl televiziyalarda isə ictimai tənqid doğuran şou proqramların dəyişdirilməsi prosesinə başlanılıb. Proses bu gün də davam edir.

Audiovizual Şura ölkədə elektron media seqmentində məzmunun inkişafı, müxtəlifliyə və çeşidli kontentə nail olunması məqsədilə təkliflər paketi hazırlayıb. Hazırda həmin təkliflərin reallaşdırılması istiqamətində işlər həyata keçirilir. Medianın İnkişafı Agentliyi ilə birgə audiovizual kontentin və sosial çarxların istehsalı üzrə müsabiqələr elan olunub.

Televiziyalar xarici ölkələrə, qaynar nöqtələrə ezamiyyətləri, birbaşa canlı yayım və reportajları əhəmiyyətli dərəcədə artırıblar. Bu kontekstdə AzTV-nin, Real TV-nin, CBC və İTV-nin fəaliyyəti xüsusilə diqqət çəkir.

Mərkəzi televiziyalar sosial media platformalarında video kontentin artırılması üçün effektiv işlər görürlər. Hazırda dövlət televiziyası da daxil olmaqla, əksər mərkəzi televiziyaların sosial media səhifələri çox aktivdir. Bu, bir tərəfdən televiziyaların auditoriyasını genişləndirirsə, digər tərəfdən sosial şəbəkə seqmentinin milli məzmunla zənginləşməsini şərtləndirir və ümummilli əhəmiyyət kəsb edir.

2022-ci ilin sonlarından etibarən, Azərbaycanda televiziya yayımında beynəlxalq standartlara uyğun olan reytinq ölçmələri həyata keçirilir. Yerli operator şirkət olan “Marsa Ltd”-in müasir texnologiyaya malik olan beynəlxalq “Kantar Media” ilə əməkdaşlığı çərçivəsində həm yerli televiziya kontenti, həm də retranslyasiya xidmətləri vasitəsilə əhaliyə təqdim olunan xarici televiziya kanallarının monitorinqi keçirilir, baxış üzrə dəqiq statistika tərtib olunur.

*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

Bütün bu dəyişikliklərin həyata keçirilməsinə dövlət ciddi dəstək verir. Ümumölkə yayımlı özəl televiziyaların yayımını inkişaf etdirmək üçün 2021-ci və 2023-cü illərdə onların “Radio Televiziya Yayımı və Peyk Rabitəsi” İstehsalat Birliyinə, Kosmik Agentliyə (“Azərkosmos”) və Dövlət Radiotezliklər İdarəsinə olan borclarının bağlanması yönündə təklif verilib. Prezident İlham Əliyev özəl televiziya yayımçılarına, ümumilikdə, 9 milyon manat məbləğində birdəfəlik dövlət dəstəyinin göstərilməsinə sərəncam verib. Həmin maddi dəstəyin 4 milyon manatı debitor borcların bağlanmasına, 5 milyon manatı isə yayımçıların maddi-texniki bazasının təkmilləşdirilməsinə və media məzmunun istehsalına yönləndirilib. Audiovizual Şuranın yayımçılarla apardığı maarifləndirici fəaliyyət nəticəsində əvvəllər mövcud olan kütləvi debitor borclanma praktikasına son qoyulub.

### İnformasiya agentlikləri

Son islahatların təsiri nəticəsində informasiya agentlikləri də yeni inkişaf mərhələsinə daxil olublar. Bu inkişafın nəticəsidir ki, informasiya agentlikləri son 4 il ərzində təkcə xəbər yayımı ilə məşğul olmaq çərçivəsindən çıxaraq, həm də analitik kontent yaradan strukturlara çevriliblər. Azərbaycan informasiya agentliklərinin analitik məlumatlarından götürülən sitatlara beynəlxalq təşkilatların hesabatlarında intensiv şəkildə istinad olunur. ABŞ Dövlət Departamentinin açıqlamalarından başlamış, “Artcle 19” təşkilatının, “Politico” nəşrinin məqalələrinə qədər ən müxtəlif yerlərdə APA, AzərTAC, “Trend” və “Report” agentliklərinə istinadlar verilib.

Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, yerli və xarici informasiya təminatı ilə milli informasiya resursları, xüsusilə agentlikləri məşğul olurlar. Məsələn, Ermənistanda son illər ərzində əsas xəbər mənbəyi “Sputnik Armeniya” hesab olunub. Azərbaycanda isə eyniadlı informasiya agentliyi heç ilk beşliyə də daxil olmayıb. Eyni hal qonşu Gürcüstan, qardaş Qazaxıstan, Özbəkistan və digərləri üçün də keçərlidir. Azərbaycanda milli informasiya agentlikləri güclü və əhatəli olduğu üçün heç bir xarici informasiya agentliyi yerli bazarda ciddi yer tuta bilmir.

Son 4 ildə müşahidə olunan hallardan biri də budur ki, milli informasiya agentlikləri daha çox dillərdə fəaliyyət göstərməyə başlayıblar. Hazırda AzərTAC 8, APA 5, “Trend” və “Report” agentlikləri isə 3 dildə fəaliyyət göstərirlər.

Azərbaycan informasiya agentlikləri, xüsusilə AzərTAC, APA və “Report” xarici ölkələrdə nümayəndəliklərinin sayını artırmaqda davam edirlər. Buna uyğun olaraq, təkcə milli məkandan informasiya yaymaqla kifayətlənmir, həm də dünyanın ən qaynar nöqtələrini əhatə edə bilirlər. Azərbaycan informasiya agentliklərinin Rusiya-Ukrayna, İsrail-Fələstin müharibələrinin gedişi ilə bağlı yaydıqları balanslı, keyfiyyətli və operativ xəbərlər ciddi diqqət qazanıb və bu fakt xarici ölkələrin diplomatlarının dilindən etiraf olunub.

### Nəticə

Milli media məkanında baş vermiş bu dəyişikliklər Azərbaycan dövlətinin informasiya təhlükəsizliyinə həssas yanaşmasının, həmçinin milli informasiya resurslarının inkişafı üçün ciddi dəstək verməsinin nəticəsidir. Son 4 il müddətində verilən sistemli dəstəyə uyğun olaraq, Azərbaycanın milli media resursları ciddi inkişaf mərhələsinə qədəm qoyaraq, xarici mediada və beynəlxalq hesabatlarda istinad mənbəyinə çevrilə biliblər. Əgər 44 günlük Vətən müharibəsi zamanı dünya mediası Azərbaycanın həyata keçirdiyi hərbi əməliyyatlar barədə məlumatları daha çox Türkiyə informasiya agentliklərindən və Türkiyə TV-lərindən alırdılarsa, indi bu tendensiya dəyişib. 2021-ci ildən sonrakı bütünü proseslərdə, o cümlədən antiterror əməliyyatlarında xarici medianın istinadları tamamilə Azərbaycan mediasının üzərinə köklənib. Yerli media xarici KİV-lərin Azərbaycanla bağlı xəbərlərində ən çox istinad etdiyi resurslara çevrilib.

Diqqət yetirsək görərik ki, milli media subyektləri əvvəllər yalnız Azərbaycana qarşı hücumlara cavab verir, müdafiə məzmunlu çıxışlar edirdilər. İndi isə önləyici tədbirlər alır, ölkənin maraqları ilə bağlı məsələlərdə maraqlı araşdırmalar apara, yeni faktlar tapıb təqdim edə bilirlər. Beləliklə, rəqib ölkələrin media subyektlərində və sosial şəbəkə seqmentində cavab reaksiyalarına, istinadlara səbəb olurlar. Misal olaraq, İran, Fransa və ABŞ media qurumları tərəfindən müxtəlif vaxtlarda ölkəmizə qarşı edilən informasiya hücumlarına Azərbaycan mediası tərəfindən peşəkar, operativ cavablar verilməsini və informasiya mübarizəsindəki uğurları göstərə bilərik.

Milli media ölkənin informasiya sərhədlərini qorumaq gücünü qazanıb. Peşəkar media subyektlərinin inkişafı istər-istəməz sosial media seqmentinə də təsir göstərib. Hazırda informasiya siyasətində məğlub olduğumuz heç bir media seqmenti mövcud deyil. İstər ənənəvi, peşəkar media seqmenti, istərsə də sosial şəbəkə platformalarının milli seqmenti heç bir xarici ölkənin informasiya vasitəsinin təsirində deyil. İndi bütün sosial şəbəkə platformalarında yüksək baxışı olan səhifələr yerli media resurlarına məxsusdur. Bu sırada Qafqazinfo, APA TV (fb), Baku TV, CBC və digərlərinin sosial media hesabları önəmli yer tutur.

Azərbaycan media məkanı son 5 il ərzində aparılan çalışmaların nəticəsi olaraq, yad təmayüllü, manipulyativ xarakterli “media nəzəriyyələrinin” ekspansiyası üçün poliqon rolunu oynamaq standartından çıxa bilib. Azərbaycan özü tərəqqipərvər, ictimai əhəmiyyət daşıyan media nəzəriyyələrinin, tendensiyaların yaradıcısına çevrilib. 22 iyul 2022-ci il tarixində Şuşa şəhərində 20-dək ölkədən olan xarici media nümayəndələri və ekspertlər, həmçinin yerli qonaqların iştirakı ilə “Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forum keçirildi. Forum çərçivəsində “Azərbaycan mediasının inkişaf yolu və müasir dövrdə media islahatları”, “Yeni media jurnalistikasına keçid dövründə media etikası”, “Türk Dövlətləri Təşkilatı çərçivəsində media əməkdaşlığı” və digər önəmli istiqamətlər üzrə müzakirələr təşkil olunub.

21-23 iyul 2023-cü il tarixlərində isə dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, ümumilikdə 49 ölkədən 150 xarici qonaq, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsinin iştirakı ilə “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumu” keçirilib. Forum çərçivəsində “Rəqəmsal dövrdə jurnalistika və kommunikasiya: yeni alətlər”, “Rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti”, “Yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları” kimi qlobal əhəmiyyətli mövzular müzakirə edilib. 2024-cü ildə “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusuna həsr edilən Şuşa Qlobal Media Forumu, demək olar ki, artıq qlobal brendə çevrilib və ümumilikdə, dünya informasiya məkanına töhfələr verir.

Prezident İlham Əliyevin Şuşa Media Forumuna şəxsən qatılaraq beynəlxalq və yerli jurnalistləri maraqlandıran sualları cavablandırması isə dünya ölkələri üçün örnək yaradır.

Birmənalı şəkildə deyə bilərik ki, bütün bu uğurlar son 5 il ərzində media məkanında həyata keçirilən islahatların nəticəsidir. Yeniliklər çoxdur və innovativdir. İnnovativ yeniləşmə Azərbaycan media məkanını dəyişir, uğurlu nəticələrə yol açır.

## Xuntaçıların məhkəməsi

# Videokadrlar və şahidlər erməni hərbi cinayətlərini təsdiqləyir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 5-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

Hakim Zeynal Ağayev prosesə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə əvvəlcə Xocavənd rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə bağlı daha bir videomaterial tədqiq olunub. 1993-cü ilin aprelində ermənilər tərəfindən çəkilmiş videogörüntülərdə Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonunda Ermənistan ordusunun bir qrup hərbçisi, o cümlədən Serj Sarkisyan (2008-2018-ci illərdə Ermənistan prezidenti) və hazırda məhkəmədə mühakimə olunan Davit İşxanyan görünür.

Erməni dilindəki videomaterialın tərcüməçi vasitəsilə tədqiqi zamanı məlum olub ki, Serj Sarkisyan hərbi bölmələri yoxlamağa gəlibmiş.

Videogörüntülərdə Monte Melkonyan S.Sarkisyana məruzə edir. S.Sarkisyan ona “Söhbət bu dəqiqə atəşi dayandırmaqdan yox, hücum əməliyyatlarından və daha çox ərazi tutmaqdan gedir” deyə bildirir.

Videomaterialda sonra əraziyə baxış keçirilir, S.Sarkisyan həmin vaxt 28-ci Xocavənd taborunun komandiri D.İşxanyanla söhbət edir. D.İşxanyan ona Ağdamın və rayonun Abdal Gülablı istiqamətindəki döyüş əməliyyatı, əməliyyat şəraiti barədə məlumat verir.

Videogörüntülərdə daha sonra qoşunların təminatı barədə danışılır. Sonra isə Serj Sarkisyan əsgərlərlə bir qədər söhbət edir.

Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxs Davit İşxanyana məhkəmədə nümayiş olunmuş videomaterialla bağlı suallar ünvanlayıblar.

D.İşxanyan dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandırarkən bu videomaterialın çəkilməsini və S.Sarkisyanın əraziyə səfərinin məqsədini xatırladığını deyərək bildirib: “Mənim taboruma gəlmişdilər. Taborun mövqelərindəki vəziyyətlə tanış olurdular”. O, videodakı şəxslərin bir qisminin adlarını da sadalayıb: “Serj Sarkisyan, Monte Melkonyan, Movses Akopyan (sonradan Ermənistan silahlı qüvvələrinin keçmiş baş qərargah rəisi – red.). O, həmin vaxt Monte Melkonyanın müavini idi. Videodakı digər şəxs mənim qərargah rəisim Aramayız Karapetyandır.

Videoda arxada duran sürücüdür. Dəqiq yadımda deyil, Movses Akopyanın və ya Monte Melkonyanın sürücüsü idi”.

D.İşxanyan komandiri olduğu taborun 1993-cü ilin iyul-avqust aylarında Ağdam istiqamətlərində döyüş əməliyyatlarında iştirak etdiyini də vurğulayıb.

Ardınca məhkəmədə Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması ilə bağlı videomaterial nümayiş etdirilib. 1992-ci il mayın 18-də ermənilər tərəfindən lentə alınmış videomaterialda Laçın rayonunda yanan evlər, Ermənistan ordusunun bir qrup hərbçisi əksini tapır. Videoda bir erməni hərbçi digərinə “Aşot, gör necə yanır” deyərək yanan evlərdən birini göstərir.

Bundan sonra məhkəmədə zərərçəkmiş şəxslər dindirilib.

Zərərçəkmiş şəxs Camal Məmmədov Laçın rayonunun Cicimli kəndinin sakini olduğunu, 1992-ci ilin mayında kəndin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini bildirib. O, atası Mehti Məmmədovun 1989-cu il avqustun 12-də erməni hərbçiləri tərəfindən öldürüldüyünü diqqətə çatdıraraq deyib: “Rus əsgərlərin dediyinə görə, atamı Kamo adlı erməni vurub. O zaman 18 yaşım var idi”.

Zərərçəkmiş şəxs Ağəli İbrahimov 1961-ci ildə Laçın rayonunun Cağazur kəndində doğulduğunu və həmin kənddə yaşadığını bildirib: “1992-ci il mayın 8-dək ermənilərin hücumunda bir pərakəndəlik hiss olunurdu. Amma mayın 8-dən hücumlar vahid komandanlıq tərəfindən həyata keçirilirdi. Xüsusilə “Qrad”, “Alazan” raketlərindən, uzaqvuran toplardan istifadə edirdilər”.

Sonra məhkəmədə 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya kəndində törədilmiş qətliam faktı ilə bağlı protokollar elan olunub və hadisə yerindən tükürpədən fotolar nümayiş etdirilib.

Sənədlərə əsasən, Laçın rayonu işğal edildikdən sonra müvəqqəti olaraq Goranboy rayonunun Ballıqaya kəndində yerləşən, Gülüstan meşəliyinin kənarında alaçıqlarda məskunlaşan Laçın rayonunun Nağdalı kəndinin sakinləri 1992-ci il avqustun 28-də gecə saat 5 radələrində erməni hərbçiləri tərəfindən odlu silahlardan ümumi təhlükəli üsulla atəşə tutulub, nəticədə 24 nəfər qətlə yetirilib, 9 nəfər yaralanıb. Həmin qətliam zamanı qətlə yetirilənlərdən 7-sinin yaşı 18-dək, 4-nün yaşı isə 60-dan yuxarı olub. Ümumilikdə 13 qadın, 11 kişi həlak olub.

Daha sonra məhkəmədə 1992-ci il sentyabrın 19-da Goranboy rayonunun Gülüstan kəndində azərbaycanlı sakinlərin atəşə tutulması faktı üzrə sənədlər tədqiq edilib. Sənədlərə əsasən, həmin gün saat 18 radələrində Ermənistan silahlı qüvvələri Goranboy rayonunun Gülüstan kəndində kartof yığımı ilə məşğul olan sakinlərə silahlı hücum edib. Nəticədə 20 dinc sakin odlu silahlardan açılan atəşlər nəticəsində qətlə yetirilib, bir neçə nəfər isə xəsarətlər alıb.

Həmin gün Goranboyun Gülüstan kəndinə hücum edilərkən rayonun Ağcakənd polis bölməsinin əməkdaşları onlara silahlı müqavimət göstərib və dinc sakinləri həmin ərazidən təxliyə edərkən pusquya salınıb. Nəticədə, 13 nəfər qətlə yetirilib, 8 nəfər yaralanıb. Qətlə yetirilmiş şəxslərdən 2-si, həmçinin xəsarət almış şəxslərdən 2 nəfəri polis əməkdaşı olub.

Zərərçəkmiş şəxs Binnət Mehdiyev Şuşa şəhərindən məcburi köçkün kimi Laçın rayonunun Nağdalı kəndində məskunlaşdığını, 1992-ci il mayın 17-18-də kəndin işğal olunduğunu, bundan sonra Goranboy rayonunun Ballıqaya kəndinə gəldiklərini bildirib.

B.Mehdiyev 1992-ci il avqustun 28-də erməni silahlılarının hücum etdiklərini, nəticədə 24 nəfərin qətlə yetirildiyini bildirib. Hadisə zamanı onun atası, anası, iki qardaşı, bacısı və digər yaxın qohumları qətlə yetirilib. “Hadisə zamanı Vəzir adlı qohumumun həyat yoldaşını və 6 uşağını qətlə yetiriblər. Uşaqlardan biri altıaylıq körpə idi”, - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Şəhla Quliyeva 1992-ci ilin mayında Laçın rayonundan məcburi köçkün kimi əvvəlcə Goranboyun Baş Qışlaq kəndinə, daha sonra isə həmin rayonun Ballıqaya kəndinə köçdüklərini deyib. O, 1992-ci il avqustun 27-də ərazidə vertolyot gördüyünü və bu barədə qayınanasına məlumat verdiyini söyləyərək deyib: “Həmin gecə nigaran yatdıq. Avqustun 28-də səhər saat 5 radələrində gördüm ki, ətrafı alov bürüdü”.

Ş.Quliyeva həmin vaxt hündürlükdə olan alaçıqdan yaxınlıqdakı meşəyə düşdüyünə görə təsadüfən sağ qalıb. O, hadisə zamanı güllə yarası alıb. O, hadisə zamanı qayınanasının, baldızlarının, qayınanasının 110 yaşlı qayınanasının və digər qohumlarının qətlə yetirildiyini bildirib.

Zərərçəkmiş şəxs Nəsrəddin Mustafayev 1992-ci il sentyabrın 19-da kartof yığmaq üçün getdiyi Goranboy rayonunun Gülüstan kəndində Ermənistan ordusunun bölmələri tərəfindən atəşə tutulduqlarını, nəticədə ayağından yaralandığını vurğulayıb. O qeyd edib: “Ayaq barmaqlarımın üçdəbir hissəsi yoxdur”.

Zərərçəkmiş şəxs Sahibə Mustafayeva bildirib ki, 1992-ci il sentyabrın 19-da atası Kazım, babası Salman ilə birlikdə Goranboyun Gülüstan kəndinə kartof yığmağa gedib, geri qayıdarkən atasının idarə etdiyi avtomobili Ermənistan hərbçiləri atəşə tutublar. Güllələrdən biri atasına, digəri isə babası Salmana dəyib. Həmin vaxt 12 yaşı olan S.Mustafayeva ayağından güllə xəsarəti alıb və huşunu itirib. Sonradan bilib ki, həmin hadisə nəticəsində çoxlu adam, o cümlədən babası Salman və atası Kazım ölüb.

Zərərçəkmiş şəxs Nofəl Nuruyev qeyd edib ki, müdiri Qafqaz Rüstəmovun tapşırığı ilə 1992-ci il sentyabrın 19-da idarə etdiyi “Zil” markalı avtomobillə Tapqaraqoyunlu kənd sakini İsrafil İsmayılov və yolda avtomobilinə götürdüyü tanımadığı 3 azərbaycanlı ilə birlikdə kartof yığmaq üçün Goranboyun Gülüstan kəndinə gediblər. Geri qayıdarkən polis postunu keçdikdən sonra yolun meşə ərazisində qəflətən erməni hərbçilər onun olduğu avtomobili odlu silahlardan atəşə tutublar. Həmin vaxt polislər köməyə gəlib və erməni hərbçilərlə atışma davam edib. Nəticədə o, gözündən güllə yarası alıb, İsrafil İsmayılov isə həlak olub.

Zərərçəkmiş şəxs Xaləddin Rüstəmov ifadəsində Goranboy rayonunun Aşağı Ağcakənd Polis Bölməsində polis işlədiyini, 1992-ci il sentyabrın 19-da odlu silahlardan atəşə tutduğunu deyib. Nəticədə o və polis əməkdaşı Ceyhun Teyyubov xəsarət alıb, Elxan Süleymanov və Yavər Kazımov isə həlak olub.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Məhkəmənin növbəti iclası mayın 8-nə təyin olunub.

***XQ***

# Maqsud İbrahimbəyovun xatirəsi ehtiramla anılıb

## *Leyla Əliyeva mərasimdə iştirak edib*

**Mayın 4-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud İbrahimbəyovun anadan olmasının 90 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilib.**





Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə Maqsud İbrahimbəyovun zəngin yaradıcılıq irsindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Maqsud İbrahimbəyovla bağlı xatirələrini bölüşüb. O, görkəmli sənətkarla uzun illər davam edən dostluğundan söz açaraq bildirib ki, Maqsud İbrahimbəyov təkcə istedadlı yazıçı və dramaturq deyil, həm də dərin intellektə və güclü yumora malik bir insan olub.

Xalq yazıçısı çıxışında Maqsud İbrahimbəyovun özünəməxsus yumor hissindən danışaraq, onun zarafatlarının hər zaman düşündürücü və incə məna daşıdığını bildirib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu çıxışında Maqsud İbrahimbəyovu qeyri-adi yumor hissinə və incə zarafatlara sahib bir şəxsiyyət kimi xatırladığını qeyd edib. Polad Bülbüloğlu Maqsud İbrahimbəyovla dostluq dövründə onun ssenaristi olduğu filmlərinə, tamaşalarına musiqi bəstələdiyini bildirərək deyib: "Bu, sadə dostluq deyil, deyərdim ki, yaradıcılıq dostluğudur. Maqsud həmişə iradəli və məqsədyönlü idi, eyni zamanda o, zarafatları ilə bizi həmişə güldürərdi". Onun sözlərinə görə, Maqsud İbrahimbəyovun zarafatları və aforizmləri indiyə qədər yaşayır, dilə gətirilir.

Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman çıxışında bildirib ki, Maqsud İbrahimbəyovun şəxsiyyətinin miqyası, intellekti və insani cazibəsi onun yaradıcılığını da üstələyirdi. O, Maqsudu dövrünü müşahidə edən, dərin düşüncəli və tamamilə qərəzsiz bir şəxs kimi xarakterizə edib. M.Qusman, həmçinin vurğulayıb ki, İbrahimbəyov güclü yumor hissinə malik, insanlarla asanlıqla ünsiyyət quran biri olub.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli Maqsud İbrahimbəyovun çox qürurlu bir insan olduğunu bildirib. O, yazıçı ilə uzun illərə dayanan dostluğundan söz açaraq, M.İbrahimbəyovun yüksək mənəvi dəyərlərə sahib, zəngin intellektə malik və cəmiyyətə böyük töhfələr vermiş bir şəxsiyyət olduğunu vurğulayıb.

Tədbirdə, həmçinin yazıçının ssenari müəllifi olduğu filmlərdən seçilmiş fraqmentlər təqdim olunub.

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova gecənin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə və Beynəlxalq Muğam Mərkəzinə dərin təşəkkürünü bildirib.

Çıxışlardan sonra Maqsud İbrahimbəyovun "Püstə ağacı" əsəri əsasında hazırlanmış və Vaqif Əsədovun rejissoru olduğu eyniadlı monotamaşanın nümayişi olub.

Qeyd edək ki, Maqsud İbrahimbəyovun anadan olmasının 90 illiyinə həsr edilmiş yaradıcılıq gecəsi Prezident İlham Əliyevin 2025-ci il 13 fevral tarixli Sərəncamına əsasən təşkil olunub.

***XQ***



# Leyla və Arzu Əliyevaların Ordubad görüşləri

**Mayın 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ailə üzvlərinin Naxçıvan Muxtar Respublikasına səfəri Ordubad rayonu və ətraf bölgələri əhatə etməklə davam edib.**

Səfərin ikinci günündə onlar qədim tarixə, zəngin mədəniyyətə və unikal coğrafi landşafta malik olan bu regionun irsi ilə daha yaxından tanış olublar.

Səfər çərçivəsində ilk olaraq Leyla Əliyeva və Arzu Əliyeva Naxçıvanın mənəvi-simvolik məkanlarından biri sayılan, dini-tarixi baxımdan mühüm əhəmiyyət kəsb edən Əshabi-Kəhf ziyarətgahına baş çəkiblər. Burada onlar "Damcıxana" və ziyarətgah ərazisində yerləşən müxtəlif müqəddəs yerlərlə tanış olub, ziyarətə gəlmiş yerli sakinlərlə səmimi söhbətlər aparıb, xatirə şəkilləri çəkdiriblər.



Daha sonra Ordubad şəhərinə yola düşərək bir sıra tarixi, dini və mədəni obyektlərlə tanış olublar. İlk olaraq şəhərin simvollarından biri olan Ordubad Cümə Məscidi ziyarət edilib. Ardınca "Qeysəriyyə" Tarix-Diyarşünaslıq Muzeyində Ordubadın tarixi, mədəni irsi və sənətkarlıq ənənələrini əks etdirən eksponatlara baxış keçirilib.

Səfər Sərşəhər küçəsində yerləşən bir sıra mədəni abidələrin ziyarəti ilə davam edib. Leyla Əliyeva və Arzu Əliyeva tarixi baxımından əhəmiyyətə malik "Sərşəhər Məscidi" ilə tanış olublar.

Daha sonra Sərşəhər Meydanındakı orqanik bazarda Ordubadın özünəməxsus yerli məhsulları, müxtəlif növ milli şirniyyatlar, mürəbbələr, quru meyvələr, bitki ekstraktları, dərman bitkiləri, bal və arı məhsulları, həmçinin Ordubada məxsus qayğanaq və məşhur Ordubad limonu təqdim olunub. Həmçinin meydanda yerləşən və əsrlərlə yaşı olan qədim çinar ağacı Ordubadın təbiət və tarix vəhdətini əks etdirən rəmzlərdən biri kimi vurğulanıb. Gəzinti zamanı onlar meydan ərazisində yerli sakinlərlə xoş ünsiyyət qurub, xatirə şəkilləri çəkdiriblər.

Ardınca Leyla Əliyeva və Arzu Əliyeva Ordubad rayonunun Vənənd kəndində yaşayan Əkbərovlar ailəsinin qonağı olublar. Onlar ailənin limonçuluq üzrə fəaliyyət göstərən kiçik aqrotəsərrüfatına baş çəkib, burada xüsusi qulluqla yetişdirilən Ordubad limonu və onun becərilmə prosesi ilə yerində tanış olublar.

***XQ***

# DOST həssas qrupları himayə edir



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət edərək, burada həssas qruplara aid şəxslərin yaradıcılıq prosesi ilə əyani tanış olublar.**



Qeyd edək ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi 2021-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəz Cənubi Qafqazda ilk və ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı hesab olunur.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Mərkəz haqqında ətraflı məlumat verib. O bildirib ki, burada əlilliyi olan şəxslərin, şəhid ailələrinin üzvlərinin və digər həssas qrupların bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif istiqamətlərdə təlim və məşğələlər təşkil olunur. Eyni zamanda, benefisiarlar sosial-psixoloji dəstəyə yönəlik reabilitasiya xidmətlərinə də cəlb olunurlar. Nazir qeyd edib ki, fəaliyyətə başladığı vaxtdan etibarən Mərkəzdə 120-dən çox müxtəlif tədbir keçirilib. Mərkəz və onun İsmayıllıda, Bərdədə yerləşən "DOST Evi" filiallarında ümumilikdə 700-dən çox şəxsə xidmətlər göstərilib. Hazırda isə 200-ə yaxın benefisiar müxtəlif sahələr üzrə təlimlərə cəlb olunmaqla onların şəxsi və peşə bacarıqlarının inkişafına dəstək göstərilir. Vurğulanıb ki, benefisiarların əl işləri bir sıra beynəlxalq sərgilərdə, həmçinin COP29-un Yaşıl zonasındakı "Art Pavilion"da nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

Leyla Əliyeva ilə Arzu Əliyeva Mərkəzdə təlimçilərin və benefisiarların dulusçuluq, xalçaçılıq, təsviri incəsənət sahələrində gördükləri iş prosesi ilə yaxından tanış olublar. Daha sonra müəssisənin əlilliyi olan təlimçisi tərəfindən 5 May - "Xalçaçı Günü" münasibətilə hazırlanmış, İrəvan xalçası və Qarabağ Çələbi xalçası naxışları ilə işlənmiş kompozisiya nümayiş olunub.

Proqram çərçivəsində Leyla Əliyeva və Arzu Əliyeva 2 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsinin sakinlərinin ifalarını, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təlimçilərinin və benefisiarlarının təqdim etdikləri inklüziv konsert proqramını izləyiblər.

Tədbirin sonunda IDEA könüllülərinin də iştirakı ilə Mərkəzin həyətyanı sahəsində ağacəkmə tədbiri keçirilib.

***XQ***

# "Nine Senses Fest" Beynəlxalq Yoqa Festivalı

**"Sea Breeze Event Hall"un əsas səhnəsində 3 gün davam edən zəngin proqramdan sonra mayın 4-də "Nine Senses Fest"in bağlanış mərasimi keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, "Nine Senses" İncəsənət Mərkəzinin təsisçisi, Azərbaycan Yoqa Federasiyasının prezidenti Leyla Əliyeva mərasimdə iştirak edib.**



Bağlanış mərasimi çərçivəsində müğənni Çingiz Mustafayev "Healing Evening" proqramı ilə çıxış edib.

Konsertdən sonra "Vibrosoundlab" komandası yekun "Ecstatic Dance"ı təqdim edib.

Beləliklə, yüzdən çox tədbiri – yoqa, meditasiya sessiyaları, ənənəvi təbabət, art-terapiya üzrə mühazirələri, həmçinin musiqi və rəqs qruplarının çıxışlarını əhatə edən üçgünlük proqrama yekun vurulub.

Xatırladaq ki, festival Heydər Əliyev Fondunun vitse-prezidenti, "Nine Senses" İncəsənət Mərkəzinin təsisçisi və Azərbaycan Yoqa Federasiyasının prezidenti Leyla Əliyevanın dəstəyi ilə keçirilib.

***XQ***

# Leyla və Arzu Əliyevalar Beynəlxalq Xalça Festivalında



**Mayın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva İçərişəhərdəki Qoşa Qala meydanında keçirilən Beynəlxalq Xalça Festivalını ziyarət ediblər.**

Onlar festivalda nümayiş olunan xalça nümunələri, ənənəvi sənətkarlıq məmulatları, eləcə də müxtəlif ölkələrin milli tətbiqi-dekorativ sənət nümunələrinin sərgiləndiyi pavilyonlarla tanış olublar.

Leyla Əliyeva və Arzu Əliyeva, həmçinin xalçaların hazırlanma prosesinə baxış keçiriblər. Məlumat verilib ki, bu proses yunların çeşidlənməsi, təmizlənməsi, təbii boyalarla rənglənməsi, sapların hazırlanması, naxışların yaradılması və toxunmasından ibarətdir.

Daha sonra onlar festivalda iştirak edən yerli və xarici qonaqlarla səmimi söhbətlər aparıb, xatirə şəkilləri çəkdiriblər.

*XQ*

# Uşaq evlərinin minifutbol turniri



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın təşəbbüsü ilə uşaq evlərində tərbiyə alan 10-12 və 13-15 yaş arası oğlan və qızlardan ibarət komandalar arasında "Dostluq Kuboku" minifutbol turniri keçirilib.**

Turnir uşaqların fiziki və psixoloji inkişafına dəstək vermək, onlarda komanda ruhunu, özünəinamı və sosial bacarıqları gücləndirmək məqsədi daşıyıb.



Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı ilə baş tutan yarışda Sosial Xidmətlər Agentliyinin nəzdində fəaliyyət göstərən 1, 2 və 3 saylı Uşaq evlərinin komandaları güclərini sınayıblar.

Qızlar və oğlanlar arasında yüksək idman əzmi və dostluq münasibəti müşahidə olunub. Oyunlar zamanı həm uşaqların, həm də oyunu izləyənlərin böyük coşqu və sevinc yaşadığı diqqət çəkib.

Turnirin ən yaddaqalan anlarından biri tədbirə şəxsən qatılan və oyunları izləyən Leyla Əliyeva və Arzu Əliyevanın bütün komandaları dəstəkləməsi, uşaqlarla səmimi söhbət etməsi və onlarla şəkillər çəkdirməsi olub. Onlar iştirakçılara uğurlar arzulayaraq, belə tədbirlərin gələcəkdə daha geniş miqyasda keçirilməsinin vacibliyini vurğulayıblar. Hər iki yaş qrupu üzrə qalib komandalar diplom, medal və kubokla təltif olunub. Eyni zamanda, ikinci və üçüncü yeri qazanan komandalar da medal və diplomlarla mükafatlandırılıb.

Qeyd edək ki, "Dostluq Kuboku" minifutbol turnirinin təşkilində əsas məqsəd uşaq evlərində böyüyən uşaqlar arasında sağlam həyat tərzinin və fiziki fəallığın təşviqi ilə yanaşı, onların cəmiyyətə inteqrasiyasına dəstək olmaq, yeni dostluqların qurulmasına şərait yaratmaqdır.

Tədbirin sonunda uşaqlar, tərbiyəçilər və təşkilatçılar belə təşəbbüslərin onların həyatına müsbət təsir etdiyini bildirərək, bu cür sosial-idman layihələrinin davamlı olmasını arzuladıqlarını qeyd ediblər.

*XQ*

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu 2025" keçirilib

**Mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı Marafonu 2025" keçirilib. "Küləyə qalib gəl" şüarı ilə təşkil edilən yarışda 28 minədək iştirakçı qeydiyyatdan keçib. Artıq 8-ci dəfədir keçirilən Bakı Marafonuna tanınmış siyasi-ictimai, incəsənət xadimləri, ziyalılar qoşulub. Ümumilikdə marafonun 200-dən çox rəsmi və fəxri iştirakçısı olub.**

Marafona Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb-çalışan əcnəbilər də qatılıblar, həmçinin digər ölkələr - Almaniya, Amerika Birləşmiş Ştatları, Avstraliya, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Fransa, Hindistan, İspaniya, İtaliya, Kanada, Niderland, Özbəkistan, Polşa, Rusiya, Türkiyə, Ukraynadan və digərlərindən qoşulanlar olub.

Startdan öncə marafon iştirakçıları öz təəssüratlarını bölüşüblər. Ağırlıqqaldırma üzrə Avropa çempionu, dünya ikincisi və üçüncüsü, idman səfiri Dadaş Dadaşbəyli marafonlarda peşəkar idmançı kimi tez-tez iştirak etdiyini, lakin bu gün ilk dəfə idman səfiri kimi "Bakı Marafonu-2025"ə qatıldığını bildirib: "Hər iki halda burada olmaq çox xoşdur. Ümid edirəm ki, gələcək illərdə də marafonlarımızda sağlam yürüşlərimiz çox olar. Bu il iştirakçı sayının yüksək olması onu deməyə əsas verir ki, sağlam həyatı sevən nə qədər insan var. Bu marafon sağlam həyata çağırışdır. İnanıram ki, növbəti il iştirakçı sayı bundan da artıq olacaq".

Olimpiya Oyunlarının sərbəst güləş üzrə ikiqat mükafatçısı, üçqat dünya və dördqat Avropa çempionu Hacı Əliyev isə marafonla bağlı bunları deyib: "Sevindiricidir ki, xalqımızın ən məşhur simaları bu gün buradadırlar. Belə tədbirlərdə həmişə birlik nümayiş etdirməliyik. Bildiyimiz kimi, idman sağlamlığın açarıdır. Hər kəsə sağlam həyat arzulayıram. Bu gün küləyə qalib gəlmək çətin olacaq. Mən hər kəsi idmanla məşğul olmağa səsləmək istəyirəm. Gənclərimiz pis vərdişlərdən uzaq olsunlar, məşq etsinlər. Sağlamlıq olmayandan sonra heç bir şeyin mənası qalmır".

Yürüşdə fiziki imkanları məhdud şəxslər və Daun sindromlu uşaqlar da iştirak ediblər.

Demək olar hər il marafona qatıldığını qeyd edən Əlil Velosipedçilərə Dəstək İctimai Birliyinin sədri və paravelosiped üzrə baş məşqçi Amid Həsənquliyev bildirib: "Bu dəfə ötənilkindən fərqli olaraq 7-8 paravelosipedçi ilə marafona qoşulduq. Digər marafonçuların ayaqları ilə qət etdiyi yolu biz əllərimizlə qət edirik. Heydər Əliyev Fonduna bu möhtəşəm təşəbbüsə görə təşəkkür edirəm. Çox sağ olsunlar ki, fiziki imkanları məhdud şəxslərin özlərini göstərmələri üçün fürsət yaratdılar. Ümid edirəm ki, belə yarışların təşkili davamlı olar. İnsanlara demək istəyirəm ki, belə marafonlarda öz güclərini sınasınlar. İdmana çox vaxt ayırsınlar və sağlam həyatı seçsinlər. 2016-cı ildən təşkil edilən Bakı Marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır".

Marafona səhər saat 10-da start verilsə də, saat 7-dən etibarən Bayraq Meydanında artıq yarış əhvali-ruhiyyəsi yaşanıb. Burada yaradılan atletlər zonasında iştirakçılar üçün yarışdan əvvəl yoqa, isinmə məşqləri keçirilib, "fan zona"da DJ-lər öz bacarıqlarını göstərib, müxtəlif əyləncə və interaktiv oyunlar təşkil edilib. Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanı olan marafonun marşrutu Dənizkənarı Bulvar, o cümlədən paytaxtın mərkəzi küçə və prospektlərini, ümumilikdə 21 kilometrlik məsafəni əhatə edib.



Marafonun marşrutu boyu şəhərin müxtəlif ünvanlarında da əyləncə zonaları təşkil edilib. Kişilər arasında yarışın qalibi türkiyəli Atac Sezgin olub. Ukraynalı Vitali Şafar finiş xəttini ikinci keçib. Bürünc medalı isə Türkiyənin digər təmsilçisi Murat Emekdar qazanıb.

Qadınların mübarizəsində ukraynalı Natalya Semenoviç finişə hamıdan tez çatıb. Azərbaycanı təmsil edən Anna Yusupova ikinci, yaponiyalı atlet Eriko Soma üçüncü yerə layiq görülüb. Qələbə təəssüratlarını bölüşən mükafatçılar marafonun yüksək səviyyədə təşkil olunduğunu bildiriblər. Kişilər arasında qızıl medalın sahibi Atac Sezgin marafondan öncə də özündən uğurlu nəticə gözlədiyini vurğulayıb. O, illərdir marafonlarda iştirak etdiyi üçün uzun məsafələrə öyrəşdiyini deyib: "Ona görə də çox çətinlik çəkmədim. Külək qaçmağımıza bir qədər mane oldu, ancaq ciddi problem yaratmadı. Yarışın yüksək səviyyədə təşkil olunduğunu xüsusi qeyd etmək istərdim. Bu, Bakıya ilk gəlişimdir. Qələbə qazanacağımı bilirdim. Bundan öncə dəfələrlə müxtəlif yarışlarda qalib olmuşam. Bakı haqqında maraqlı fikirlər eşitmişdim və buraya gəlməyi çox istəyirdim. Burada çox möhtəşəm atmosfer var. Məni dəstəkləyən hər kəsə çox təşəkkür edirəm".

Qadınlar arasında "Bakı Marafonu 2025"də ikinci yerin sahibi olan Anna Yusupova budəfəki yarışın digərlərindən çox fərqləndiyini bildirərək əlavə edib: "Açığı, ötən illərdə belə külək olmamışdı. Bu, indiyədək ən güclü külək idi. Hava şəraiti səbəbindən bir qədər çətinlik çəkdik. Amma ümumilikdə yarış çox mükəmməl keçdi. Bu qədər insanın həmrəy olması və birlikdə yürüş etməsi gözəl haldır. İnanırıq ki, marafonçularımızın sayı ildən-ilə daha da artacaq".

Tələbələr arasında finişə hamıdan tez Azərbaycan İdman Akademiyasında təhsil alan Miyanə Xəlilova və Nihad Cabbarlı çatıblar.

Paravelosipedçilərin mübarizəsində Tofiq Babayev 1-ci, Orxan Nəbiyev 2-ci, Bəhlul Əliyev 3-cü yeri tutub.

Finiş xəttinə ilk çatan korporativ iştirakçı Teymur Fərəcov olub.

Qaliblərə mükafat və medallar təqdim edilib.

"Bakı Marafonu 2025"in mükafatlandırması iki kateqoriyada olub. Marafonun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparıb. Kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3000 AZN, 2-ci yerin qalibi 2000 AZN, 3-cü yerin qalibi isə 1000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunub. Finiş xəttini keçən ilk 2000 iştirakçı da "Bakı Marafonu 2025"in medalları ilə mükafatlandırılıb. Bununla yanaşı, bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunub. Qeyd edək ki, marafona 400-dən çox könüllü cəlb edilib. Regionlardan 500 nəfər RİİB (Regional İnkişaf İctimai Birliyi) könüllüsü isə iştirakçı kimi marafona qatılıb.

Finişə çatanlar arasında gənclər və idman naziri Fərid Qayıbov da olub. Nazir marafona marağın ildən-ilə daha da artdığını vurğulayaraq deyib: "Təəssüf ki, şəxsi rekordumu qıra bilmədim. Deməli, daha çox məşq etməliyik. İldən-ilə iştirakçıların və finişə çatanların sayı artır. Bu, çox gözəl haldır. Eyni zamanda, Bakıya xarici ölkələrdən qonaq qismində gələnlərin sayı çoxalıb. Bu o deməkdir ki, ənənəvi marafon hər il yüksək səviyyədə təşkil olunur".






Marafon iştirakçıları, şəhər sakinləri və qonaqlar üçün Dövlət Bayrağı Meydanında ənənəvi olaraq əyləncə zonası da yaradılıb. Burada müxtəlif əyləncələr, yarışlar, idman tədbirləri keçirilib, sevimli ifaçıların iştirakı ilə musiqili proqram təşkil olunub.

*XQ*

# "Gənc arıçı" layihəsi Xızıda

**Gənc ailələrin məşğulluğu və ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən "Gənc arıçı" layihəsi bu dəfə Xızı rayonunda icra olunacaq. Layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2021-ci ildən etibarən ölkəmizin müxtəlif bölgələrində uğurla reallaşdırılır.**

IDEA İctimai Birliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, layihəyə cəlb olunacaq 20 gənc ailə əvvəlcə nəzəri və praktiki təlimlərdə iştirak edəcək. Təlimləri başa vurmuş iştirakçılar arı ailələri və pətəklər, arıçı geyimi, balsüzən aparat və digər zəruri avadanlıqlarla təmin olunacaqlar. Gənc arıçılara istehsalat prosesinin effektiv təşkili üçün zəruri şərait yaradılacaq, eyni zamanda, məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satış strategiyalarının hazırlanması sahəsində metodoloji və peşəkar dəstək göstəriləcək.

Qeyd edək ki, 2021-ci ildən etibarən IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsi çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 60-dan çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib.

Layihənin məqsədi biomüxtəlifliyin əsas qoruyucularından biri olan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır. Eyni zamanda layihə, gənc ailələrin sosial rifahının yüksəldilməsinə və onların dayanıqlı məşğulluğunun təmin olunmasına töhfə verməyi hədəfləyir.

"Gənc arıçı" layihəsində iştirak etmək istəyən Xızı rayonunda yaşayan 18-35 yaşarası gənclər mayın 18-dək müraciətlərini IDEA İctimai Birliyinin "1113" qaynar xətti və ya elektron poçt ünvanına (info@ideacampaign.org) göndərmələri və yaxud Dövlət Məşğulluq Agentliyinin Xızı rayon




xidmət şöbəsinə yaxınlaşaraq qeydiyyatdan keçmələri xahiş olunur.

Müraciətlərin qiymətləndirilməsi zamanı iştirakçıların arıçılıq sahəsində bilik və təcrübəsi, sosial vəziyyəti, həmçinin arıçılıq təsərrüfatının yerləşdirilməsi üçün müvafiq həyətyanı torpaq sahəsinin mövcudluğu əsas meyarlar kimi nəzərə alınacaq.

*XQ*

# Ərzaq təhlükəsizliyi aqrar inkişafın önəmli hədəfidir

## Azərbaycan FAO ilə bu sahədə fəal iş aparır

**Azərbaycanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə əməkdaşlığı ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatının müasir çağırışlara uyğun inkişaf etdirilməsi və iqlim dəyişikliyinə qarşı dayanıqlı yanaşmaların tətbiqi baxımından mühüm önəm daşıyır. Bu tərəfdaşlıq dövlətimizin həyata keçirdiyi aqrar islahatlarla və uzunmüddətli inkişaf strategiyaları ilə tam uzlaşır.**

Xatırladaq ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı 1945-ci ildə yaradılıb. Baş ofisi İtaliyanın Roma şəhərində yerləşən FAO-nun əsas məqsədi əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatını yaxşılaşdırmaq məqsədilə fərdi və kollektiv fəaliyyətlər aparmaq və həmçinin kənd təsərrüfatının inkişafı məsələləri üzrə hökumətlərarası təşkilatların işlərini əlaqələndirməkdən ibarətdir. BMT-nin adıçəkilən qurumu hazırda dünyanın 191 ölkəsində fəaliyyət göstərir. Həmçinin təşkilatın 130-dan çox ölkədə nümayəndəliyi yaradılıb.

Azərbaycan isə 1995-ci il oktyabrın 20-dən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının üzvüdür. 2007-ci ildə ölkəmizdə FAO-nun layihə əlaqələndirmə ofisi fəaliyyətə başlayıb. 2015-ci ilin payızından etibarən isə qurum Azərbaycandakı fəaliyyətini tərəfdaşlıq və əlaqələndirmə ofisi vasitəsilə həyata keçirir. Ötən müddətdə Azərbaycan hökuməti kənd təsərrüfatında məhsuldarlığın artırılması məqsədilə müxtəlif inkişaf və fövqəladə hallara hazırlıq layihələrinin icrası, habelə kənd təsərrüfatında islahatların aparılması və sürətləndirilməsi, ölkədə ərzaq təhlükəsizliyi ilə bağlı bir çox çətinliklərin müsbət həlli üçün FAO-dan dəstək alıb.



2019-cu ildə Bakıda FAO ilə Azərbaycan arasında Tərəfdaşlıq Proqramının həyata keçirilməsinə başlanılıb. Bu da ölkəmizlə adıçəkilən beynəlxalq təşkilat arasında əməkdaşlıq əlaqələrinin yeni mərhələyə qədəm qoymasına imkan yaradıb. Hazırda FAO Azərbaycan Respublikası ilə 9 prioritet istiqamət üzrə əməkdaşlıq edir.

Qurumun ölkəmizdə əsas fəaliyyəti qida məhsullarının və tullantıların idarə olunması sahəsində həyata keçirilən layihələrə dəstəyə yönəlib. Ötən müddətdə FAO-nun dəstəyi ilə Azərbaycanda 60-dan yuxarı layihə reallaşdırılıb. Həmin layihələr toxumçuluq, heyvandarlıqda məhsuldarlığın artırılması, damazlıq işinin yaxşılaşdırılması, fitosanitar xidmətlərin gücləndirilməsi, ziyanvericilərə qarşı mübarizənin təkmilləşdirilməsi və digər sahələrin inkişafına yardım məqsədi daşıyıb. Bu da bölgələrdə kənd təsərrüfatı mühitinin, eləcə də qida təhlükəsizliyinin yaxşılaşdırılmasına imkan yaradıb.

Əməkdaşlıq çərçivəsində ölkəmizdə kənd təsərrüfatında texnoloji yeniliklərin tətbiqi, torpaq və su resurslarının davamlı idarə olunması, fitosanitar və baytarlıq sahələrində institusional potensialın gücləndirilməsi kimi istiqamətlər üzrə mühüm nəticələr əldə edilib. Bu işlərdə Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar FAO ilə birgə fəaliyyəti daim diqqətdə saxlayıb.

2021-ci ildə imzalanan "2021–2025-ci illər üzrə FAO – Azərbaycan Ölkə Proqramı Çərçivəsi" bu əməkdaşlığın strateji əsasını təşkil edir. Sənəddə ərzaq təhlükəsizliyi və qidalanmanın yaxşılaşdırılması, təbii resursların səmərəli istifadəsi və kənd yerlərində sosial rifahın artırılması kimi mühüm prioritetlər diqqət çəkir. FAO tərəfindən təqdim edilən texniki yardım, təlim proqramları və pilot layihələr yerli fermerlərin bilik və bacarıqlarının artırılmasına mühüm töhfə verir.

Ermənistanın işğalından azad edilən ərazilərdə kənd təsərrüfatı və ekosistemlərin bərpası da FAO-nun dəstək verdiyi əsas istiqamətlərdəndir. Təşkilat həmin ərazilərdə dayanıqlı əkinçilik, toxum ehtiyatlarının formalaşdırılması və müasir texnologiyaların tətbiqi üzrə layihələr həyata keçirir. Qeyd etmək lazımdır ki, bu fəaliyyətlər ölkə rəhbərliyinin həmin ərazilərin sürətli dirçəldilməsi ilə bağlı müəyyənləşdirdiyi prioritetlərə tam uyğun gəlir.

FAO, eyni zamanda, Azərbaycanda kənd yerlərində qadınların və gənclərin iqtisadi fəallığının artırılması, aqrar sahədə rəqəmsallaşma və innovasiya təşəbbüslərinin dəstəklənməsi istiqamətində də fəal iştirak edir. Bu təşəbbüslər Azərbaycanın "Kənd təsərrüfatı: 2020" Dövlət Strategiyası və "2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədləri" çərçivəsində müəyyənləşdirilən hədəflərlə səsləşir.

Hazırda FAO-nun ölkəmizdəki fəaliyyəti regional səviyyədə də əhəmiyyət daşıyır. Azərbaycan təşkilatın dəstəyi ilə Cənubi Qafqazda aqrar sahədə qabaqcıl təcrübə mərkəzinə çevrilmək istiqamətində irəliləyir. Bu isə respublikamızın beynəlxalq arenada artan nüfuzunu və kənd təsərrüfatı sahəsində liderlik potensialını bir daha təsdiqləyir.

FAO ilə əməkdaşlıq Azərbaycanın aqrar sektorda davamlı inkişaf modelinin qurulmasında, ərzaq təhlükəsizliyinin təmin olunmasında və kənd əhalisinin sosial rifahının yüksəldilməsində mühüm rol oynayır. Bu əməkdaşlıq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir.

Bu günlərdə isə FAO "yaşıl" kənd təsərrüfatına keçid üçün əsas tövsiyələrini açıqlayıb. Təşkilatın nümayəndəsi Dmitry Zvyagintsev Bakıda keçirilən IV Aqrobiznesin İnkişafı Forumunda "yaşıl kənd təsərrüfatı"na keçid üçün ətraf mühitə zərər verən büdcə dəstəklərinin azaldılması, ətraf mühitə uyğun tədbirlər görülməsi məqsədilə bəzi büdcə dəstəklərinin yenidən istiqamətləndirilməsinin, ölkənin aqro-iqlim şəraitinin nəzərə alınmasının, eyni zamanda, ətraf mühitə dair şərtlərin tətbiqinin vacibliyini bildirib və bütün bunların reallaşacağı təqdirdə fermerlərin "yaşıl" istiqamətdə uğurla irəliləyəcəyinə əminliyini vurğulayıb.

D.Zvyagintsev çıxışında daha sonra deyib: "Tədqiqat və inkişaf sahəsinə investisiyaların qoyulması da vacibdir, çünki biz fermerlərin davamlı torpaq idarəçiliyi üzrə təcrübələri öyrənməsini, iqlimə davamlı toxum və heyvan cinslərini müəyyən etməsini istəyirik. Sonda, lakin az əhəmiyyətli olmayan məsələ isə istehlakçı yönümlü tədbirlərdir. Davamlı qidalanma seçimlərinin təşviqi vacibdir – bu seçimlər pərakəndə satış yerlərində reallaşdırılır və bu zaman fermer üçün hansı məhsulun istehsal olunmasının, hansının isə istehsal edilməməsinin müəyyənləşdirilməsi mühüm önəm daşıyır. Bundan əlavə, ərzaq itkisi və israfına qarşı tədbirlər görülməsi də əhəmiyyətli məsələdir".

FAO rəsmisinin sözlərinə görə, aqro sistemlər cəmiyyət üçün böyük faydalar yaradır, lakin mənfi təsirləri də mövcuddur. Ətraf mühit baxımından mənfi təsirlər su, torpaq, azot və iqlimlə bağlıdır. Təşkilatın hesablamalarına əsasən, hər il qida sistemlərinin yaratdığı ümumi "gizli xərclər", təxminən, 10 trilyon ABŞ dolları təşkil edir. Azərbaycanın yerləşdiyi region isə, təxminən, 3 trilyon ABŞ dolları töhfə verir və xərclərin kateqoriyalar üzrə paylanması region ölkələri arasında oxşardır. D.Zvyagintsev qeyd edir ki, bölgəmizdə ən yüksək "gizli xərclər" sağlam olmayan qidalanma vərdişləri ilə əlaqəlidir, bundan sonra isə iqlim, su, torpaq və azotla bağlı ətraf mühit xərcləri gəlir.

# Almaniya ilə "yaşıl" əməkdaşlıq

## *Ölkəmizin təmiz enerji potensialı Qərb ölkələrində geniş maraq doğurur*



**Alman – Azərbaycan Ticarət Palatasının məlumatına görə, cari ilin may ayının ikinci yarısında Bakıda Azərbaycan və Almaniya nümayəndələrinin bərpa olunan enerji mənbələrinə (BOEM) keçid çərçivəsində əməkdaşlıq məsələləri müzakirə ediləcək. Qeyd edilir ki, qarşıdakı danışıqlar Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov ilə Almaniyanın aparıcı enerji şirkətlərinin nümayəndələri arasında daha əvvəl keçirilən görüşlərin davamı olacaq.**

Palatadan bildirilib ki, dialoqun mərkəzində texnoloji əməkdaşlıq, milli strategiyaların həyata keçirilməsinə dəstək, BOEM sahəsində birgə layihələrin işə salınması, eləcə də dayanıqlı enerji texnologiyalarının yerli səviyyədə uyğunlaşdırılması yer alır.

Enerji keçidi ilə bağlı mövzular Almaniya-Azərbaycan dialoqunda əsas yer tutur. Buna görə də əməkdaşlıq perspektivlərinin müzakirəsi, uğurlu layihələrin təqdimatı, həmçinin iki ölkənin maraqlı tərəfləri arasında qabaqcıl təcrübə mübadiləsi gözlənilir.

Xatırladaq ki, Azərbaycanın planlarına uyğun olaraq, 2027-ci ilə qədər ölkədə ümumi gücü, təxminən, 2 QVt olan 8 sənaye miqyaslı günəş və külək elektrik stansiyası tikiləcək. Ümumi investisiya qoyuluşu 2,8 milyard ABŞ dolları məbləğində dəyərləndirilən layihələr xarici və yerli sərmayələr hesabına maliyyələşdiriləcək.

Bu layihələrin həyata keçirilməsi ildə 5,3 milyard kVt/saat "yaşıl" enerji istehsal etməyə, enerji sistemində BOEM-in payını 32,6 faizə çatdırmağa, ildə 1,2 milyard kubmetr qaza qənaət etməyə və istixana qazı emissiyalarını 2,5 milyon ton azaltmağa imkan verəcək. Azərbaycan 2030-cu ilədək bərpa olunan enerji mənbələrindən 7 QVt enerji istehsal etməyi planlaşdırır ki, bunun da 5 QVt-ı ixrac olunacaq.

Qeyd edək ki, son tədqiqatlar Azərbaycanda 27,5 min meqavat həcmində bərpa olunan enerji ehtiyatı olduğunu təsdiqləyib. Bunun 3 min meqavatı külək, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Xəzər dənizinin ölkə ekvatoriyasında isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpa olunan enerji sahəsində potensialı 200 qiqavat qiymətləndirilir.

Son illər ölkəmizdə "yaşıl" sərvətdən istifadəyə diqqət getdikcə artırılır. Bu da ümumi enerji istehsalında bərpaolunan enerjinin payının artmasına gətirib çıxarır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə Azərbaycanın "yaşıl" enerji mənbələri üzrə elektrik enerjisi istehsalı əvvəlki ilə nisbətən 1 milyard 728,7 milyon kilovat-saat artaraq 3 milyard 850,9 milyon kilovat-sata çatıb. Bu tendensiya cari ilin ilk rübündə də davam edib. Elə hesabat dövründə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalında 243,9 milyon kilovat-saat artımın baş verdiyi də bunu təsdiqləyir.

Ölkəmizin zəngin "yaşıl" potensialı, bu sahədə həyata keçirilən çoxsaylı layihələr dünyanın enerji keçidində uğurla fəaliyyət göstərən şirkətlərin diqqətini getdikcə daha çox cəlb edir. Digər tərəfdən, Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, infrastruktur imkanlarının genişliyi xarici investorların, tanınmış şirkətlərinin bu sahəyə marağını gedikcə artırır.

# KOBİA-nın özünüməşğulluğa dəstəyi

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) 2019-cu ildən etibarən özünüməşğulluq proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi ilə sıx əməkdaşlıq edir, proqramın müxtəlif mərhələlərində dəstək göstərir. Proqrama qoşulmaq istəyən vətəndaşlar, eləcə də proqramın iştirakçısı olmuş və növbəti mərhələdə biznesini inkişaf etdirmək istəyənlər KOBİA-nın ölkənin 50-dən çox şəhər və rayonunda fəaliyyət göstərən KOB dostlarına dəstək üçün müraciət edə bilərlər.**

KOBİA özünüməşğulluq proqramına iki istiqamətdə dəstək göstərir. Belə ki, adıçəkilən agentlik proqrama qoşulmaq istəyən vətəndaşların məlumatlandırılması, müvafiq sistemdə qeydiyyata alınması və məşğulluq filialları ilə əlaqələndirilməsinə dəstək olur, namizədlərin təsərrüfatına baxış, proqrama cəlb olunmuş şəxslərin təlimlərində və onlara aktivlərin verilməsində iştirak edir. Növbəti mərhələdə isə özünüməşğulluq proqramının iştirakçısı olmuş və müxtəlif aktivlərlə təmin edilmiş vətəndaşlar bizneslərinin inkişafına dəstək üçün KOBİA-nın məsləhət, biznesin planlaşdırılması, satış bazarlarına çıxış və s. istiqamətlərdə xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, 2019-2024-cü illərdə 800-dək vətəndaş özünüməşğulluq proqramına qoşulmaq üçün KOBİA-nın müxtəlif dəstək və xidmətlərindən yararlanıb.




# Rəqəmsal avadanlığın idxalı təşviq edilir

**Bu ilin yanvar – mart aylarında İnformasiya – Kommunikasiya Texnologiyaları Agentliyində (İKTA) 42 hüquqi və fiziki şəxsin ixrac (idxal) nəzarətində olan 11min 626 ədəd müxtəlif markalı avadanlıqlara xüsusi icazə verilməsi ilə bağlı müraciətlərə baxılıb. İKTA-nın məlumatına görə, həmin müraciətlər əsasında 8 min 85 ədəd avadanlığın idxalı ilə bağlı xüsusi icazə sənədinin verilməsi təmin olunub.**

Qeyd olunan dövrdə hüquqi və fiziki şəxslər tərəfindən 454 ədəd avadanlığın mülki dövriyyəsinə xüsusi icazələrin alınması, o cümlədən onlara verilmiş icazələrin ləğvi üçün 58 müraciət edilib. 353 ədəd avadanlıq üçün edilən 43 müraciətə müsbət cavab verilib. 12 müraciət üzrə 84 ədəd avadanlığın mülki dövriyyəsinə tələb olunan sənədlər düzgün təqdim edilmədiyi üçün düzəliş olunaraq yenidən müraciət olunması barədə metodiki yardım göstərilib.

Xatırladaq ki, İKTA 2024-cü ilin mart ayında "Radioelektron vasitələrə verilən icazələr" elektron xidməti istifadəyə verib. Elektron xidmətin tətbiqi müraciətlərin daha sürətli və səmərəli cavablandırılmasını mümkün edib.




Bununla bərabər, 2025-ci ilin yanvar-mart ayları ərzində "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.6.4-cü maddəsinə uyğun olaraq sürətli poçt xidmətinin göstərilməsi üçün 75 müraciət üzrə lisenziyanın alınması məqsədilə təqdim edilən ərizəyə əlavə olunan sənədlərdə göstərilən məlumatların uyğunluğunun qiymətləndirilməsi gerçəkləşdirilib. Nəticədə 72 ünvanda sürətli poçt xidmətinin göstərilməsi üçün müraciətlərə müsbət cavab verilib.

Qeyd edək ki, telekommunikasiya və poçt rabitəsi sahəsində tənzimləyici olan İKTA bu sahələrin inkişafı üçün qanunvericilik və nizamnamə çərçivəsində fəaliyyətini davam etdirəcək.

# Bakı Limanında yükaşırımı yüksəlib

**"Azərbaycan Dəmir Yolları" QSC-nin XQ-yə verilən məlumatında bu ilin I rübündə Bakı Limanı vasitəsilə 1,9 milyon tondan artıq (2024-cü ilin eyni dövrünün göstəricisi ilə müqayisədə 9 faiz çox) yük aşırıldığı bildirilib. Eyni zamanda, hesabat dövründə 30034 TEU (2024-cü ilin müvafiq dövrünün göstəricisinə nisbətən 16754 TEU və ya 126 faiz çox) konteyner aşırıldığı vurğulanıb.**

Məlumatda o da qeyd edilib ki, I rübdə Bakı Limanı vasitəsilə 13711 ədəd təkərli texnika, 7765 ədəd vaqon, 366 min ton quru yük, 377 min ton neft və neft məhsulları aşırılıb.



# İri sahibkarlığa kredit – 8,4 milyard manat

**Bu ilin mart ayının sonuna ölkəmizdə iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8 milyard 361 milyon manat təşkil edib. Bu isə ilin əvvəli ilə müqayisədə 64 milyon manat və ya 0,8 faiz çoxdur. Belə ki, cari ilin yanvar ayının əvvəlinə Azərbaycanda iri sahibkarlıq subyektlərinə verilən kreditlərin həcmi 8 milyard 297 milyon manat olub.**

Xatırladaq ki, cari ilin 1 aprel tarixinə olan məlumata görə, Azərbaycanda 867 ədəd iri sahibkarlıq subyekti fəaliyyət göstərib. Ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 0,4 faizini iri sahibkarlıq subyektləri təşkil edib. Onların əsas hissəsi "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (22,5 faiz), "Emal sənayesi" (13,6 faiz), "Tikinti" (13,0 faiz) və "Nəqliyyat və anbar təsərrüfatı" (6,9 faiz) sahələrində yaradılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Sənaye istehsalı yeni sahələrlə genişlənir

## *Dərman buraxılışı müəssisələrinin də sayı artır*

**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısının 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə ölkəmizdə 30 hektar ərazidə əczaçılıq məhsullarının istehsalı sahəsində ixtisaslaşmış Pirallahı Sənaye Parkı yaradıldığını xatırladan E.Əliyev bildirib: "Sənaye parkı sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturla təchiz edilib, rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi, habelə emal müəssisələrinin yaradılması üçün bütün imkanlara malikdir. Sənaye parkının ərazisi artıq tam şəkildə rezidentlərlə dolub. Sahibkarların bura marağı böyükdür. Buna görə də sənaye parkının ərazisinin genişləndirilməsi məsələsinə baxıla bilər".

Qeyd olunub ki, Pirallahı Sənaye Parkında layihələrinin investisiya həcmi 120 milyondan manatdan çox olan 7 sahibkarlıq subyektinə rezidentlik verilib. E.Əliyevin sözlərinə görə, burada sahibkarlar tərəfindən görülmüş işlərə, ümumilikdə, 45 milyon manatdan çox investisiya yatırılıb, 160-a yaxın daimi iş yeri yaradılıb, ötən müddətdə parkda 64,5 milyon manatlıq məhsul istehsal edilib.



Nazir müavini Pirallahı Sənaye Parkında qeydiyyatdan keçmiş rezidentlərin tam gücü ilə fəaliyyətə başlamasının əczaçılıq sənayesinin inkişafını, dərman vasitələri və tibbi ləvazimatlara tələbatın yerli istehsal hesabına ödənilməsini stimullaşdıracağını diqqətə çatdıraraq deyib: "Sevindirici haldır ki, artıq parkdakı bir sıra müəssisələr fəaliyyətə başlayıb. Sənaye Parkının rezidenti olan "Diamed Co" MMC müasir texnologiyalar əsasında birdəfəlik şprislər istehsal edir. Digər bir rezident "R-Pharm" MMC müxtəlif dərman vasitələrinin qablaşdırılmasını həyata keçirir. Hazırda sənaye parkında Türkiyənin "Gen İlaç ve Sağlık Ürünleri A.Ş." şirkəti ilə birgə beynəlxalq keyfiyyət standartlarına və Azərbaycanın milli əczaçılıq təhlükəsizliyi prioritetlərinə uyğun yeni dərman zavodu tikilir. Zavodda müxtəlif doza və qablaşdırmada dərman məhsulları istehsal olunacaq".



Nazir müavini qeyd edib ki, "Scandens Pharmaceutical İndustries LTD" MMC tərəfindən Abşeron rayonunun Hökməli qəsəbəsi ərazisində daha bir əczaçılıq zavodu inşa olunub və fəaliyyətə başlaması planlaşdırılır. Bununla yanaşı, Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçmiş İsrailin "BioPharmax" şirkəti tərəfindən istehsal binalarının tikintisi istiqamətində işlər davam etdirildiyini diqqətə çatdıran E.Əliyevin sözlərinə görə, burada 50 adda tibbi məhsul, ilk növbədə, insulin istehsalı nəzərdə tutulur.

Elnur Əliyev vurğulayıb ki, artıq uzun müddətdir ki, Azərbaycanın əczaçılıq sektorunda fəaliyyət göstərən Türkiyənin "Nobel İlaç Sanayi ve Ticaret Anonim Şirkəti" tərəfindən ölkəmizdə dərman zavodunun qurulması istiqamətində müzakirələr aparılır. "Hesab edirik ki, sözügedən şirkətin əczaçılıq sektoruna investisiyaları bu sahədə inkişafa öz töhfəsini verəcək. Görülən işlərin nəticəsində Azərbaycanın əczaçılıq sektorunda son illər irəliləyişlər müşahidə edilməkdədir. Belə ki, 2024-cü ildə 20 milyon manatlıq əczaçılıq məhsulu istehsal edilmiş, əvvəlki ilə nisbətən 81,5 faiz artım qeydə alınıb. 2024-cü ildə 9 milyon manatlıq dərman istehsal edilib, əvvəlki ilə nisbətən 4 faiz artım baş verib.

# Türkiyənin aqrar sığorta təcrübəsi öyrənilir



**Azərbaycanın müxtəlif dövlət qurumlarının təmsilçilərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olub. Səfər çərçivəsində kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev, Aqrar Sığorta Fondu İdarə Heyətinin sədri Fuad Sadıqov, Azərbaycan Mərkəzi Bankının sığorta siyasəti üzrə baş direktoru Vüsal Qurbanov, Maliyyə Nazirliyinin nümayəndəsi Gündüz Əliyev, Azərbaycan Mərkəzi Bankının nümayəndəsi Anar İslamov, ASF-nin hüquq şöbəsinin müdiri Əminə Qasımovadan ibarət nümayəndə heyəti Türkiyənin Sığorta və Fərdi Pensiya Tənzimləmə və Nəzarəti Agentliyi və Kənd Təsərrüfatı Sığortaları Sistemi – TARSİM təşkilatında görüşlər keçirib.**

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, Azərbaycan nümayəndələri Sığorta və Fərdi Pensiya Tənzimləmə və Nəzarəti Agentliyinin (SEDDK) sədr müavini və TARSİM İdarə Heyətinin sədr müavini Hande Hatunoğlu Kurtulan, TARSİM-in İdarə Heyətinin üzvü, Tarım Sığortaları Hovuzunun baş direktoru Bekir Engürülü, SEDDK-nın Vasitəçilər və ixtisaslaşdırılmış qurumlarla iş üzrə departament rəhbəri və TARSİM-in İdarə Heyətinin üzvü Işıl Konya ilə görüşüblər.

Müzakirələrdə hər iki ölkədə tətbiq edilən dövlət dəstəkli aqrar sığorta sistemləri ilə bağlı ümumi dəyərləndirmələr aparılıb, qarşılıqlı təcrübələr müzakirə olunub. Tərəflər Türkiyə və Azərbaycanın aqrar sığorta mexanizmi, onların fərqli cəhətləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi Türkiyənin TARSİM sistemi modeli əsasında yaradılıb. Aqrar sığorta mexanizminin əsas xüsusiyyəti sığorta haqqına 50 faizlik dövlət dəstəyinin verilməsidir. Sığorta haqlarının yarısının dövlət tərəfindən qarşılanması sayəsində fermerlər cüzi ödənişlə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilirlər. Aqrar sığorta vasitəsilə bitkiçilik, heyvandarlıq və akvakultura (balıqçılıq) təsərrüfatları sığortalanır.

Aqrar Sığorta Fondu tərəfindən zərər çəkmiş sığortalı fermer və təsərrüfatlara sığorta ödənişləri hər il artmaqdadır. Fond fəaliyyətə başladığı vaxtdan indiyədək belə təsərrüfatlara, ümumilikdə, 15 milyon manata yaxın sığorta ödənişi həyata keçirib.

# İslam və Asiya İnkişaf banklarının birgə layihəsi

## *5 ildə üzv ölkələrdə layihələrə 2 milyard dollar vəsait ayrılacaq*

**İslam İnkişaf Bankı və Asiya İnkişaf Bankı 2030-cu ilədək ümumi dəyəri 2 milyard ABŞ dolları olan layihələrin birgə maliyyələşdirilməsini nəzərdə tutan Anlaşma Memorandumu imzalayıblar. Sənədə əsasən, tərəflərin hər biri bu çərçivədə 1 milyard ABŞ dolları ayırmağı öhdəsinə götürüb. Bu barədə İsalm İnkişaf Bankı məlumat yayıb.**

Bildirilib ki, bu təşəbbüs hər iki maliyyə qurumunun ortaq üzv ölkələrində layihələrin effektivliyini, təsirini və dayanıqlılığını artırmağa yönəlib. Eyni zamanda, irgə maliyyələşdirmə modeli resursların, biliklərin və yanaşmaların birləşdirilməsini nəzərdə tutur.

Xatırladaq ki, razılaşma İtaliyanın Milan şəhərində Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 58-ci illik toplantısı çərçivəsində imzalanıb. Sənədə İslam İnkişaf Bankının tərəfdaşlıq, qlobal təmsilçilik və resursların səfərbərliyi üzrə direktoru İbrahim Əli Şukri və Asiya İnkişaf Bankının strategiya, siyasət və tərəfdaşlıq üzrə baş direktoru Sinninq Tszya imza atıblar.

Memorandumu Asiya İnkişaf Bankı ilə əməkdaşlıqda yeni mərhələnin başlanğıcı kimi dəyərləndirən İbrahim Əli Şukri bildirib: "Resurslarımızı və ekspertizamızı birləşdirərək üzv ölkələr üçün faydalı və dayanıqlı iqtisadi artıma töhfə verəcək layihələr həyata keçirəcəyik. Bu əməkdaşlıq qlobal çağırışlara qarşı davamlılığı təşviq edir".

Sinninq Tszya isə qeyd edib ki, sənədi iki maliyyə qurumu arasında əməkdaşlığın genişlənməsində əlamətdar addım hesab edib. O deyib: "Güclərimizi birləşdirərək innovativ maliyyə həllərini tətbiq etməyə və bütün Asiya üzrə iqtisadi artımı stimullaşdırmağa çalışırıq. Məqsədimiz milyonlarla insanın həyatında uzunmüddətli və müsbət dəyişikliklərə nail olmaqdır".

Sazişin əsas prioritetləri sırasında dayanıqlı infrastrukturun inkişafı, rəqəmsal bərabərsizliyin azaldılması, gənclər və qadınlar üçün imkanların artırılması, regional inteqrasiya və transsərhəd ticarətin gücləndirilməsi, eləcə də qlobal tərəfdaşlıqların möhkəmləndirilməsi və əlavə maliyyə resurslarının cəlbi yer alır.

İslam İnkişaf Bankı və Asiya İnkişaf Bankının ortaq üzv ölkələrinə Azərbaycanla yanaşı, Əfqanıstan, Banqladeş, Bruney Darüssalam, İndoneziya, Qazaxıstan, Qırğızıstan, Malayziya, Maldiv adaları, Pakistan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistan daxildir.



# Dövlət büdcəsinin gəlirləri yüksəlir

**2025-ci ilin yanvar-aprel ayları üzrə dövlət büdcəsinin gəlirləri 13 milyard 965 milyon manat təşkil edib. Bu isə 4 aylıq proqnozdan 219,7 milyon manat və ya 1,6 faiz çoxdur. Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb.**




Bildirilib ki, hesabat dövründə dövlət büdcəsinin xərcləri 11 milyard 192 milyon manat proqnoza qarşı 10 milyard 962 milyon manat, yəni 97,9 faiz icra olunub. İlin ilk 4 ayında gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 6 milyard 923 milyon manat təşkil edərək proqnozdan 398,2 milyon manat və ya 6,1 faiz, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 2 milyard 65 milyon manat təşkil edərək proqnozdan 37,9 milyon manat və ya 1,9 faiz, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 14,8 milyon manat təşkil edərək proqnozdan 3,2 milyon manat və ya 27,2 faiz və sair daxilolmalar 182,3 milyon manat təşkil edərək proqnozdan 100,4 milyon manat və ya 122,4 faiz çox icra edilib.

Hesabat dövründə dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar isə 200,3 milyon manat təşkil edərək proqnoza qarşı 71,9 milyon manat və ya 26,4 faiz, Dövlət Neft Fondundan transfert isə 4 milyard 579 milyon manat təşkil edərək proqnoza qarşı 247,9 milyon manat və ya 5,1 faiz az icra edilib.

# Ölkəmiz Səudiyyə Ərəbistanı ilə rəqəmsallaşma sahəsində əməkdaşlıq edəcək



**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşəbbüsü və Almaniyanın "Hertie School" Unversitetinin tərəfdaşlığı ilə keçirilən "Rəqəmsal akademiya"nın növbəti səfəri Səudiyyə Ərəbistanına olub. "Rəqəmsal transformasiya və dövlət sektorunda səmərəlilik" mövzusuna həsr olunmuş sessiyada Azərbaycanın dövlət qurumlarının nümayəndələri və Səudiyyə Ərəbistanının rəqəmsallaşma üzrə aparıcı ekspertləri iştirak ediblər.**

Səfərin məqsədi Səudiyyə Ərəbistanının rəqəmsal transformasiya strategiyası, rəqabətqabiliyyətli rəqəmsal ekosistemin inkişafı istiqamətində reallaşdırdığı fəaliyyətlə bağlı təcrübənin öyrənilməsi olub. Görüşlər zamanı Azərbaycanın rəqəmsal inkişaf yanaşması və rəqəmsal həlləri haqqında ətraflı məlumat verilib, ölkə təcrübəsinin Səudiyyə Ərəbistanında tətbiqini nəzərdə tutan əməkdaşlığın perspektivləri üzrə danışıqlar aparılıb.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin məlumatına görə, ikigünlük proqram çərçivəsində Səudiyyə Ərəbistanının Rəqəmsal Hökumət İdarəsinin nəzdində yeni yaradılmış "Innovation Hub" ilə tanışlıq turu keçirilib. Bu ölkənin Data və Süni İntellekt üzrə İdarəsində isə tədqiqat və innovasiya təşəbbüsləri, eləcə də tənzimləyici çərçivələr, siyasət və qərarvermə mexanizmləri müzakirə olunub.

Eyni zamanda, Rabitə, Kosmos və Texnologiyalar Komissiyası (CST) və "KAPSARC"da görüşlər keçirilib. Bu görüşdə qurumun prezidenti Fahad Alajlan və Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev də iştirak ediblər. "KAPSARC"da, həmçinin sahənin ekspertləri və rəhbər şəxslərlə fikir mübadiləsi aparılıb. Müzakirələrdə enerji sektorunda rəqəmsal transformasiya, dövlət şirkətlərində rəqəmsallaşma siyasəti və süni intellektin tətbiqi kimi mövzular ətrafında diskussiyalara geniş yer ayrılıb.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədr müavini Şahin Əliyev səfər çərçivəsində hər iki ölkə arasında rəqəmsal təcrübə mübadiləsi məqsədilə nəticəyönümlü müzakirələr aparıldığını bildirib. Onun sözlərinə görə, Səudiyyə Ərəbistanı tərəfindən Azərbaycanın bir sıra rəqəmsal həllərinə, xüsusilə də rəqəmsal sənəd dövriyyəsinə xüsusi maraq göstərildiyini vurğulayan sədr müavini iki ölkə arasında gələcəkdə bu istiqamərdə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

Xatırladaq ki, "Rəqəmsal akademiya"nın strateji sessiyasında və səfərlərdə nazir müavinləri, dövlət qurumları rəhbərlərinin müavinləri və müşavirlər də daxil olmaqla indiyədək 43 dövlət qurumundan 70 nəfər rəhbər kadr iştirak edib. Bu təşəbbüsün davamı olaraq, proqram çərçivəsində bir sıra səfərlər həyata keçirilib. Bu il yanvarın 27-28-də rəhbər şəxslərin iştirakı ilə Almaniya Federativ Respublikasının Berlin şəhərinə, aprelin 10-11-də isə Sinqapura müvafiq səfərlər həyata keçirilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Şamaxı əsilzadələri

# Mahmudbəyovlar

**Milli dövlətçilik tariximizin mühüm qatlarından birini təşkil edən Şirvanşahlar dövlətində tarixən qüdrətli simalar yetişib. Onların sırasında Əfzələddin Xaqaninin, Zülfüqar Şirvaninin, Fələki Şirvaninin, Bədr Şirvaninin, Bahar Şirvaninin, Məhəmməd Əbu Bəkir Şirvaninin, Hacı Nəcəf Şirvaninin, Abdulla Şirvaninin, Zakir ibn Mustafa Şirvaninin, Rzaddin Şirvaninin, Seyid İmadəddin Nəsiminin, Seyid Əzim Şirvaninin xüsusi yeri, məqamı olub. Bu ustad sənətkarların, qələm sahiblərinin sırasında həm də Şirvan şahlarının əzəmətini dünyaya nümayiş etdirən imkan sahibləri, mesenatlar olub. Bütün sərvətini milli-mənəvi dəyərlərin qorunmasına, himayəsinə həsr edən o tarixi şəxsiyyətlər quruluşun, zamanın ahənginə-renginə baxmayaraq, dəyərlərin əyarına çevriliblər. Onların sırasında bir tarixi şəxsiyyət, əvəzsiz sima var ki, adı milli dövlətçilik və milli-mənəvi dəyərlər tariximizə qızıl hərflərlə yazılıb. O, Mahmud ağa Hacı Əhməd Sultan ağa oğlu Məmmədzadədir.**

Şəcərə əlaqələri ilə Şirvan şahlarına, Osmanlı sultanlarına, Səfəvi hökmdarlarına və Əfşarlara gedib çıxan Mahmud ağa ata tərəfdən Nadir şah Əfşarın xəzinədarı olmuş Hacı Sadıq ağanın, ana tərəfdən Qubalı Fətəli xanın soyuna bağlıdır.

Nadir şah Əfşarın dövründən Şamaxıda və Dəmirçilər kəndində binə salan Hacı Sadıq ağadan oğlu Hacı Cavad ağaya və nəvəsi Əhməd Sultan ağaya mülklər, malikanələr miras qalmışdı.







Hacı Cavad ağa dövrünün yüksək təhsilini görmüş, siyasət elmini mənimsəmiş, ərəb, fars dillərini mükəmməl bilmişdir. Onun bir mülkədar kimi mülkləri və malikanələri olmaqla yanaşı, həm də, çoxsaylı karvansaraları da var idi. Oğlu Əhməd Sultan ağaya miras qalan həmin karvansaraların dördü Şamaxının son zəlzələsinə qədər qalırmış. Karvanları Yaxın və Orta Şərqə, Xəzər hövzəsinə, Türküstana qədər işləyən Əhməd Sultan ağa iri toxuculuq fabrikinə, mülk və malikanələrə, əkin-biçin sahələrinə malik olmaqla yanaşı, onun Şamaxı kəndlərinin bir çoxunda – Mərzəndə, Çarhan, Şıxzərli və Dəmirçilərdə mülkləri də mövcud idi. Şamaxı xanı Mustafa xanla həm də qohumluq bağlarına malik olan Əhməd Sultan ağa Hacı Zeynal, Hüseyn ağa, Mirzə Tapdıq, Məşədi Süleyman, Kərbəlayi Nağı, Hacı Xəlil ağa kimi Şirvanın tanınmış siyasi və mənəvi mənzərəsini yaradanlardan biri olmuşdur. Babası Hacı Cavad ağadan ona miras qalan sərvətin üstünə təkcə sərvət gətirməklə kifayətlənməmiş, karvansara, mülk və malikanələrindən gələn gəliri sənətin, milli mədəniyyətin inkişafına sərf etmişdi.

Şamaxının məşhur məhlələri (məhəllələri) olub: Sarıtorpaq, İmamlı, Kövsərli, Pirani Şirvan, Yuxarı Qalabazar, Nar Ağacı, Meydan. Bu tarixi məhlələrin hər birində Şirvan əsilzadələri, bəyləri, zadəganları yaşayıblar. Mahmudbəyovların adı ilə bağlı iki məhlənin –İmamlının və Qalabazarın həm də özünəməxsus mədrəsələri və məscidləri olub. Bu məscidlərin birinə– İmamlı məscidinə erməni daşnakları Şamaxı soyqırımı zamanı od vurub yandırıblar.

Hacı Kərim ağa, Hacı Dadaş ağa, Zeynalov qardaşları, Azad bəy, Cavad bəy, Rüstəm bəy, Cəmo bəy, Salamovlar kimi tarixi şəxsiyyətlərlə qonşu olan Mahmudbəyovlar tarixin bütün dönəmlərində əl-ələ verib Şamaxının xilaskarına çevriliblər. 1859-cu və 1902-ci illərdə baş vermiş dağıdıcı Şamaxı zəlzələləri və 1918-ci il soyqırımı zamanı da, Cümhuriyyətin qurulduğu günlərdə də, onlar Vətən üçün bütün imkanlarını səfərbər ediblər.

Əhməd Sultan ağa dövrünün sayılıb-seçilən, varlığı ilə millətə, məmləkətə şərəf gətirən tarixi şəxsiyyətlərindən idi. O, milli dövlətçilik tariximizdə mövcud olan ənənələri təkcə amalına çevirməmiş, həm də, onların qorunub saxlanmasına kömək göstərən əməli ilə sübut etmişdi. Tanrı bu xeyirxah, vətənpərvər insana ləyaqətli övladlar bəxş etmişdi. Elə övladlar ki, onların hər biri ruhu, duyğuları, sevgiləri ilə Vətən – Azərbaycan olacaqdı. Tarixdə Azərbaycan muğamlarının himayədarı, xilaskarı olaraq qalan, xeyirxahlıq, yaxşlıq missiyası ilə şöhrət qazanan Hacı Mahmud ağa Hacı Əhməd Sultan ağa oğlu genetik kodlarının diktəsi ilə tarix yaratdı. Təkcə mülklərə, malikanələrə, karvanlara sahib olmadı, mədrəsələr, məktəblər açdı, kitabxanalar, qiraətxana yaratdı. Adı ilə bağlı Mahmud ağanın Muğam Məktəbini – Mərkəzini yaratdı. Pəsdən ifası, şirin tar çalması ilə dövrünün ustad sənətkarlarını belə heyrətə saldı.

Azərbaycan muğamlarının mahir bilicisi, professor Firudin bəy Şuşinski Hacı Mahmud ağanın irsi və şəxsiyyəti ilə bağlı qeyd edirdi: "Mahmud ağa musiqi tarixində görkəmli bir musiqişünas kimi yer tutur. O, pəsdən oxuyur, tar çalırdı. Mahmud ağa bir gününü musiqisiz keçirməz, "Şüştər"lə yatıb, "Osmanlı" ilə oyanardı." Bu bir tarixi şəxsiyyətin, muğam bilicisinin, mütəfəkkir alimin digər bir qüdrət sahibinə verdiyi dəyər idi.

*

Mahmud ağa 1826-cı ildə dünyaya gəlmişdi. Əhməd Sultan ağa oğluna mükəmməl təhsil vermişdi. Öncə onu, özünün himayə etdiyi, İmamlı məscidində açdığı mədrəsədə, sonra Şamaxının Qəza məktəbində oxutdurmuşdu. Ona həm də ciddi musiqi təhsili vermişdi. Mustafa xanın sarayından tanıdığı, dostluq etdiyi xanəndə Əbülhəsən və nüfuzlu musiqişünas, şair, xanəndə Hacı Nəcəf bəy Mahmud ağanın bir musiqişünas, ifaçı kimi yetişməsində əmək sərf etmişdirlər.

Əhməd Sultan ağa XIX əsrdə Şamaxıda atasının istəyi ilə Mustafa xanın nəslindən olan Sultan bəyin qızı Gövhər xanımla ailə qurmuşdu. Övladlarını da bu ruhda tərbiyə edib yetişdirmişdi. Eynən özü kimi şair və musiqiçi olan oğlunun marağını, istəyini nəzərə alıb, onun adına Şamaxının İmamlı məhləsinin Pirani–Şirvan məhəlləsi səmtindəki bağlarında xüsusi bir malikanə – mülk tikdirmişdir.

Bu məşhur üçmərtəbəli malikanənin ikinci mərtəbəsindəki böyük salonu Əhməd Sultan ağa məhz muğam ifaçıları üçün nəzərdə tutmuşdur. Tarixdə "Qızıl salon" adı ilə qalan bu sənət məbədində Mahmud ağanın Muğam Məktəbi - Mərkəzi yaradılmışdır. Bu mərkəzdə saysız-hesabsız muğam müsabiqələri keçirilmişdir. O müsabiqələrin dünya şöhrətli ifaçıları olmaqla yanaşı, məşhur ziyarətçiləri də olmuşdur. Azərbaycanın hər yerindən gələn ifaçılar burada sənət imtahanına çəkilmişdir. Mahmud ağanın 40 il rəhbərlik etdiyi Muğam Mərkəzindən Cabbar Qaryağdıoğlunun, Sadıqcanın, Bülbülcanın, Şahnaz Abbasın, Məşədi Əkbərin, Mirzə Məhəmməd Həsənin, Aşıq Bilalın, Topal Nəcəfqulunun, Davud Səfiyarovun, Mirzə Güllərin, Güllər Pərisinin oxumaları eşidilib. Mirzə Məhəmməd Həsənin "Şur"u, "Çahargah"ı, Zülfüqarın "Gərayı"sı, Çopur Nəcəfqulunun "Hümayun"u, Cabbarın "Orta Mahur"u, Hacı Hüsünün "Kürdü Şahnaz"ı, Aşıq Bilalın "Peşro"ları, ustad ifaları "Qızıl salon"un zinətinə çevrilmişdir. Bahar Şirvaninin, Raqibin, Bixudun, Qafilin, Salikin, Səfanın, Sağərinin, Binəva Şirvaninin, Zühurinin, Seyid Əzim Şirvaninin ruhun qida yeri olan qəzəlləri məhz Mahmud ağanın sarayında dinləyicilərə, ifaçılara təqdim olunmuşdur. Sənətin, mədəniyyətin xiridarlarının könlünə yol tapmışdır. Firudin bəy Şuşinskinin dili ilə desək: Aşıq Bilalın "Şüştər"lə yatıb, "Osmanlı" ilə oyanan Mahmud ağaya həsr etdiyi "Mahmud ağa gəraylı"sı ilk dəfə məhz bu salonda səslənmişdir.

Mahmud ağanın Muğam– Mərkəzini Şirvan şahlarının və Şamaxı xanının saraylarının mikro modeli hesab edən tədqiqatçılar yazırlar ki, bura həm də, nüfuzlu musiqiçilərin, rəqqas və rəqqasələrin, rəssamların, səyyahların cəm olduğu bir məbəd idi. Mahmud ağanın qüdrətli bir mesenat, sənətin, mədəniyyətin himayədarı kimi yetişməsində, qeyd etdiyimiz kimi, atası Əhməd Sultan ağanın xüsusi rolu olmuşdur. Özü də gözəl şair olan Əhməd Sultan ağa atasından miras qalan karvansara və mülklərində dövrünün məşhur kitabxana və qiraətxanalarını yaratmış, Nəcəfdə, Kufədə, Səmərqənddə təhsil almaq niyyətində olan gənclərə kömək etmişdir.

Şamaxının nüfuzlu bəylərindən biri Əkbər ağanın təşəbbüsü ilə Seyid Əzim Şirvani "Beytüs-Səfa" ədəbi məclisini qurur. Məclisin himayədarlıq missiyasını öz üzərinə götürən Əhməd Sultan ağa Seyidin rəhbərlik etdiyi Şamaxı Qəza məktəbinin himayədarı olmasına baxmayaraq, bu məsələdə də ona yardım əlini uzadır. "Beytüs-Səfa"ya karvansaralarının birində ona yer ayırır.

Seyid Əzim Şirvaninin rəhbərlik etdiyi "Beytüs-Səfa" ədəbi məclisi Əhməd Sultan ağanın mülkündə, onun və oğlu Mahmud ağanın himayəsində sənət gülzarına çevrildi. Belə bir ədəbi məclis Şuşada, Mirzə Kərim Fənanın rəhbərliyi ilə qurulmuşdu. Şuşada təməli qoyulan "Xanəndələr Məclisi"nə isə Mirmövsüm Nəvvab rəhbərlik edirdi. Hər iki məclisin himayəyə ehtiyacı var idi. Seyid Əzim Şirvaninin "Beytüs-Səfa"sının, Mahmud ağanın Muğam Məktəbinin səsi, sorağı Qarabağa, Qarabağ xanlığının son vərəsəsi Xurşudbanu Natəvana çatır. Uzunmüddətli məktublaşmadan sonra Seyid Əzimi öz doğma yurdunda ziyarətə gələn Xurşudbanu Natəvan Əhməd Sultan ağanın ruhunun aynası, Mahmud ağanın sənət, mədəniyyət dünyası olan "Qızıl salon"da olur. 1874-cü ildə Xan qızını sonsuz ehtiram və ehtişamla qarşılayan Mahmud ağa onun şərəfinə ziyafətlər verir. Qurban kəsib, nəzir paylayır. Şamaxının əsilzadələrini, zadəganlarını, sənət pərvanələrini onun görüşünə yığır.

*

Mahmud ağa adını milli-mənəvi dəyərlər tariximizə yazan qüdrətli simalardan idi. 40 il rəhbərlik etdiyi Muğam Məktəbində - Mərkəzində keçirilən muğam müsabiqələrində qaliblərə bağışlanan hədiyyələrin siyahısını təqdim etmək kifayət edir ki, onun geniş qəlbinin, səxavətinin, sonsuz sənət, mədəniyyət sevgisinin, hüdudsuz məhəbbətinin şahidi olarsan. Qızıl saatlar, üzüklər, təsbehlər, bazübəndlər, kəmərlər, sinəbəndlər, qızılı işləməli araqçınlar, arxalıqlar, çuxalar, çərkəzi papaqlar, zəncirli cib saatları, tütün qabları, tütün kisələri barədə düşündükcə özü də ustad sənətkar, musiqişünas olan Hacı Mahmud ağanın sənət, mədəniyyət sevgisinə heyrət edirsən. Bu məşhur müsabiqələrin yekun konsertlərinin birində Mahmud ağa Cabbar Qaryağdıoğluna qızılla işlənmiş qaval, Sadıqcana xüsusi tar hədiyyə edir.

Mahmud ağanın Azərbaycan muğamlarının, xalq mahnılarının, aşıq sənətinin qorunması qarşısındakı xidmətləri bununla bitmir. O həm də bir xeyirxah insan kimi imkansız ailələrin övladlarını sarayında himayə edir. Qəyyumluq missiyasını öz üzərinə alır, ayrı-ayrı ifaçıları onlara ustad təyin edir. Onlardan biri də Davud Səfiyarovdu. Davud atasız, arxasız, istedadlı bir aşaq olur. Bakıda iş tapmayan anası onun əlindən tutub Mahmud ağanın yanına gəlir. Orda xidmətçi kimi işə başlayır. Davud ağanın sürülərini otaran çobanların yanında özünə və anasına çörək qazanır. Zənguləsinin sorağı Mahmud ağaya çatır. Onu Şamaxının məşhur sənətkarı, ən yaxın dostu Mirzə Məhəmməd Həsənə həvalə edir. Mirzə Məhəmməd Həsənin sayəsində Davud Səfiyarov sonralar Azərbaycanın məşhur xanəndələrindən birinə çevrilir.

Üstündən 100 il ötəndən sonra Mahmud ağanın nəvəsi – rus-tatar məktəbinin qurucusu Həbib bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov mədrəsədən imkansızlığa görə ayrılan, şəhərdə ayrı-ayrı evlərdə qulluqçuluq edən kasıb bir qadının oğlunu – Hüseyni məktəbinə gətirəcək, onu əyin-başla, dərsliklə təmin edəcək, ilk teatr truppasını quranda isə ona kiçik bir rol verəcəkdi. Korifey sənətkarımız Nəsibə xanım Zeynalovanın atası Cahangir Zeynalovun rəhbərliyi ilə qurulan o tamaşadan sonra həmin gənc Hüseyn Ərəblinski kimi şöhrət qazanacaqdı.

Mahmud ağa təkcə sənətin, mədəniyyətin himayədarı deyildi. O, həm də, atası Əhməd Sultan ağa ilə birlikdə Şamaxıda mədrəsələr açır, məscidlər tikir, qəza məktəblərinin fəaliyyətinə töhfələr verir, kəhrizlər, ovdanlar qazdırırdı. Saxsı borularla məhəllələrə su çəkdirir, bağ saldırır, yollar, körpülər inşa edir. Bu, azmış kimi, Şamaxı qəza məktəbini bitirən 100-dən çox şagirdin Rusiyanın ayrı-ayrı şəhərlərində təhsil alması üçün sərmayə ayırır. 1918-ci il soyqırımı zamanı erməni daşnaklarına qarşı son ana kimi savaşan, malikanəsini tərk etməyən, evi və məşhur kitabxanası ilə birlikdə yanıb-kül olan Məmmədtağı Əlizadə, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir Mahmud ağanın himayədarlıq missiyasını öz üzərində görmüş tarixi şəxsiyyətlərdən idi. Mahmud ağanın Şamaxıda gerçəkləşdirdiyi maarifçilik layihələrini Naxçıvanda Mirzə Nəsrulla bəy Əmirov, Borçalıda Emin ağa Acalov, Bakıda Hacı Zeynalabdin Tağıyev öz üzərinə alıb azərbaycanlı gəncləri Rusiyanın və Avropanın ali təhsil məktəblərinə göndərmişdilər. Bu ənənə Cümhuriyyət zamanı da davam etdirilmişdir.

Mahmud ağanın məşhur kitabxanasında təkcə Şamaxının, Şirvanın deyil, Azərbaycanın, Yaxın və Orta Şərqin məşhur şairlərinin, mütəfəkkir alimlərinin əlyazmaları, kitabları toplanmışdı. Şamaxıda baş verən iki zəlzələnin və erməni - daşnak soyqırımının qurbanı olan o qiymətli əsərlər, risalələr, əlyazmaların sırasında, Mahmud ağaya hədiyyə edilmiş qiymətli incilər də var idi. Böyük hissəsi məhv olsa da, günümüzə qədər gəlib çıxan, Aleksandr Dümanın Qafqaza – Şamaxıya səfəri zamanı Mahmud ağaya hədiyyə etdiyi saat, eləcə də onun nəslinə aid xalı və 4 gümüş qaşıq o illərin canlı xatirəsidir.

Mahmud ağanın bir tarixi şəxsiyyət, sənət-mədəniyyət xiridarı, musiqişünas, muğam bilicisi kimi dəyərinin əyarına dönən məşhur simalar, səyyah, memar, rəssam və ədiblər onu zamanının siması, mədəniyyətin himayədarı, millət qurucusu, maarif xadimi kimi xarakterizə edir. Xeyirxahlıq, yaxşılıq nümunəsi kimi əsərlərinin baş qəhrəmanına çevirirdilər ki, onların sırasında Rus etnoqraf İqor Yevlaxov, Sankt-Peterburq Rəssamlıq Akademiyasının vitse-prezidenti knyaz Qriqori Qaqarin, Engelberq, Kempfer, Marko Polo, Klavixo, Katerino Zeno, Silberger, Adam Oleari, Övliya Çələbi, Aleksandr Düma kimi tarixi şəxsiyyətlər, səyyahlar, elm və mədəniyyət xadimləri vardı.

Mahmud ağanın əzəmətli şəxsiyyəti, mülkü və malikanəsi ilə bağlı xatirələrini "Səyahətnamə"sində təsvir edən Aleksandr Düma qeyd edir: "Mahmud bəyin evi Dərbənddən Tiflisə qədər gördüyüm evlərin ən gözəli idi. O, Şərq memarlıq üslubunda tikilmiş qiymətli bir imarət idi. Biz adamı valeh edən, gözəlliyini sözlə ifadə etmək, qələmlə təsvir etmək mümkün olmayan, çox zəngin, şərqsayağı bəzədilmiş bir salona daxil olduq. Qonaqlar qızılı haşiyəli döşəkçələrin üstündə oturmuş, al-əlvan, qumaş mütəkkələrə dirsəklənmişdir. Salonun o başında incə naxışlarla bəzədilmiş, şəbəkəli böyük və hündür pəncərələrin yanından üç rəqqasə və çalğıçı var idi. Onlar, Mahmud ağanın bir işarəsi ilə gözəl və unudulmaz ifalarına başladılar. Mən bu malikanədə Mahmud ağanın 3 ay qonağı oldum. Novruz bayramında Şamaxının al-əlvana büründüyünün şahidi kimi şənliklərə qatıldım..."

*

Mahmud ağa 74 il ömür sürdü. İradənin gücü, xarakterin əyilməzliyi, genetik kodların diktəsi, sonsuz millət, məmləkət sevgisi ilə tarix yaratdı. O tarixin səhifələrinə adını mütəfəkkir alim, muğam bilicisi, incə, pəsdən ifaları ilə seçilən ifaçı, ən əsası xeyirxahlıq, yaxşılıq nümunəsi, müasir dillə desək, mesenat kimi yazdırdı. Mahmud ağa 1901-ci ildə öz malikanəsində, daha doğrusu, iki zəlzələdən, bir soyqırımdan sonra yenidən qurulan malikanəsində dünyaya vida nəğməsi oxudu. Mahmud ağa sərt, soyuq, qarlı bir qış günündə torpaq müqəddəsliyinə qovuşdu. Onu yola salanların sırasında təkcə Şamaxının yox, Bakının məşhur simaları var idi. O simalar ki, onlar, millət, məmləkət qurucusu kimi tarix yaratmışdılar. Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Əlimərdan bəy Topçubaşov, İsa bəy Aşurbəyov, Şəmsi Əsədullayev, Sultan Məcid Qənizadə, Abbas bəy Minasazov, Şamaxının axundu Seyid Əli ağa, Ağa Əli Naseh, Məmmədtağı Əlizadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət və daha kimlər, kimlər... Unudulmaz Firudin bəy Şuşinski qeyd edirdi ki: "Mahmud ağanın malikanəsində Qafqazda, Orta Asiyada nüfuz sahibi olan bütün sənətkarlar, xanəndələr olmuşdu. Onun 40 gün davam edən təziyələrində Qarabağdan, Naxçıvandan, Dərbənddən, Orta Asiyadan sayı-hesabı bilinməyən insanlar, sənətkarlar, xeyriyyəçi şəxslər gəlmişdilər..."

*

Mahmud ağa sağ ikən tale ona başqa bir səadəti də yaşatmışdı. Nəvəsi Həbib bəy Mahmudbəyov onun böyük arzularından bir neçəsini gerçəyə çevirmişdi: Bakıda ilk rus-türk məktəbini, teatr truppasını, kitabxana və qiraətxananı qurmuşdu. Bakı Dumasına qlasnı seçilmişdi. Bakı əsilzadələrinin şəxsən Hacı Zeynalabdin Tağıyevin diktəsi ilə başçılarını itirmiş ailələrin qəyyumu qismində Həsən bəy Zərdabi ilə birlikdə səs hüququ qazanmışdı. Bakı Dumasının Təhsil İdarəsinin rəisi, Müəllimlərin İlk Qurultayının təsisçilərindən biri, Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri kimi tarix yaratmaq da onun alın yazısı, Tanrıdan tale payı olmuşdu. Bu gün onun bir başqa törəsi babalarının ənənələrini böyük irsin davamçısı kimi, Bakı Dumasının yerləşdiyi binada uğurla davam etdirir.

Mahmud ağa millətini azad, məmləkətini Hürr görmək istəyirdi. Qafqaz Seymində Milli Şura elan olunanda, İstiqlal Bəyannaməsinə imza atılanda Cümhuriyyət Qurucularının sırasında bir tarixi şəxsiyyət də vardı: Əliəsgər bəy Hacı İbrahim Xəlil bəy oğlu Mahmudbəyov. O, İstiqlal Bəyannaməsinə imza atmaqla yanaşı, həm də ilk Parlamanın – Məclisi-Məbusanın üzvü kimi tarixdə qalacaqdı.

Mahmud ağanın genetik kodlarının digər bir daşıyıcısı, nəticəsi Şamil bəy Həbib bəy oğlu Mahmudbəyov Yusif Vəzir Çəmənzəminli ilə birlikdə Musavat Partiyasının Kiyev şəhər təşkilatını qurmuş, Zəngəzurun nüfuzlu şəxslərindən biri kimi tarix yaratmış, Cəbrayılın Polis rəisi kimi ərazinin təhlükəsizliyinə təminat vermiş, Qarabağın hərbi valisi – Qubernator Xosrov bəy Sultanovun müşaviri kimi Cümhuriyyətin nüfuzlu simalarından birinə çevrilmişdir. Şura Hökuməti illərində komissar Nəriman Nərimanovun təqdimatı ilə öncə Şuşa Qəzasının İcraiyyə Komitəsinin sədri təyin olunan Şamil bəy Mahmudbəyov sonralar Naxçıvanın Daxili İşlər komissarı və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin rəhbəri kimi Muxtar Respublikanın quruculuq işlərində yaxından iştirak etmişdir.

*

Mahmud ağanın cismani yoxluğundan 50 il sonra, soyuna bağlı Gövhər xanım Sultanzadənin ömür-gün yoldaşı "Bakı" və "Baku" qəzetlərinin qurucusu, professor Nəsir İmanquliyev Radio-İnformasiya Baş İdarəsinin rəisi kimi muğama qarşı erməni daşnakları tərəfindən "Səlib yürüşü" elan olunanda, "Oxuma tar, səni sevmir proletar" etirazı ilə Bakının üstünə Mərkəzdən, Moskvadan qara yellər əsəndə "Oxu tar, səni kim unudar!" radio müsabiqəsini təşkil etdi. Mahmud ağanın muğam müsabiqələrindən 100, Nəsir İmanquliyevin tarixi muğam müsabiqəsindən 50 il sonra ölkənin Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti xanım Mehriban Əliyeva Azərbaycan muğamlarının xilaskarı kimi tarix yaratdı. Muğam Mərkəzinin, "Muğam Portalı"nın, "Muğam" jurnalının təməlini qoydu. Beynəlxalq Muğam müsabiqələrinin təşkili, "Qarabağ xanəndələri albomu"nun nəşri, muğamın dövlət himayəsinə alınması üçün bütün imkanları səfərbər etməklə kifayətlənmədi, onun dünyanın maddi-mədəni irsi siyahısına yazılmasına nail oldu. Ölkənin Birinci xanımı soyu, soy-kökü, şəcərə dəftəri ilə ana tərəfdən Mahmud ağa ucalığına, əzəmətinə, irsinə və şəxsiyyətinə bağlıdır. Bu, nəsillərin genetik kodların diktəsidir!

*Şərəf CƏLİLLİ,*
*yazıçı - publisist*

## Faşizm üzərində Qələbə – 80

**Nasist Almaniyasının Sovet İttifaqına hücumundan sonra hakimiyyəti almanpərəst əhval-ruhiyyədə olan İranın düşmən tərəfində müharibəyə girməsi təhlükəsi kəskinləşmişdi. İran ərazisi Zaqafqaziyada Sovet İttifaqına, Yaxın Şərqdə Böyük Britaniyaya qarşı hərəkətlər üçün istifadə edilə bilərdi. Buna görə də SSRİ və Böyük Britaniya rəhbərliyi Almaniyanın regionda təsirinin genişlənməsinin qarşısını almaq üçün birgə hərəkətlərin əlaqələndirilməsi ilə bağlı danışıqlara başladı.**

# İran “razılaşma”sı niyə baş tutmayıb?







“Razılaşma” əməliyyatı kimi tanınan bu plan 1941-ci il avqustun 25-də başlanıb. 1941-ci il sentyabrın 8-də İranda SSRİ və Britaniya qoşunlarının yerləşdiyi əraziləri müəyyən edən müqavilə imzalandı. İran ərazisi iki işğal zonasına bölündü. Cənub işğal zonası ingilis qoşunlarının, şimal zonası isə sovet ordusunun nəzarəti altına keçdi. Burada rəsmi Tehranın iştirakı nominal olaraq qaldı. Çünki şah, faktiki olaraq, ölkə üzərində nəzarəti itirmişdi. İranın nə xarici, nə də daxili siyasətini müəyyən edə bilirdi.

*

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra, müqavilələrə uyğun olaraq, müttəfiq qüvvələr İran ərazisini tərk etməli oldular. Hələ SSRİ və Britaniya qoşunlarının İrana yeridilməsindən əvvəl sovet rəhbərliyi İran Azərbaycanını Azərbaycan SSRİ-yə birləşdirilməsi barədə ciddi şəkildə düşünürdü. Bunun üçün əsaslar yetişmişdi. Birincisi, region əhalisinin böyük əksəriyyətini kifayət qədər inkişaf etmiş özünüdərkə malik olan etnik azərbaycanlılar təşkil edirdi. Onların çoxu qonşuluqdakı Azərbaycan SSRİ-nin mövcudluğu nümunəsindən ilhamlanırdı. İkincisi, Şah Rza Pəhləvi taxta çıxandan sonra mərkəzi İran hökuməti onların tədricən vahid farsdilli xalqa assimilyasiyasına yönəlmiş siyasət yürüdürdü. Rza Pəhləvinin özü də ana tərəfdən azərbaycanlı olmasına baxmayaraq, o, Azərbaycan dilində təhsili qadağan etmiş, qəzetləri bağlamış, milli hərəkatının fəallarını təqib etmişdi.

İran Azərbaycanının SSRİ-yə birləşdirilməsinin əsas ruhlandırıcısı və fəaliyyətin təşkilatçılarından biri Azərbaycan SSRİ-nin rəhbəri Mir Cəfər Bağırov idi. Məhz M.C.Bağırov dövründə Bakı şah rejiminin təqiblərindən qaçan İran kommunistlərinin sığınacaq və fəaliyyət yerinə çevrildi. 1941-ci ilin may – iyun aylarında, hələ İranda sovet əməliyyatı başlamazdan əvvəl Azərbaycan SSR-də partiya və hökumət işçilərinin səfərbərliyi başlandı. 3816 nəfər partiya işçisi, daxili işlər və dövlət təhlükəsizlik orqanlarının əməkdaşları, məhkəmə və prokurorluqdan, poliqrafçılardan, jurnalistlərdən, hətta mühəndis-geoloq və dəmiryolçulardan İran Azərbaycanında yeni dövlət orqanlarının formalaşdırılmasında istifadə ediləcək 52 briqada yaradıldı. Səfərbər edilmiş Azərbaycan SSR-nin qulluqçu və fəhlələrinə bilavasitə rəhbərlik Azərbaycan SSRİ-nin Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Əziz Əliyevə həvalə edildi.

*

Şimali Azərbaycandan gələn elçilər Cənubi Azərbaycanın milli mədəniyyətinin inkişafında həlledici rol oynamışlar. Azərbaycan dili gündəlik ünsiyyət vasitəsi olmaqdan mədəni ünsiyyət vasitəsinə çevrilmişdi. Şimali Azərbaycandan göndərilmiş mədəniyyət xadimləri milli ədəbi dilin formalaşmasında əvəzsiz rol oynamışlar. 1941-ci il oktyabrın 11-dən Təbrizdə “Vətən yolunda”, Urmiyada “Qızıl əsgər” qəzetləri nəşr olunmağa başladı. Bu qəzetlər Cənubi Azərbaycanda yerləşmiş əsgər və zabitlər üçün nəzərdə tutulsa da, ana dili ilə bağlı problemlərin həllində mühüm rol oynadı. Amma Bağırovun planları SSRİ rəhbərliyi tərəfindən aydın başa düşülmürdü. Xüsusilə, SSRİ Xalq Xarici İşlər Komissarlığına rəhbərlik edən Molotov hesab edirdi ki, İranda Azərbaycan və kürd problemlərinin kəskinləşməsi Sovet İttifaqının xarici siyasət mövqelərinin möhkəmlənməsinə kömək etməyəcək. Guya, bu, Böyük Britaniya və ABŞ tərəfindən mənfi reaksiyaya səbəb olacaqdı. İ.V. Stalin isə həm Bağırovun, həm də Molotovun mövqeyinin düzgünlüyünə şübhə edirdi və bu səbəbdən uzun müddət qərar qəbul etmədi.




1945-ci il iyulun ilk günlərində Bağırov Stalinlə görüşmək üçün Moskvaya gedir. Bundan sonra 1945-ci il iyulun 6-da Ümumittifaq Kommunist Partiyası (bolşeviklər) Mərkəzi Komitəsinin Siyasi Bürosu “Cənubi Azərbaycanda və Şimali İranın digər vilayətlərində milli hərəkatın təşkili tədbirləri haqqında” “tam məxfi” qərarı qəbul etdi. Bu qərara uyğun olaraq, İran daxilində mümkün qədər geniş hüquqlara malik azərbaycanlılar üçün milli muxtariyyət yaradılmasına hazırlıq məqsədəuyğun hesab edildi. Sənəddə Gilan, Mazandaran, Qorqan və Xorasanda separatçı hərəkatların dəstəklənməsinin məqsədəuyğunluğu vurğulandı.

Bu planın həyata keçirilməsində əsas iş İran Xalq Partiyasına, daha doğrusu, onun Güney Azərbaycandakı şöbəsinə, xüsusi olaraq Azərbaycan Demokrat Partiyasına həvalə edilməli idi. Məqsəd kommunist ideologiyasını müvəqqəti kənara qoyub, cəmiyyətin bütün təbəqələrindən olan separatçıları və azərbaycanlı millətçiləri cəlb edəcək milli şüarlarla çıxış etmək idi. Qərarın digər bəndinə əsasən, İran ərazisində kürdlər üçün milli muxtariyyət yaratmaq məqsədilə İran Kürdüstanında separatçı hərəkatın inkişaf etdirilməsi nəzərdə tuturdu.

*

1945-ci il avqustun sonunda Mir Cəfər Bağırov İosif Stalindən Cənubi Azərbaycanın ilhaqına daha tez hazırlaşmaq barədə əmr alır. Sentyabrın 3-də özəyini İran kommunist hərəkatının veteranlarının təşkil etdiyi Azərbaycan Demokrat Partiyası rəsmən təsis edilir. İran Xalq Partiyasının Azərbaycan təşkilatının bütün üzvlərinə ADP-yə üzv olmaq tövsiyə olundu. ADP sədri Seyid Cəfər Pişəvəri (əsl adı – Mir Cəfər Cavad-zadə, 1892-1947) seçilir. S.C. Pişəvəri partiyanın başçısı olduqdan sonra Güney Azərbaycan ərazisində fəaliyyət göstərən Tudə təşkilatlarının və İran həmkarlar ittifaqlarının ADP sıralarına daxil olmalarını təşkil etdi. Sovet İttifaqının köməyi ilə Cənubi Azərbaycan muxtar hökumətinin qurulmasına başlandı. 1945-ci ilin sentyabrında Azərbaycan Demokrat Partiyası özünü İran Azərbaycanında hakim partiya elan etdi və geniş demokratik islahatlar aparacağına söz verdi. Partiyanın nəzarəti altında olan kəndli milislərin köməyi ilə 1945-ci il noyabrın 18-də İran Azərbaycanında qansız dövlət çevrilişi həyata keçirildi. Vilayətdə, demək olar ki, bütün dövlət vəzifələrini Azərbaycan Demokrat Partiyasının fəalları tutdu. İran Azərbaycanı Azərbaycan Muxtar Demokratik Respublikası elan edildi. ADR-i İranın hökumət qoşunlarının müdaxiləsindən Sovet ordusunun İran Azərbaycanı ərazisində yerləşən bölmələri qoruyurdu. Buna görə də Təbrizə doğru irəliləyən şahın qoşunlarının qarşısı tezliklə alındı. Şimal-qərb ərazilərini qoruyub saxlamaq, eyni zamanda Sovet İttifaqı ilə qarşıdurmaya girməmək üçün baş verən hadisələrə necə reaksiya verəcəyi barədə bir fikri olmayan Şah hökuməti tamamilə çaşqınlıq içində idi.

Noyabrın 20-21-də Təbrizdə Azərbaycan Xalq Qurultayının iclası keçirildi və orada iştirak etmək üçün 687 nümayəndə toplandı. Qurultayda qəbul edilən bəyanatda xüsusilə vurğulanırdı: “Bütün dünyanın diqqətinə çatdırırıq: Yer kürəsində öz hüquqlarını hər vasitə ilə müdafiə etmək qərarına gələn bir xalq var. Bu xalq Asiyanın bir küncündə öz azadlığı naminə demokratiya bayrağını ucaltdı”.

ADR-nin 39 nəfərdən ibarət Milli İcraiyyə Komitəsi yaradıldı və Əhməd Kordari yeni respublikanın baş naziri təyin edildi. Dekabrın 17-də TASS “İran Azərbaycanı Milli Hökumətinin Manifesti”ni dərc etdi.

*

1945-ci il dekabrın 23-də Seyid Cəfər Pişəvəri, Mirzə Əli Şəbüstəri və İran Azərbaycanının digər yüksək vəzifəliləri müstəqil demokratik respublika hökumətinin qurulmasına köməklik göstərilməsi xahişi ilə Mir Cəfər Bağırova müraciət etdilər. ADP liderlərinin fikrincə, yeni dövlət qurumunun sərhədləri ölkənin şimalında Ənzəli limanı, cənubunda isə İraq sərhədləri olmalı idi. ADP rəhbərləri Bağırovun nəzərinə çatdırdılar ki, yeni dövlət Azərbaycan Milli Demokratik Respublikası adlanacaq və konstitusiyaya uyğun idarəçilik prinsipləri və demokratik azadlıqlara hörmət əsasında qurulacaq. Təbriz, Ərdəbil, Urmiya, Miandoab, Marağa, Salmas, Xoy, Mərənd, Mian, Ənzəli, Maku, Əhər, Xerovabad, Zəncan, Qəzvin və Həmədan şəhərlərinin yeni respublikaya daxil edilməsi nəzərdə tutulurdu. Vurğulanırdı ki, ADR-in sərhədləri əhalisinin 95 faizi Azərbaycan türklərindən ibarət İran ərazisini əhatə etməlidir.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1946-cı il yanvarın 10-da Londonda keçirilən sessiyasında ABŞ-ın dəstəklədiyi İran nümayəndə heyəti xarici hərbçilərin ölkə ərazisində davamlı olaraq qalması məsələsini gündəliyə daxil etdi.

1946-cı ilin martında Moskva danışıqlarında SSRİ hökuməti öz tələblərini irəli sürərək İrana bunları təklif etdi: “SSRİ qoşunlarının İranın müəyyən ərazilərində qalması; neft güzəştləri məsələsinin müzakirəsi; Azərbaycanın muxtar hökumətinin tanınması”. Bu, nə İrana, nə ABŞ-a, nə də İngiltərəyə sərf edirdi.

Martın 24-də Qərbin təzyiqi ilə SSRİ öz səfiri vasitəsilə İranı əmin etdi ki, ay yarım ərzində öz qoşunlarını İrandan çıxaracaq. Bəzi mənbələrə görə, ABŞ Prezidenti Harri Trumenin Bakıya atom bombası atmaqla hədələməsi İran böhranının həllində müəyyən rol oynadı. Stalin vəziyyəti gərginləşdirməyə cəsarət etmədi və Azərbaycan demokratik hökumətinə yardım göstərmədi. Beləliklə, 1946-cı il mayın 9-da sovet qoşunlarının və əmlakının İran ərazisindən çıxarılması başa çatdırıldı. Amma 1947-ci ildə İran Məclisinin yeni tərkibi birgə neft şirkəti yaratmağa dair SSRİ–İran müqaviləsini ratifikasiyadan imtina etdi. 1946-cı ilin yayında Azərbaycan Demokratik Respublikasının rəhbərliyi muxtariyyətdən imtina etməyə razılıq verdi. Dekabrın əvvəlində şah qoşunları ADR-in nəzarətində olan ərazinin sərhədini keçərək Təbrizə daxil oldu və cəza tədbirləri başladı. 14 minə yaxın azərbaycanlı demokrat və onların tərəfdarları edam edildi. Düzdür, demokratlar hakimiyyətdə olarkən şah rejiminin 500-ə yaxın tərəfdarını edam etmişdilər.

ADP fəaliyyətini dayandırdıqdan sonra Cənubi Azərbaycan hərəkatı liderlərinin böyük hissəsi İranı tərk edərək Sovet İttifaqına getdi. Seyid Cəfər Pişəvəri Bakıda məskunlaşdı. O, 1947-ci ildə avtomobil qəzasında dünyasını dəyişdi. ADP-də hərbi nazir vəzifəsini tutan general Cəfər Kavian Məmmədzadə də Bakıya pənah gətirdi. O, Pişəvəridən fərqli olaraq, ahıl yaşınadək ömür sürdü, 1975-ci ildə Bakıda vəfat etdi. Beləliklə, Cənubi Azərbaycanda 1941-1946-cı illərin milli azadlıq hərəkatı SSRİ rəhbərliyinin xəyanəti nəticəsində süquta uğradı.

***Mehmu MƏMMƏDOV,***
***tibb elmləri doktoru, professor***

---

# Kremlin Qafqaz mesajı: “3+3” formatında yeni görüş

**(əvvəli 1-ci səhifədə)**

Ölkələr arasında mövcud yük daşımaları əsasən Gürcüstan ərazisindən keçir. Ölkələr arasında münasibətlərin gərgin olmasına baxmayaraq, İrəvan–İstanbul marşrutu üzrə müntəzəm uçuşlar həyata keçirilir. Ermənistan və erməni diasporu dünyanın müxtəlif ölkələrində qondarma “soyqırımı”nın tanınması istiqamətində fəaliyyətlərini davam etdirirlər. Türkiyə, haqlı olaraq 1915-ci ildə Osmanlı imperiyasında baş vermiş hadisələrin “soyqırımı” adlandırılmasına qarşı çıxır. Bunu ölkənin beynəlxalq aləmdə nufuzdan salınmasına təzyiq cəhdi olduğunu bildirir. Eyni zamanda, rəsmi Ankara həm ermənilərin, həm də türklərin öldüyü hadisələri öyrənmək üçün birgə komissiya yaratmağı təklif edir. Ermənistanın həm əvvəlki hakimiyyətləri, həm də Nikol Paşinyan iqtidarı bu təklifi qəbul etməkdən indiyədək boyun qaçırır. Bundan əlavə, Türkiyə Ermənistanla münasibətlərin qurulmasını Bakı və İrəvan arasında əlaqələrin yaxşılaşdırılması amili ilə də bağlayır. Bütün bunlara baxmayaraq, Ermənistan və Türkiyə təmsilçiləri “3+3” platformasının işində iştirak edirlər.

Bu çərçivədə əməkdaşlıqdan birmənalı şəkildə imtina edən təkcə Gürcüstandır. Bu da anlaşılandır. Çünki Rusiya ilə Gürüstan arasında Abxaziya və Şimali Osetiya məsələsinə görə kəskin ziddiyyətlər mövcuddur. Gürcüstan Xarici İşlər Nazirliyinin nümayəndəsi bu formatda keçirilən görüşlərin heç birinə qatılmayıb.

Göründüyü kimi, “3+3” çərçivəsində əməkdaşlıq o qədər də sadə məsələ deyil. Buna baxmayaraq, belə bir platformanın mövcudluğu müsbət hal kimi qiymətləndirilməlidir.

*

Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin bugünlərdə Hayastanın “168.am” saytına müsahibəsində “3+3” platformasının növbəti iclası barədə danışıb. Deyib ki, regional məşvərət platformasının növbəti iclası iştirakçıların özləri razılaşdırdıqları ardıcıllıq qaydasına uyğun olaraq İrəvanda və ya Bakıda keçirilməlidir. Diplomatın sözlərinə görə, Rusiya, Ermənistan və Azərbaycan arasında 2020-ci ildən 2022-ci ilə qədər ən yüksək səviyyədə qarşılıqlı fəaliyyət geniş birgə bəyanatlar bazasının hazırlanmasına imkan verib. Səfir 2021-ci ilin yanvarında Cənubi Qafqazda iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün üçtərəfli işçi qrupunun yaradıldığını xatırladaraq, onun baş nazir müavinlərinin həmsədrliyi ilə fəaliyyət göstərdiyini qeyd edib. “Rusiya dəfələrlə vurğulayıb ki, Cənubi Qafqazın taleyini region ölkələri özləri və onların qonşuları müəyyən etməlidir. Sabitlik və rifahın açarı inklüziv dialoq, qarşılıqlı məqbul həll yollarının axtarışı və regionun xarici geosiyasi ssenarilərə cəlb olunmasına qarşı mübarizədir” – deyə Kopırkin bildirib.

O, Moskvanın “3+3” formatının yaradılmasına fəal töhfə verdiyini xatırladıb. Bildirib ki, Gürcüstan hələ görüşlərdə iştirak etmir. Lakin səfirin sözlərinə görə, bütün iştirakçılara aydındır ki, Tbilisi üçün qapı açıq qalır.

Kopırkin, həmçinin qeyd edib ki, lazımi şərait formalaşdıqca regional təhlükəsizlik məsələlərini də müzakirə etmək mümkün olacaq. Eyni zamanda, o, “3+3” çərçivəsində təmaslarla Rusiya–Ermənistan–İran formatında qarşılıqlı əməkdaşlığın gücləndirilməsini təklif edib. Əsas diqqəti perspektivli iqtisadi və nəqliyyat layihələrinə, xarici siyasətin koordinasiyası və humanitar gündəmə yönəldib. O vurğulayıb ki, bu cür müzakirələr mövcud ikitərəfli sazişləri və regional mexanizmləri tamamlamalı, lakin onları əvəz etməməlidir.

*

Qeyd etmək lazımdır ki, S.Kopırkinin verdiyi bu müsahibə Rusiya diplomatiyasının Cənubi Qafqaz regionuna dair baxışını və “3+3” platformasına münasibətini bir daha ortaya qoyur. Səfirin fikirlərinin əsas məqamlarını qısa şəkildə təhlil edəsi olsaq deməliyik ki, onun “növbəti iclasın İrəvanda və ya Bakıda keçirilməsi gündəmdədir” sözləri Rusiya tərəfinin hələ də platformanın yaşadığını və davam etməli olduğunu düşündüyünü göstərir. Lakin Gürcüstanın iştirakdan imtinası platformanın “3+3” deyil, faktiki olaraq “2+3” (yəni Ermənistan, Azərbaycan+Rusiya, Türkiyə, İran) kimi fəaliyyət göstərdiyini göstərir.

Regional kommunikasiyalar və əməkdaşlıq məsələsinə gəldikdə isə diplomat Cənubi Qafqazda iqtisadi və nəqliyyat yollarının açılması ilə bağlı 2021-ci ildə yaradılan üçtərəfli işçi qrupunun əhəmiyyətini vurğulayır. Bu qrup – Ermənistan, Azərbaycan və Rusiya baş nazir müavinlərinin həmsədrliyi ilə işləyən struktur – kommunikasiyaların açılması və iqtisadi əməkdaşlıq məsələlərini praktiki müstəviyə keçirmək üçün nəzərdə tutulmuşdu. Amma proses son illərdə durğunluq mərhələsinə keçib.

Kopırkin açıq şəkildə bildirir ki, Rusiya üçün prioritetlər regional sabitlik və geosiyasi neytrallıqdır. Moskva üçün əsas hədəf regionun “xarici geosiyasi ssenarilər”dən uzaq qalmasıdır. Bu, Qərbin artan təsirinə, xüsusilə Avropa İttifaqı və ABŞ-ın Ermənistandakı son fəallaşmasına Moskvanın açıq reaksiyası kimi şərh oluna bilər.

Səfirin “3+3” formatı daxilində Rusiya–Ermənistan–İran üçbucağında əməkdaşlıq çağırışı maraq doğurur. Bu, həm geosiyasi balans qurmaq, həm də Qərb təsirinə qarşı müştərək mövqe formalaşdırmaq məqsədi daşıya bilər. Bu əməkdaşlıq xətti enerji, nəqliyyat və humanitar sahələri əhatə edə bilər.

Azərbaycan üçün “3+3” platformasının əhəmiyyəti və çağırışlara gəldikdə isə qeyd etmək lazımdır ki, bu, platforma ölkəmizə ilk növbədə geosiyasi manevr imkanları yaradır. “3+3” formatı Azərbaycanın regional əməkdaşlıq gündəmini irəli aparmaq üçün əhəmiyyətli alətdir. Bakı üçün bu platforma Qərblə Rusiya və İran cütlüyü arasında balanslı diplomatik siyasət yürütmək, eyni zamanda, Zəngəzur dəhlizi və digər infrastruktur layihələrini gündəmə gətirmək baxımından önəmlidir. Amma risk ondan ibarətdir ki, formatın əsas təşəbbüskarları – Rusiya və İran Qərbin regionda fəallaşmasına qarşı çıxırlar. Azərbaycan isə öz diplomatiyasında Qərblə münasibətləri tamamilə kənara atmır. Bu isə Bakının diqqətli və ölçülü siyasət yürütməsinin göstəricisidir.

Kopırkinin üçtərəfli işçi qrupun fəaliyyətinə istinad etməsi Bakı üçün bir siqnal ola bilər. Azərbaycan Orta Dəhliz və Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla əlaqəni gücləndirmək istəyir. Rusiya və İran bu layihələri regionun inkişafı və “xarici geosiyasi layihələrə qarşı alternativ” kimi təqdim edir. Bu, Azərbaycanın maraqlarına uyğun gəlir, amma, eyni zamanda, Ermənistanın müqaviməti səbəbindən proses dalana dirənib.

Rusiya səfirinin “regionun taleyini region ölkələri həll etməlidir” ifadəsi Bakı üçün həm fürsət, həm də xəbərdarlıqdır. Bu, Azərbaycanın geosiyasi müstəqilliyini qorumaq üçün Rusiyanın təsir dairəsini balansda saxlamaq zərurətini göstərir. Xüsusilə, Ukrayna müharibəsindən sonra Rusiya zəifləyib və Qərbin təsiri artır. Azərbaycan üçün bu balanslaşdırma siyasəti həlledicidir.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi ekspert**

– “3+3” əməkdaşlıq platforması çox uğurlu formatdır. Hələlik yalnız Gürcüstan bu formata qatılmağa tərəddüd edir. Bu, da gürcülərin Rusiya rəsmiləri ilə eyni masada oturmaq istəmədiklərindən irəli gəlir. Biz başqa yerlərdə Tbilisi və Mos-kva nümayəndə heyətlərinin danışıqlar apardığının şahidi oluruq. Gürcüstan hakimiyyəti regional inkişafa, Azərbaycan və Türkiyənin mövqeyini dəstəkləməyə meyillidir. Biz Tbilisinin bölgədə təhlükəsizliyin ancaq birlikdə təmin edilə biləcəyini anladığını da görürük. Bu mənada ümid edək ki, “3+3” platforması uğur qazandıqca, Gürcüstan da ona qoşulacaq.

Qərb isə Cənubi Qafqaz ölkələrinin Türkiyə, İran və Rusiya ilə birlikdə hansısa platforma quraraq, regional məsələləri həmin çərçivədə həll etməsini istəmir. Çünki bu format çərçivəsində regionda nəqliyyat kommunikasiyalarının, eyni zamanda, Zəngəzur dəhlizinin açılması məsələsinin müzakirəsi və həlli, təhlükəsizliyin təmin olunması Qərbin bölgəmizə təzyiq vasitələrini itirməsi ilə nəticələnə bilər. Bütün hallarda Cənubi Qafqaz ölkələrinin qonşularla birlikdə məsələləri müzakirə etmək qabiliyyətinin qorunub saxlanması və inkişafında maraqlı olması özü böyük uğurdur. Çünki bölgədə sülh və sabitlik içində bir-gəyaşayış üçün bundan əlverişli variant yoxdur.

# Xalçalarda yaşayan mənəvi zənginlik

## Bu sənətin kamilliyi və gözəlliyi dünyanı heyran qoyur

**Xalqın gözəllik duyumunu sirli naxışlarda yaşadan Azərbaycan xalça sənətinin qədim tarixi var. Ötən günlər Bakının İçəri şəhərində keçirilən 2-ci Beynəlxalq Xalça Festivalının iştirakçıları bununla bir daha qürur duydular, xarici qonaqlar isə qədim tətbiqi sənət yaradıcılığının xalqımızın qanı və canında olduğuna şahidlik etdilər.**



Elə geniş proqramlı festivalda məqsəd də Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində daha yaxından tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnmək idi. Qeyd edək ki, bu bayram



ötən il təşkil olunmuş Milli Xalça Festivalının davamı kimi, yeni bir ənənənin yarandığını göstərdi.

Festival çərçivəsində "Xalçaçılıqda ənənələr və yeniliklər" mövzusunda keçirilən Beynəlxalq Forumda 10-dan çox ölkədən 200-ə yaxın xalçaçı, istehlakçı və sənət adamı iştirak edirdi. "Xalça sənətində Heydər Əliyevin əbədi irsi" adlı fotosərgi, əsas mövzuları "Xalçaçılıqda beynəlxalq əməkdaşlıq və qlobal təcrübələr", "Sərhədləri aşan xalçaçılıq: ənənələr, dəyişikliklər və mədəni əlaqələr", "Xalça və müasir incəsənət: yeni ifadə vasitələri", "Əl işi xalçaçılıq: müasir dövrdə rolu və institusional yanaşmalar" və "Xalça toxuma sənətinə innovativ baxış" olan plenar sessiyalar, müxtəlif yarmarka və konsertlər festivalın elmi və mədəni ruhuna xüsusi rəng qatdı. Əlamətdar cəhət bu idi ki, xalça bayramı həm də İçərişəhərin UNESCO Ümumdünya İrs Siyahısına daxil edilməsinin 25 və Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin bu beynəlxalq qurumun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsinin 15 illiyi ilə üst-üstə düşürdü. "Azərxalça" ASC-nin 14 emalatxanasından dəvət olunmuş 28 toxucu qadının, emal prosesinin gözəlliyini göstərən komandanın və yaradıcı qrup üzvlərinin ustad dərsləri də peşə sirlərinin paylaşılması baxımından önəmli idi.

"Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun dəstəyi ilə keçirilən festival başdan-başa uğurla müşayiət olundu və hər kəsin gözünü-könlünü oxşadı. Festivalın əsas sütunlarından olan "Azərxalça" ASC üçün isə bu tədbirlər xalçaçılıq işinin təbliği, xalça və xalça məmulatlarının istehsalı, ixracı, ölkə daxilində və xaricdə satışının təşkili, yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi, beynəlxalq sərgi və konfranslarda iştirakının təmini – bir sözlə, Azərbaycanın milli xalça brendinin inkişafı baxımından misilsiz imkan idi.

Azərbaycan Rəssamlar İttifaqının, Beynəlxalq Rəssamlar İttifaqı Fondunun və Moskva Rəssamlar Birliyinin üzvü, dünyanın 25-dən artıq ölkəsində muzeylərdə və şəxsi kolleksiyalarda əsərləri saxlanılan Əməkdar mədəniyyət işçisi Fazil Abbasquluzadə festival barədə təəssüratlarını bizimlə bölüşdü:

– Fəxr edirik ki, dövlətimiz və hökumətimiz qədim sənətə belə diqqət və qayğı göstərir. Həm bizim üçün yüksək stimul yaranır, həm də Azərbaycan xalçaçılığı dünyada tanıdılır ki, bu sənət nümunələrimizi öz adlarına çıxmağa çalışan nankor qonşularımızın əlləri boşa çıxsın.

Xatırlayıram ki, hələ 1983-cü ildə Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda Şərq Xalça Sənəti üzrə I Beynəlxalq Simpozium keçirildi. Onda mən hələ gənc xalçaçı-rəssam idim. Sonra bir neçə ildən bir növbəti simpoziumlar oldu. 4-cü beynlxalq simpozium Azərbaycan xalça sənətinə həsr edildi. 2007-ci ildə növbəti belə bayram Parisdə, UNESCO-nun iqamətgahında sərgi ilə müşayiət olunan 4-cü simpozium görkəmli xalçaçı-rəssam və tədqiqatçı-alim Lətif Kərimovun 100 illik yubileyinə həsr olunmuşdu. 2017-ci ildə isə yenə Bakıda 5-ci simpozium düzənləndi. İndi isə, budur, 5 May Xalçaçı Günü ərəfəsində ən yüksək səviyyədə beynəlxalq forum və festival düzənləndi. Ənənələr və yeniliklərə dair əhatəli məclisə çoxsaylı xarici qonaqlar təşrif gətirdilər. Görüşdük, təcrübə mübadilələri apardıq, bir-birimizə hədiyyələr bağışladıq. Bir sözlə, zəngin təəssürat əldə etdik, yeni yaradıcılıq uğurlarına həvəsləndik.

*Ə.DOSTƏLİ*
*XQ*

**Yaqub Məmmədov – 95**

# Muğama nəfəs verən xanəndə

**Azərbaycan musiqi sənəti tarixində dərin iz qoymuş Xalq artisti Yaqub Məmmədov yüksək ifaçılıq mədəniyyəti - yapışıqlı səsi, isti nəfəsi, heyrətamiz boğazları ilə yaddaşlarda qalmış fitri istedadlardandır. Ləpə-ləpə bəmləri, dalğa-dalğa zilləri dəniz kimi ecazkar təsir bağışlayıb.**

...Universitetin qiyabiçi tələbəsi idim və Sumqayıt Kimya Sənayesi İstehsalat Birliyinin çoxtirajlı "Kimyaçı" qəzetində işləyirdim. Hansısa bayram münasibətilə zavodda filarmoniya solistlərinin konserti olacaqdı. Kluba bir qədər erkən getdim və qonaq sənətçilərin arasında ən tanınmışı, o zaman hələ Əməkdar artist olan Yaqub Məmmədovla görüşüb qısa müsahibə aldım. Bu çox ciddi görkəmli kişinin suallarıma qəlyan çəkə-çəkə



verdiyi cavablardan çox baməzə insan olduğunu duydum. Konsertdə isə o, elə bir "pəstah" çıxardı, muğam və təsnifləri elə ustalıqla oxudu ki, tamaşa salonu alqışlardan, az qala, lərzəyə gəldi. "Segah zabul"u və "Şur" təsnifini məxsusi məharətlə təqdim elədi. Dönə-dönə səhnəyə qayıtmalı oldu və məcburən proqramdan kənara çıxaraq könülləri bəs qədər oxşadı. Mənimsə konsert barədə yazmalı olduğum xəbər alınmadı, çünki bütün bacarığımı səfərbər edərək qələmə aldığım qeydlər daha çox geniş reportaj, bəlkə də oçerk idi.

Yaqub Məhəmməd oğlu Məmmədov 5 may 1930-cu ildə Ağcabədidə dünyaya göz açıb. Özü deyirdi ki, erkən yaşlarında pambıq tarlasında suçu işləyib və elə oradaca səsini zilə çəkərək muğam parçaları oxuyub, camaat əllərini soyudub onu dinləyib. Bir gün isə Xan Şuşinski, Şövkət Ələkbərova Ağcabədi mədəniyyət evində yaxşı səsi olanları seçirmişlər. O da ora gedir və sevimlisi Xan əminin öz yolu ilə bir segah oxuyur. Xan Şuşinski başını tərpədir, amma heç nə demir. Şövkət Ələkbərova isə ayağa qalxıb onu alqışlayır, bir xeyli tərifləyir. Xanəndələr Bakıya qayıdır. Xanın onun ifası haqqında heç nə deməməsi, Yaquba toxunur. Bir müddət sonra flarmoniyanın bağında ustadın başına toplaşan gənclər ona sual verirlər ki, Xan əmi, görəsən, sənin kimi oxuyan bir də yer üzünə gələcək? O isə belə cavab verir: "Gələcək yox, gəlib. Mənim kimi oxuyan oğlan Ağcabədidə pambıq suvarır, gedin, onu tutub Bakıya gətirin".

Beləcə, paytaxta gəlib. Peşəkar musiqi təhsilini A.Zeynallı adına Musiqi Texnikumunda xanəndə-pedaqoq Seyid Şuşinskidən və Mütəllim Mütəllimovdan alıb, sənətin incəliklərini öyrənib, muğam dəstgahlarını özünəməxsus ustalıqla oxuyub. Poeziyanı da dərindən bilib Yaqub Məmmədov.

Görkəmli xanəndə uzun illər Azərbaycan Dövlət Filarmoniyasında solist olub, konsertlərdə çıxış edərək "bəh-bəh"lə dinlənilib. Onun ifasında qrammofon vallarına yazılmış dəstgahlar bütün Yaxın və Orta Şərqdə yayılıb. İnamla deyə bilərik ki, ustad muğam ifaçısı sənətdə öz ənənələrini yaradanlardandır. Bir çox xanəndə onun oxu tərzindən bəhrələnib. Görün, ustad sənətkarlar Yaqub Məmmədovun haqqında nə deyiblər...

Seyid Şuşinski: "Çətin ki, analar səndən bir də doğar, Yaqub!"

Xan Şuşinski: "Yaqubun "Mənsuriyyə"si əsl sənət nümunəsidir".

Vamiq Abdullayev (tarzən): "Yaqubla neçə il meydanlarda oldum, amma bir dəfə də olsun ondan "mən" sözü eşitmədim. Bəzən elə olurdu ki, kasıb insanlar Yaqubu toya aparmaq istəyirdilər, amma imkanları o qədər də çox olmurdu. Yaqub bunu biləndə mənə deyirdi ki, nə danışırsan, millətin hamısı bizimdir, gedək o toya. Və ən qəribəsi də odur ki, həmin kasıb toyu, varlı toyundan da yaxşı keçirdi".

Bildiyimiz kimi, Bakı kəndləri olduqca tələbkar muğam, söz-qəzəliyyat xiridarları ilə tanınır. Hər döşünə döyən xanəndə gedib orada toyda oxumağa ürək eləməz. Amma bu qorxu-hürkü qətiyyən Yaqub Məmmədova aid olmayıb. Çünki səsi vardı, şeiriyyəti, poetik vurğuları da yaxşı bilirdi. Xüsusilə də ifaçıların ciddi sınağa çəkildiyi Nardaranda dinləyicilər hamılıqla onun səsinin gözəlliyini yorulmadan alqışlayıblar.



"Şöhrət" ordenli xanəndənin haqqında məzəli əhvalatlar da var. Məsələn, deyirlər ki, bir dəfə xaricə qastrola gedəndə anketdəki "pol" (cins) qrafasının qabağına "parket" yazıb. Elə bilib ki, evindəki döşəmə nəzərdə tutulur...

Böyük sənətkarın ifasında səslənmiş bir çox muğamlar radionun "Qızıl fond"unda saxlanılır. 2016-cı ildə İctimai Televizyada Yaqub Məmmədov haqqında "Muğam ömürlü sənətkar" adlı sənədli film çəkilib. Bulaq kimi çağlar təbi olan xanəndə dünyasını dəyişəndən sonra Ağcabədidəki məşhur "Üçbulağ"a onun adını veriblər.

*Əli NƏCƏFXANLI*
*XQ*

**Fikrət Türkmən – 80**

# Türk dünyasının çağdaş xocası

**Anadolu torpaqlarının hər qarışının nə qədər sevimli və əziz olmasının sübuta ehtiyacı yoxdur. Türk dünyasının Binəli Ildırım, Əli Kafkasiyalı, İlbər Ortaylı, Mətin Arıkan, Seyid Əhməd Arslan, Murat Qaraçanta kimi tanınmışları ilə ünsiyyətim bu sevgini dəfələrlə artırıb. Həmin sırada adını qürurla çəkdiyim bir insan da var: Fikrət Türkmən!**

Uzun illər Egey Universitetinin təkcə professoru və ünlü bir elmi mərkəzinin rəhbəri yox, həm də qurucusu olan Fikrət Türkmənin həyatı da tədqiqat sahəsi olan folklor qədər zəngin və maraqlıdır. Hər biri 400–450 səhifə olan "Türk dünyası eposları"nın 100 cilddə hazırlanması, uzun illərdən bəri, dünyanın hər yerindən gətirdiyi və ona bağışlanan 30 min nüsxədən çox əsərin toplandığı "Fikrət Türkmən kitabxanası" alimin nağıl ömrünün maraqlı səhifələridir. Sovetlərə hələ kecən əsrin 70-ci illərdə gələn, yasaqları aşan ilk insanlardan biri olub Fikrət əfəndi. Amma burada da həyatı macəralardan uzaq olmayıb: "Rusiyada, Azərbaycanda, Özbəkistanda, Qazaxıstanda və Qırğızıstanda oldum. Soyadım Türkmən olduğundan, mənə Türkmənistana getməyə viza vermədilər".



Fikrət xocanın ömrünün daha bir şərəfli səhifəsi Egey Universitetində Türk Dünyası Araşdırılması İnstitutunun yaradılması ilə bağlıdır. Əslində bu arzunun həyata kecməsi də bir folklor tarixcəsinə bənzəyir. Fikrət xoca deyir ki, bir dövlət tədbirində baş nazir Bülənd Ecevitə yaxınlaşıb kömək istəməyi qərarlaşdırdım. Mən onunla ilk dəfə Bakıda görüşmüşdüm, "İnturist" (indiki "Hilton") otelində, hətta Türk Dünyası ilə bağlı bir mərkəzin yaradılması haqqında fikir və arzularımı da söyləmişdim. Çox səmimi, ədəbiyyata, sənətə qiymət verən bir insan idi. Bülənd bəyə yaxınlaşdım, heç fikrimi deməyə macal vermədi, Bakı görüşümüzü yada saldı və layihəm barəsində soruşdu. Çox qısaca, vəsait olmadığından bina inşa edə bilmədiyimizi söylədim. Nə qədər vəsait lazım olduğunu soruşdu. İlkin hesablamalarımıza görə, 50 milyon türk lirəsi lazım olacağını bilirdim, amma 75 milyon söylədim. Təqdim etdiyim vizit kartımın arxasına 75 milyon lirə yazdı və köməkçisinə verərək, "Sabah mütləq yadıma sal" – dedi. Mənə baxaraq, "Paran bir gün sonra universitetdə olacaq, Fikrət bəy", – dedi. Düzü, görüşdən məmnun olsam da, tərəddüdlərim qalmaqda idi. İki gün sonra rektorluqdan bir zəng gəldi: "75 milyon paranız gəlib, təyinatı da göstərilib: Türk Dünyası Araşdırmaları İnstitutunun tikintisinə". İndi də o anları xatırlayanda kecirdiyim həyəcan və duyğuları ifadə etməkdə cətinlik çəkirəm...

Beləcə, institut üçün yer ayırdılar, binanın tikintisinə başladıq, indi Türk Dünyası Araşdırmaları və Sosial Elmlər İnstitutunun yerləşdiyi binanı inşa etdik. Ayrılan vəsaitin hamısını ala bilməsək də, nəyəsə nail ola bildik. Yeri gəlmişkən, başda rəhmətlik Ecevit olmaqla bu işdə zəhməti olan keçmiş təhsil nazirimiz Köksal Topdan, o zamankı rektorumuz Sermet Akgün, YÖK baş katibinin müavini İsmət Atik kimi xeyirxahları yad etməyi mənəvi borcum hesab edirəm, ölənlərə rəhmət, qalanlara can sağlığı arzulayıram".

Azərbaycanla əlaqələrindən danışan Fikrət bəy deyir ki, elmi fəaliyyətində Azərbaycanın töhfələri unudulmazdır. "1992-ci ildə Bakı Dövlət Universitetində mənə "Faxri doktor" adı verildi, onlarca təltifə sahib olsam da, o anlarda çox həyəcanlı idim. Türkiyə Prezidenti Süleyman Dəmirəl "Türk Dünyasına xidmət" mükafatını təqdim edəndə o hissləri yenidən yaşadım. Dostlarla ara-sıra zəngləşir, hal-əhval tuturam. Onların böyük bir qismi – Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Tofiq Hacıyev, Ramiz Əskər həyatda olmasalar da, xatirələri mənim üçün əzizdir. İsa Həbibbəyli, Kamal Abdulla, Anar, Elçin, Əsgər Rəsulov, Oqtay Səmədov, Muxtar İmanov, Adil Cəmil, Rüstəm Behrudi, İntiqam Qasımzadə və adlarını unutduğum dostlarım… salamlarımı çatdırmağı xahiş edirəm"...

İzmirə hər yolum düşəndə Afiq Bərdəli, Asif Kurban, Murad Qaraçanta, Zəki Hözər, Müge Eldən, Güzfən Diləmrə, Atif Akgün, Pınar Fədəkar ilə görüşməyi mütləq planlayıram, amma bu sirada yaddan çıxmayan bir insan var: Fikrət Türkmən – türk dünyasının çağdaş xocası. Egey bölgəsinin tarixini səhifə-səhifə vərəqləyən, mənə də İzmirdəki qazax və özbək köylərini tanıdan və sevdirən böyük kişı.

Son dəfə bu ilin əvvəlində İzmirdə olarən onunla görüşə bildim, sonarkı telefon əlaqələrində söylədiklərindən bir az qayğılandım da: bir gözü əməliyyat olunmuşdu, şəfalar dilədim. Maraqlı bir xəbəri isə Azərbaycandan, Qarabağ Universitetinin professoru Ürfət Nuriyevdən aldım: Egey Universiteti mayın 7-də Fikrət Türkmənin 80 yaşını qeyd edir, Azərbaycana da müraciət ünvanlanıb...

Maraqlı söhbət və lətifələri ilə bütün dostlarının qəlbində heykəlləşən və yaradıcılıq eşqi tükənməyən, Fikrət Türkmən, 80 yaşınız mübarək!

*Namiq ƏHMƏDOV*
*XQ*

# Orta məktəbdən universitetə "Açıq qapı"



**Gələcək tələbələri tədris mühiti, ixtisasları, elmi və texniki baza barədə ətraflı məlumatlandırmaq, onların peşə seçimi prosesinə dəstək göstərmək məqsədilə Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "Açıq qapı" günü təşkil olunub. Bakının müxtəlif ümumtəhsil məktəblərindən 2 minə yaxın şagird və onların valideynləri universitetin qonağı olublar. Geniş təhsil sərgisi formatında təşkil olunan tədbirdə stendlər vasitəsilə AzMİU-nun bütün fakültələri və kafedraları, şöbə və mərkəzləri təmsil olunub.**

Təhsil sərgisinin açılışında çıxış edən AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova məktəbliləri salamlayıb və universitetdə yaradılan müasir təhsil imkanlarından, qabaqcıl ixtisaslardan, professor-müəllim heyətindən, tələbəyönümlü tədrisdən danışıb.

Sərgidə təhsil ekspertləri də iştirak ediblər. Onlar şagirdlərə ixtisas seçimi və qəbul prosesi ilə bağlı müxtəlif tövsiyələr verib, abituriyetləri maraqlandıran suallar ətrafında geniş müzakirələr aparıblar.

Sərgi proqramından sonra abituriyentlər və onların valideynləri tədris korpuslarını ziyarət edərək fakültə və kafedraların fəaliyyəti, tədris prosesi, infrastruktur və maddi-texniki baza ilə tanış olublar. Qonaqlar universitetin təhsil mühitini yüksək qiymətləndirərək gələcəkdə bu elm ocağında təhsil almağın onlar üçün perspektivli və dəyərli bir seçim olacağını qeyd ediblər.

Təhsil eksperti Vüsət Əzizov "Xalq qəzeti"nə bildirib ki, bu universitet ölkəmizdə yüksək ixtisaslı memarlıq, inşaat, mühəndis sistemləri və digər sahələrdə mütəxəssis hazırlayan ən böyük elm-təhsil ocağıdır. Azərbaycanın yüksək templə inkişafını, cəmiyyətin milli və müasir demokratik ruhunu, ölkəmizin dünya ölkələri arasında layiqli yer tutmasını təmin etmək üçün ali təhsilin həlledici rolunu əsas tutaraq, universitet bütün istiqamətlərdə inkişafı təmin etməklə gələcəyin mükəmməl kadr potensialını formalaşdırır.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

## “Suraxanı Maşınqayırma Zavodu” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

manatla

| AKTİVLƏR | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Qeyri-maddi aktivlər | 22.472 | 22.472 |
| Torpaq, tikili və avadanlıqlar | 5.413.267 | 5.498.029 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***5.435.739*** | ***5.520.501*** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 3.081.940 | 3.087.854 |
| Qısamüddətli debitor borcları | 850.866 | 1.551.623 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 458.835 | 21.033 |
| Sair qısamüddətli aktivlər | 760.029 | 218.541 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***5.151.670*** | ***4.879.051*** |
| **CƏMİ AKTİVLƏR** | **10.587.409** | **10.399.552** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 4.744.914 | 4.744.914 |
| Kapital ehtiyatları | 57.095 | 57.095 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 879.137 | 495.148 |
| **CƏMİ KAPİTAL** | **5.681.146** | **5.297.157** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Sair uzunmüddətli öhdəliklər | 4.073.000 | 4.073.000 |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | **4.073.000** | **4.073.000** |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 280.000 | 80.948 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 137.012 | 86.402 |
| Qısamüddətli kreditor borcları | 179.697 | 517.173 |
| Sair qısamüddətli öhdəliklər | 236.554 | 344.873 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | ***833.263*** | ***1.029.395*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **4.906.263** | **5.102.395** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **10.587.409** | **10.399.552** |

**MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI** ***(xərclərin funksiyaları üzrə)***

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 7.837.530 | 8.326.790 |
| Satışın maya dəyəri | (6.321.337) | (6.775.341) |
| **Ümumi mənfəət** | **1.516.193** | **1.551.448** |
| Digər əməliyyat gəlirləri | 34.611 | 8.624 |
| Ümumi və administrativ xərclər | (873.592) | (933.743) |
| Sair əməliyyat xərcləri | (27.980) | (42.080) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **649.233** | **584.250** |
| Maliyyə xərcləri | (11.353) | (34.270) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **637.880** | **549.980** |
| Mənfəət vergisi | (127.576) | (109.996) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **510.304** | **439.984** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **2022-ci il dekabrın 31-nə qalıq** | **4.744.914** | **57.095** | **249.567** | **5.051.576** |
| 2023-cü ilin kapital ehtiyatlarında düzəlişlər | | | | - |
| 2023-cü il üzrə xalis mənfəət | | | 439.984 | 439.984 |
| Elan olunmuş dividend | | | (144.444) | (144.444) |
| Kapital ehtiyatlarından istifadə | | | (49.959) | (49.959) |
| **2023-cü il dekabrın 31-nə qalıq** | **4.744.914** | **57.095** | **495.148** | **5.297.157** |
| 2024-cü il üzrə xalis mənfəət | | | 510.304 | 510.304 |
| Elan olunmuş dividend | | | (126.316) | (126.316) |
| Kapital ehtiyyatlarından istifadə | | | | - |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **4.744.914** | **57.095** | **879.136** | **5.681.145** |

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI**

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 637.880 | 439.984 |
| Düzəlişlər | | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 250.000 | 175.600 |
| Hesablanmış mənfəət verigisi | | 109.996 |
| Maliyyə xərcləri | 11.353 | 34.270 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| * Ehtiyatlar üzrə (artım)/azalma | 5.914 | 1.401.391 |
| * Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | 700.757 | (1.488.923) |
| * Sair qısamüddətli aktivlərdə (artım)/azalma | (541.488) | 6.585 |
| * Cari vergi öhdəliklərində artım/(azalma) | 50.610 | 30.799 |
| * Sair qısamüddətli öhdəliklərdə artım/(azalma) | (108.319) | 73.826 |
| * Əməliyyat kreditor borclarında artım/(azalma) | (337.476) | 403.383 |
| * Ödənilmiş mənfəət vergisi | (127.576) | (109.996) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | **541.655** | **1.076.913** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri- maddi aktivlərin əldə edilməsi | (165.239) | (708.663) |
| Uzunmüddətli maddi və qeyri -maddi aktivlərin satışından gəlirlər | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(165.239)** | **(708.663)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Kapital ehtiyatlarından digər istifadə | | (49.959) |
| Dividendlərin verilməsi | (126.316) | (144.444) |
| Banklardan kredit şəklində alınmış məbləğlərin ödənilməsi | (998.947) | (177.052) |
| Banklardan alınmış kreditlər | 1.198.001 | 9.000 |
| Maliyyələşdirmə üzrə fəaliyyətlə əlaqədar sair daxilolmalar | | |
| Maliyyə xərcləri | (11.353) | (34.270) |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **61.385** | **(396.726)** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | | |
| **Xarici valyuta məzənnələrində dəyşiriklərin təsiri** | | |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **21.033** | **49.509** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **458.835** | **21.033** |

**“SURAXANI MAŞINQAYIRMA ZAVODU” ASC-nin rəhbərliyinə**

Mən, “SURAXANI MAŞINQAYIRMA ZAVODU” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır.

Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim, əlavə olaraq hesabatım “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Mən, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

rəhbərlik, maliyyə hesabatlarının BAS-lara (beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın . Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab edilir.

**Sərbəst auditor K.Ə.Alıyev, Bakı şəhəri, Nizami küçəsi 102.**
**10 may 2024-cü il**

# Avropa bədii gimnastlarının Bakı yarışı

## *Komandamız 1 qızıl, 4 bürünc medal qazanıb*



**Azərbaycanda daha bir beynəlxalq yarış – bədii gimnastika üzrə Avropa kuboku turniri uğurla keçirilib. Ölkəmizdə ikinci dəfədir ki, təşkil edilən qitə oyununu yenə möhtəşəm performanslar, həyəcanlı və maraqlı anlarla yadda qalıb.**

4 gün davam edən kubokda 25 ölkədən gimnastlar mübarizə aparıblar. Musiqili çıxışlar, xüsusi hazırlanmış rəqs kompozisiyaları, sürpriz fləşmoblar hər yaş qrupundan olan izləyicinin zövqünü oxşayıb. Bu kubokun özünəməxsusluğu qrup hərəkətləri komandaları arasında da çarpaz qarşılaşmaların keçirilməsi olub.

Yarışın 2-ci günündə ilk mükafatçılar sırasında Azərbaycan komandası da yer alıb. Böyüklər arasında qrup hərəkətlərində 3 top + 2 halqa şəklində çıxış edən Azərbaycan yığması parlaq nailiyyətə imza ataraq qızıl medal qazanıb. 5 lentlə hərəkətlərdə İtaliya fərqlənib. Həmin gün böyüklər arasında gürz və lentlərlə hərəkətlərdə Taisiia Onofriichuk (Ukrayna) hamıdan üstün olub. Topla yarışda Sofia Rafelli (İtaliya), halqalarla isə Taisiia Onofriichuk fərqlənib.

Mediaya açıqlama verən gimnast mövsümün ilk yarışında yüksək nəticə qazandıqları üçün xoşbəxt olduğunu deyib: “Milli Gimnastika Arenasında birinci olmaq və Azərbaycan Himnini səsləndirmək qürurverici hissdir. Hər birimiz bu yüksək mükafatı qazanmaq üçün gücümüzdən maksimum istifadə etdik. Komanda yoldaşlarımla fəxr edirəm”.

Yarışın üçüncü günündə gənclərdən ibarət qrup hərəkətləri komandası 5 halqa, 5 cüt gürzlə çıxış edib. Çoxnövçülük üzrə çıxış edən gənclərdən ibarət qrup hərəkətləri komandalarından Bolqarıstan ən yüksək nəticə göstərib. Bolqarıstan gənclər yaş kateqoriyasında fərdi proqram təsnifatı çərçivəsində də halqa, top, gürzlər və lentlə çıxışlarda komanda hesabında 1-ci yeri tutub.



Bolqarıstanlı gimnast Maqdalena Valkova açıqlamasında bildirib ki, ölkəsinə medalla qayıdacağı üçün çox sevinir: “Yarışa yaxşı hazırlaşdığımız üçün yüksək nəticə qazandıq. Hisslərimi sözlərlə ifadə etməkdə çətinlik çəkirəm. Çıxış zamanı bir qədər həyəcan olsa da, səhvə yol vermədən istədiyimizi nümayiş etdirə bildik. Buraya çempionluq üçün gəlmişdik və onu əldə etdik”.

Çarpaz qarşılaşmalarda Azərbaycan komandası 3-cü yeri tutub. Bu kateqoriyada qalib Bolqarıstan olub. Gənclərdən ibarət qrup hərəkətləri komandamız ayrı-ayrı alətlər üzrə həm 5 halqa proqramında, həm də 5 cüt gürzlə çıxışda bürünc medal qazanıb.

Yarışın sonuncu günündə gənclər yaş kateqoriyasında gimnastlardan fərdi proqram təsnifatı çərçivəsində lentlə çıxış edən təmsilçimiz Şəms Ağahüseynova 3-cü yeri tutub.

Böyüklər yaş kateqoriyasında fərdi proqramda çıxış edən gimnastların çarpaz qarşılaşmalarında italiyalı Sofia Raffaeli qızıl medala layiq görülüb. Sofia yarışla bağlı təəssüratlarını bölüşərkən deyib: “Bakıda keçirilən bədii gimnastika üzrə Avropa kubokunda qələbə qazandığım üçün çox sevinirəm. Bu qələbə, Avropa çempionatında daha yaxşı çıxış etməyimə kömək edəcək.

Bundan əvvəl Milli Gimnastika Arenasında keçirilən Dünya kubokunda çoxnövçülük üzrə yarışda da 1-ci yeri tutan gimnast qeyd edib ki, öz üzərində bundan sonra da çalışacaq: “İnanıram ki, qələbələr bol olacaq”.

Qeyd edək ki, Avropa Kubokunda 25 ölkədən 170-dən çox gimnast iştirak edib.

***L.QURBANOVA***
***XQ***

# Qubada sel körpünü uçurmuşdu...



**Bir-neçə gün bundan öncə sel suları nəticəsində Quba-Qonaqkənd-Muçu avtomobil yolunun 7-ci kilometrində Qaraçay çayı üzərində 101 metrlik körpünün 4 nömrəli dayağının şaquli oxdan çıxaraq əyilməsi prosesi baş vermişdi.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən mətbuata bildirilib ki, qısa müddət ərzində körpüyə mütəxəssislər tərəfindən baxış keçirilərək əraziyə xüsusi texnikalar və canlı qüvvə səfərbər olunaraq bərpa işlərinə başlanıldı. Artıq işlər yekunlaşdığından körpü ilə hərəkət bərpa olunub.

Qeyd olunub ki, qısa müddət ərzində sözügedən körpünün yanında yeni avtomobil körpüsünün inşasına da start veriləcək.

***XQ***

## “Suraxanı Satış Bazası” ASC səhmdarlarının nəzərinə!

13 iyun 2025-ci il saat 10.00-da “Suraxanı Satış Bazası” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin maliyyə hesabatının təsdiq edilməsi .
2. Mənfəətin və zərərlərin bölüşdürlməsi .
3.Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə tanış olmaq üçün həftənin iş günləri cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Əlaqə telefonu: +994503304151.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, 14 iyul küçəsi 153.

## “Bakqazmaş” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00-da “Bakqazmaş” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü ilin maliyyə fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Ünvan-Bakı şəhəri, Albalılıq qəsəbəsi.

***İdarə heyəti***

## “Gəncə Şərab – 2” ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

**(manatla)**

| **Aktivlər** | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | 9479270,73 | 9058986,39 |
| Qeyri-maddi aktivlər | 31989,08 | 26410,54 |
| Torpaq, tikili və avadanlıqlar | 9447281,65 | 9032575,85 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **9479270,73** | **9058986,39** |
| *Qısamüddətli aktivlər* | 22735258,69 | 22333879,12 |
| Ehtiyatlar | 16964296,82 | 18195751,74 |
| Qısamüddətli debitor borcları | 3465910,19 | 3658712,76 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1051352,03 | 479414,62 |
| Sair qısamüddətli maliyyə aktivləri | | |
| Sair qısamüddətli aktivlər | 1253699,65 | |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **22735258,69** | **22333879,12** |
| **CƏMİ AKTİVLƏR** | **32214529,42** | **31392865,51** |
| KAPİTAL | | |
| Ödənilmiş nominal (nizamnamə)kapital | 10685340,00 | 10685340,00 |
| Kapital ehtiyatları | 2346369,47 | 1463954,93 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 4759697,38 | 5556357,75 |
| **CƏMİ KAPİTAL** | **17791406,85** | **17705652,68** |
| **ÖHDƏLİKLƏR** | | |
| Qısamüddətli öhdəliklər | 14423122,57 | 13687212,83 |
| Qısamüddətli bank kreditləri | 4429523,37 | 5700828,63 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 2721265,98 | 1126179,04 |
| Qısamüddətli kreditor borcları | 7272333,22 | 6860205,16 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **14423122,57** | **13687212,83** |
| CƏMİ ÖHDƏLİKLƏR | 14423122,57 | 13687212,83 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **32214529,42** | **31392865,51** |

**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 18272937,22 | 15286820,66 |
| Satışın maya dəyəri | 15542071,56 | 12273581,69 |
| **Ümumi mənfəət** | **2730865,66** | **3013238,97** |
| Sair əməliyyat gəlirləri | 51019,39 | 28138,03 |
| Sair əməliyyat xərcləri | -72837,45 | -65900,71 |
| **Əməliyyat (mənfəəti-zərəri)** | **2709047,6** | **2975476,29** |
| Kurs fəri+ | | 495387,33 |
| Kurs fəri- | -84403,1 | -602157,34 |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **2624644,50** | **2868706,28** |
| Mənfəət vergisi | 524928,90 | 573741,26 |
| Hesabat dövründə xalis mənfəət (zərəri) | 2099715,60 | 2294965,02 |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI**

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| 2024-cü il yanvarın 1-nə qalıq | 10685340 | 1463954,93 | 5556357,75 | 17705652,68 |
| Mənfəətdən istifadə | | | 2896376,0 | 2896375,97 |
| Kapital ehtiyatına əlavə | | 882414,54 | | 882414,54 |
| 2024-cü dekabrın 31-nə qalıq | 10685340 | 2346369,47 | 4759697,4 | 15691691,25 |

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 91 (30784) 6 may 2025-ci il, çərşənbə axşamı

# Çıxıblar yenə də düzə lalələr...



**Onun başqa çiçəklər kimi nə doyumsuz ətri var, nə də gül büketində xüsusi yeri. Amma görkəmindən, yaraşığından göz doyur, könül sevinir. Bəlkə, buna görə onun şərəfinə mahnılar qoşulub:**

**Yayın əvvəlində Gəncə çölündə,**
**Çıxıblar yenə də düzə lalələr...**

İlin-günün bu vədəsi lalələr çöllərdə, düzlərdə, çəmənlərdə gözəllik sərgisi açır. Yazın ortasında yaşıl çəmənliyə sərilmiş qırmızı xalını xatırladan lalələr haqqında nələr deyilməyib?

**Bahar gələndə mən də,**
**Bitərəm göy çəməndə.**
**Yeyilmərəm, acıyam,**
**Çiçəklərin tacıyam.**
**Uşmağa yox qanadım,**
**Qızıl lalədir adım...**

Ana təbiətin qənirsiz gözəlini nəyə bənzətməyiblər? Qızıl bayrağa, həyalı qız yanağına, gözəl bir xanımın başına örtdüyü qırmızı yaylığa, od vurulmuş zəmiyə... Hansı gözlə baxırsan, bax, bütün hallarda laləli düz duyğuları cuşə gətirən füsunkar bir mənzərədir.

Yazın yönü bu tərəflərə düşəndən az sonra təkcə Gəncə düzündə yox, hər yerdə həmin mənzərə ilə üzləşmək mümkündür – Qəbələ ilə İsmayıllı arasındakı düzəngahda da, Ağgöl Milli parkında da, lalə bitən digər çöllərdə, dərələrdə, düzlərdə də...

İşğaldan azad olmuş Xocalıda bitən lalələr isə torpaq uğrunda axan şəhid qanına və onların torpaq üzərində boy göstərən arzularına bənzəyir. Üfüqlərə doğru uzanan düzlərdəki qırmızı lalələr yurdumuzu, torpağımızı bütöv və azad görmək istəyən şəhidlərin çiçək açan arzularıdır.

Çöl-bayırda uzaqdan baxanda tala-tala lalələr közərən ocaq yerini, tək-tək lalələr isə tarlanın sinəsində yanan qırmızı işığı xatırladır. Hətta yaşıl zəmi qoynundakı topa-topa lalələr nənələrimizin toxuduğu yaşıl yelənli xalıya oxşayır.

Hər nəyə bənzəyir-bənzəsin, qırmızı lalə bağrındakı qara xalla bir gözəllik dünyasıdır. Bu gözəlliyi görməyə, sevməyə və duyğulanmağa dəyər...

***Süleyman QARADAĞLI***

# Qızılbaş əsilli rəssam Oksfordda



**Dünyaca tanınan Azərbaycan əsilli pakistanlı rəssam və incəsənət müəllimi Səba Qızılbaş Oksford Universitetində Azərbaycan və Pakistan mədəniyyətlərinə dair dissertasiya müdafiə edərək doktor elmi dərəcəsi qazanıb.**

Qızılbaş Qlobal İrsi Təşkilatından əldə edilən məlumata görə, Səba Qızılbaş 1977-ci ildə Pakistanın Lahor şəhərində Qızılbaş ailəsində anadan olub. Lahor Milli İncəsənət Kollecində rəssamlıq üzrə bakalavr təhsili alıb, ABŞ-da İncəsənət Təhsili üzrə magistr dərəcəsinə yiyələnib. 2022-ci ildə Böyük Britaniyanın Oksford Universitetindəki Ruskin İncəsənət Məktəbində Təsviri İncəsənət üzrə ikinci magistr pilləsini tamamlayıb.

Azərbaycan və Pakistan mədəniyyətlərinin qarşılıqlı təsirlərinə və ortaq estetik dəyərlərinə həsr olunmuş dissertasiyası ona Mansfield-Ruddock və Pembroke Embery mükafatlarını qazandırıb.

Səba Qızılbaşın əsərləri Oksford, Nyu-York, Dubay, Honq-Konq, San-Fransisko və Pakistanda nüfuzlu sərgilərdə nümayiş etdirilib. 2022-ci ildə Cənubi Asiya Rəssamlıq Mükafatına, 2023-cü ildə isə Pakistanın nüfuzlu "Nigaah" İncəsənət Mükafatının "Üstün Rəssamlıq" nominasiyasına layiq görülüb.

Rəssamın "Bakıdan Multana" adlı silsilə əsərləri Oksford Universitetinin daimi muzey kolleksiyasına daxil olu-



nub. Bu silsilə tablolarında Səba Qızılbaş köklərinə, tarixə və mədəniyyətlərarası yaddaşa poetik baxış təqdim edir.

2017-ci ildə ailəsi ilə birlikdə ilk dəfə Bakıya səfər edən sənətkar Azərbaycanla bağlı təəssüratlarını belə ifadə edib: "Mən buranı ruhumun bir parçası kimi hiss edirəm."

Qeyd edək ki, Səba Qızılbaşın əcdadları Nadir Şah Əfşarın Hindistan yürüşündə iştirak edən Qızılbaş sərkərdələrinin nəslindəndir. Zəfərdən sonra onun ulu babaları Hindistanda şəhər və vilayət idarəçiliyində mühüm vəzifələrdə çalışıblar.

***Qulu KAZIMOV,***
***XQ-nin xüsusi müxbiri***

# "Azərkosmos"un 40 günlük bilik marafonu



**Coğrafi İnformasiya Sistemləri (CİS) Mərkəzinin əməkdaşları "Azərkosmos"un tərəfdaşlığı və dəstəyi ilə təşkil olunan "GİS-TECH Marathon 2025" layihəsində spiker kimi iştirak ediblər.**

40 gün davam edən bu marafon CİS texnologiyasına marağı olan gənc mütəxəssisləri bir araya gətirərək, onların bilik və bacarıqlarının inkişafına dəstək məqsədi daşıyır. Layihə çərçivəsində "Azərkosmos"un əməkdaşları CİS texnologiyalarının müxtəlif tətbiq sahələri, məkan məlumatlarının işlənməsi və peyk təsvirlərinin analizi mövzularında təqdimatlarla çıxış edərək, iştirakçılarla təcrübələrini bölüşüblər.

"Azərkosmos" CİS texnologiyaları sahəsində ölkədə kosmik ekosistemin gücləndirilməsi, bilik mübadiləsi və gənc mütəxəssislərin inkişafına dəstək istiqamətində fəaliyyətini davam etdirir.

***XQ***

## İdman

# İstanbulda 7 medal

**İstanbulda gənclər arasında keçirilən Avropa Kuboku turnirində Azərbaycan komandası 2-si qızıl, 5-i bürünc olmaqla 7 medal qazanıb.**



Yarışda Nizami İmanov (66 kq) qızıl, Aslan Kotsoyev (90 kq) keçirdiyi 5 görüşün hamısında qalib gələrək qızıl medala layiq görülüblər. Xədicə Qədəşova (52 kq), Nihad Məmişov, Fərid Qarayev (hər ikisi 60 kq), Mehdi Abbasov (81 kq), Ramazan Əhmədov (+100 kq) isə bürünc medal əldə ediblər.

Azərbaycan yığması bu nəticə ilə, 31 ölkə arasında ümumi komanda hesabında 4-cü, kişilər arasında isə 2-ci yeri tutub.

***L.AZAD***
***XQ***

## Sağlamlıq

# Qoy ayağın yerə dəysin...

**Ayaqyalın gəzmək həm fiziki, həm də ruhi sağlamlığa xeyirlidir. Mütəxəssislər bunun insana 6 faydasını açıqlayıblar:**



1. Stressi azaldır:

– Torpaqla təmas bədəndə stress hormonlarının ifrazını tarazlaşdırmağa kömək edir. Bu zaman insanı özünü daha sakit, dinc və balanslı hiss edir.

2. Yuxu keyfiyyətini yaxşılaşdırır:

– Bəzi tədqiqatlar göstərir ki, yerdə tez-tez ayaqyalın gəzən insanların yuxusu normaldır. Bu, yuxusuzluq problemi olanlara daha faydalıdır.

3. İmmuniteti gücləndirir:

– Yerlə birbaşa təmas bədənə mənfi yüklü elektronları torpağa ötürməyə imkan verir. Bu, immunitet sisteminin daha balanslı olmasına kömək edir.

4. Bədəndəki elektromaqnit yükünü azaldır:

– Davamlı olaraq elektron cihazlardan istfadə edən şəxslərdə elektromaqnit yükü artır. Torpaqla təmas bu yükü bədəndən çıxarır.

5. Qan dövranını dəstəkləyir:

– Ayaqyalın gəzmək təkcə qan dövranını dəstəkləmir, həm də ayaqlardakı sinir uclarını stimullaşdıraraq gümrahlıq yaradır.

6. Hər gün 10 dəqiqə kifayətdir:

– Mütəxəssislər hesab edirlər ki, hər gün 10–30 dəqiqə ayaqyalın gəzmək kifayətdir. Bağda, parkda və ya təbiətdə qısa gəzintilər bu sadə, lakin təsirli üsuldan faydalanmaq imkanı yaradır.

***Z.HÜSEYNLİ***
***XQ***

## HAVA

# Yağış, külək və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,mayın 6-da Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**



Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 14-17°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 18-23° , dağlarda gecə 3-7°, gündüz 7-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyevə anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3434**
**SİFARİŞ 879**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Paşa ƏMİRCANOV**
**Çapa imzalanmışdır 00:00**